

WWW.AZYB.AZ
WWW.AYB.AZ

AYLIQ ƏDƏBİYYAT DƏRGİSİ
APREL 2024

# Ulduz

№04 (654)

Xanım Anela:
özüylə söhbəti və hekayəsi

Bədirxan Əhmədli:
Üç hekayəyə bir baxış

"Ulduz" jurnalı ilə Ədəbiyyat Fondunun
Xalq yazıçısı Anarın 85 illik yubileyi münasibətilə
təşkil etdiyi hekayə müsabiqəsi qalibləri

Şeir vaxtı

Qısa fikirlər xəzinəsi

Tərcümə saatı

Dərgidə kitab

*"İşığın ardınca get! Kölgən arxanca
istər gəlsin, istər gəlməsin!"*
**Arif Nihad Asya**

# BU SAYIMIZDA




3
Xanım ANELA
özüylə söhbəti
və hekayəsi



7
Bədirxan ƏHMƏDLİ
Üç hekayəyə
bir baxış

11
"ULDUZ" jurnalı ilə Ədəbiyyat Fondunun Xalq yazıçısı Anarın 85 illik yubileyi münasibətilə təşkil etdiyi hekayə müsabiqəsi qalibləri







21
Gülnar ÜMİD
Taleyin qayçısı



25
Nemət MƏTİN
Ulduz



26
Seyid AYNUR
Meşəli

29
qısa fikirlər
xəzinəsi



33
Günel MEHRİ
Varla yoxun
əhvalatı



35
Əli ƏL-ŞƏLAH
Bəsit zaman



42
Elçin
HÜSEYNBƏYLİ
Qatarda




**45** Günel Natiq
SSS: Seyran Səxavətlə Söhbət





**52** Məmməd MƏMMƏDLİ
27 yaşımda öləcəm...

**54** Əli BAĞIŞ
Sözlərim





**55** Xatirə SALAHZADƏ
Xiffət

**58** Aynur ƏDİL
Cavabsız məktublar

**60** Sadıq QARAYEV
Düzülüş və mövcudluq

**62** Təranə DƏMİR
Əli bəy Azəri və “erməni Borisov”

**64** Kəmaləddin QƏDİM
Qarı nənəmin son günləri





**67** Qürbət MİRZƏZADƏ
Adiliyin poeziyası

**72** Vasif ƏLİHÜSEYN
Dərd eləmə, əzizim

**73** Zülfiyyə ZİYA
Ələmdən-nəşəyə

**75** Elnur İRƏVANLI
Sən dünyanı bizdən oxu

**77** Ramiz GÖYÜŞ
Şair İbrahim İlyaslının sevgi şeirləri üstə gəzişmələr

**82** Elman İSGƏNDƏR
Səadət xəyalı

**84** Xəyal RZA
Dərgidə kitab



**Təsisçilər:**
Azərbaycan Yazıçılar Birliyi və “Ulduz” jurnalının kollektivi
**Baş redaktor:** Qulu Ağsəs


**Redaksiya heyəti:** Təranə Vahid (Baş redaktor müavini), Hicran Hüseynova (şöbə redaktoru), Dayandur Sevgin (şöbə redaktoru), Taleh Mansur (şöbə redaktoru), Anar Amin, Allahşükür Ağa, Baloğlan Cəlil (Başqırdıstan), Cavid Zeynallı, Elxan Yurdoğlu, Elmar Vüqarlı, Elşən Əzim, Elxan Elatlı, Ələmdar Cabbarlı, Əyyub Qiyas, Furqan, Fuad Cəfərli, Gülnar Ümid, Günay Səma (Voronej), Həyat Şəmi, Hafiz Hacxalıl, Xəyal Rza, Xaqanı Qayıblı (Estoniya), Qılman İman, Nuranə Nur, Nargis, Nilufər Şıxlı (Moskva), Məshəti Musa, Orxan Cuvarlı, Rəsmiyyə Sabir, Səhər Əhməd, Seyfəddin Alaylı (Türkiyə), Saodat Muxammadova (Özbəkistan), Şəfa Vəli, Ulucay Akif.


**Bədii redaktor:** Ədalət Həsən
**Ünvanı:** AZ1000, Bakı, Xaqani küçəsi, 25 ulduz_dergisi@mail.ru; www.ayb.az
**Telefon:** (+99412)498-72-43
Çapa imzalanıb: 29.04.2024. “Ulduz” jurnalı redaksiyasında yığılıb, səhifələnib.
**“ASPOLİQRAF LTD” MMC**-də çap olunub.
Sifariş №13, Tiraj: 300. Qiyməti: 2 man. **1967-ci ildən çıxır. Şəhadətnamə** № 238




**"AZƏRMƏTBUATYAYIMI" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ**

**"Ulduz"** jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon "Mətbuatyayımı" şöbələrinə müraciət etməyiniz kifayətdir.

**"QAYA" MƏTBUAT YAYIMI**

**"Ulduz"** jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon "QAYA" mətbuat yayımı şöbələrinə müraciət etməyiniz kifayətdir.

**Jurnalın**
**satış qiyməti – 2.00 man.**
**abunə qiyməti – 2.00 man.**

**Bakı şəhərində abunə yazılmaq istəyənlər:**

**441-19-91**
**440-16-26**

**566 – 77 – 80**

# özüylə söhbəti...



Xanım ANELA

"Ədəbiyyat həyatı şəkilləndirir", səhv etmirəmsə, fransız dramaturq Jan Anuy belə deyirdi. Bu, həqiqətən də, belədir. Mənim ədəbiyyata marağım məktəbli vaxtlarımdan başlayıb, desəm, bu, doğru olmaz. O qədər ədəbiyyat aşiqi də deyildim. Bədii kitablarla tanışlığımı isə xatırlayıram. Səkkiz yaşımda "Sənə bu kitabları oxumaq olmaz!", "Bu kitablar uşaqlara aid deyil!" xəbərdarlıqları ilə başlayıb əcaib tanışlığımız. Anamın bir iş dalınca evdən harasa gedəndə qadağa qoyduğu və mənim ondan gizli oxuduğum iki kitabla başladı hər şey... "Beşmərtəbəli evin altıncı mərtəbəsi" və "Sevil". Xatirimdədir, böyük qardaşımın adının qoyulması da bu kitablardan biri ilə əlaqəli olmuşdu.

Hə, evdə əlimə keçən kitabları xəlvəti götürüb oxuyurdum. Bir az böyüyəndən sonra isə bu əməlim getdikcə daha çox vərdişə çevrilməyə başladı. Lakin yenə də ədəbiyyata sonsuz sevgi bəsləyirdim, desəm, doğru olmazdı...

Rusiyada təhsil aldığıma görə mənimçün ədəbiyyat dərsləri olduqca çətin və müşkül görünürdü. Tolstoyu, Dostoyevskini, Çexovu, ümumiyyətlə, əksəriyyət klassikləri məktəb proqramında geniş tədris edirdilər deyə, əlavə nəsə oxumaqçün "doymuş" kimi hiss edirdin özünü.

Elə o illərdə çox yaxşı bacardığım bir şey var idi, hətta deyərdim ki, iki – inşa yazmaq və şeir oxumaq. Şeir oxumağı uşaqlıqdan sevirdim, baxmayaraq ki, əzbərləmək mənimçün, adətən, çətin olurdu. Amma eşidənlər həmişə ifadəli şeir oxumağımı, qiraətimi bəyənirdilər. Elə indi də arasıra davam edirəm.

Dörd-beş ili geridə qoymuşdum. Artıq on birinci sinifdə idim. İndi deyirəm ha, ədəbiyyata çox marağım yox idi, yenə də, necə oldusa, məktəbi bitirəndə bizə əsas fənlərdən başqa fənn seçimi verəndə (o zamanlar Rusiyada qayda belə idi) düşünmədən ədəbiyyat və astronomiyanı seçmişdim. Təsadüf idimi?! Təsadüf deyilən bir şeyin mümkünlüyünə inanmadığıma görə bunun bir işarə olduğunu anlayırdım.

Yazmağa nə zaman başladım? Ya da uydurmağa desəm, daha doğru olar. Çünki ilk yazılarım əksəriyyət yeniyetmə qızların tutduğuna bənzər gündəlikdə idi. Özümə aid dünyam var idi, orda tək yaşayırdım. Hamının gündəliyə yazdığı hadisələrdən məndə yox idi. Mən də məcbur qalıb uydururdum. Düzdür, bu uydurmalar da başıma bir gün bəla oldu, amma bu da başqa bir hekayədir...

Tələbəlik illərim başlamışdı. Bədii kitablarla aram yenə həmişəki kimi sərin idi. Kinoya baxmağı sevirdim. Hə, onu da deyim ki, evimiz hər zaman bədii kitablarla dolu olub. Rəhmətlik atam çox oxuyurdu, ən sevdiyi yazıçı Cek London idi. Lakin mən hüquq fakültəsinin tələbəsi idim, bütün fikrimi dərslərimə verirdim, ən fəal tələbələrdən idim. Vəkil olacaqdım...

Kuratorumuz, Yakuşev Anatoliy Vasilyeviç bizə psixologiyadan dərs deyirdi. Günlərin bir günü, qalın bir dəftəri var idi, onu da qoltuğuna vurub auditoriyaya gəldi. Bu dəftəri birinci kursdan tutduğunu dedi. Bizimlə bağlı qeydlər aparırmış. Soyadım "A" hərfi ilə başladığı üçün ilk mənimlə bağlı qeydlərindən başladı. Əvvəlcə bütün yaxşı xüsusiyyətlərimdən danışdı, məsuliyyətli və humanist olduğumu dəfələrlə vurğuladıqdan sonra belə dedi: "Xanım, sən heç vaxt hüquq

mühafizə orqanlarında işləməyəcəksən”. Tutuldum, donub qaldım... “Nə danışır bu adam? Necə yəni? Mən axı sevərək seçmişəm bu peşəni...”. Üzümə bir az diqqətlə baxdıqdan sonra “Sən çox həssassan, hisslərin öndə gedir. Hüquq soyuq - qanlılıq tələb edir. Sənin isə ruhun sanki bir yazıçı ruhuna bənzəyir” – fikirlərini əsaslandırmağa çalışdı. “Cəfəngiyyat” deyə ağlımdan keçirdim...

İllər keçmişdi, artıq Azərbaycanda yaşayırdım, iki övlad anası idim. Bədii kitablar oxuyurdummu? Xeyr. Elmi kitablar, tibbə aid kitablar, öyrənə biləcəyim bütün nə varsa. Bədii kitablardan hələ də uzaq idim…

Günlərin bir günü Rusiyadan gətirdiyim dəftərlərdən biri keçdi əlimə. Nələr uydurubmuşam?! Bu, hazır hekayə idi, ya da film sse - narisi... Rusca yazmışdım.

O gündən sonra boş vaxtlarımda o hekayəni Azərbaycan dilinə tərcümə etdim və o gündən bəri də yazmağa başladım. Yazdıqca sakitləşdiyimi, ruhumun dincəldiyini hiss etdim. Məlhəm kimi gəlirdi yazmaq mənə.

Bir müddət sonra ilk əsərimi, “Amarna günahkarları” romanımı ssenari şəklində yazdım və fikrini öyrənmək üçün tanınmış kinematoqraflardan birinə göndərdim. Bir gün sonra mənə “Bunu özün yazmısan?” – deyə soruşdu. “Bizdə bunu çəkə biləcək rejissor yoxdu. Sən ən yaxşısı bunu kitaba çevir” deyə tövsiyə etdi. Elə onun dediyi kimi də etdim…

“Amarna günahkarları” kitabımla başladı ədəbiyyat aləminə səyahətim, indiyədək də davam edir. Ədəbiyyatı sevdim, bütün qəlbimlə bağlandım ədəbiyyata. Artıq altı ildir nəşriyyatda işləyirəm. Nə qədər bədii kitab oxumuşam? Sayını itirmişəm... Yazmaq isə nəfəs almaq kimi vazkeçilməz bir rituala çevrilib mənimçün. Yaşadığım müddətcə belə də davam edəcək, hər halda. Kinolar? Baxıram hərdən, amma düşünürəm ki, kiminsə beynində qurduğu və şəkilləndirərək hazır formada qarşımıza qoyduğu təxəyyülündənsə əsərin özünü oxuyaraq istədiyimiz kimi beynimizdə canlan - dırmaq daha gözəldir, daha canlıdır, daha estetikdir…

Bax belə, əziz oxucum… Ədəbiyyata gəlişim mənimçün bu günün özündə də islaholunmaz və müəmmalı hisslərlə bağlıdır. Yaşadıqca çox müəmmalarla qarşılaşdım, onları özümçün, oxucu - larımçün aydınlaşdırmağa, gün işığına çıxarmağa çalışdım. O müəmmalardan birini hekayəmdə sizinçün danışıram…

# ...və hekayəsi

## MÜƏMMALI

İnsan həyatı, insanın bu dünyaya gəlişi haqda hər birimizin inandığı bir həqiqət var. Mən həmişə insanın bu dünyada bir missiyası olduğu həqiqətinə inanmışam. Biz heç birimiz bu dünyaya təsadüfən gəlməmişik. Ümumiyyətlə, təsadüf deyilən bir şey yoxdur. Ancaq bəzi həyatlar var, insanlar var, mənim üçün müəmmalıdır... Hər dəfə həyatın mənası haqqında düşünəndə bu fikir ağlıma gəlir, lakin bunu izah edə bilmədiyimçün heç vaxt heç kəslə bölüşməmişəm. Və hər dəfə ağlıma Nizi gəlir...

Nizinin əsl adı Nizami idi. Hələ yeddi yaşım tamam olmamışdı onu ilk dəfə görəndə. Nənəmgildə söz-söhbət, təlaş var idi. Uşaq ağlımla duyduğum şeylərdən çox təsirlənmişdim. Bakıdan rayona pambıq yığmağa gedən tələbələr pambıq sahəsində uşaq səsi eşidib, səsə getdikdə isə ağa bükülmüş, ağlamaqdan səsi batmış, bağlı ayaqlarını bir-birinə sürtməkdən dərisi yeyilmiş, gözlərini qarışqa basmış körpə tapmışdılar. Anamın xalası bu xəbəri duyar-duymaz əl-ayağa düşdü. İllərdi körpəyə sahib ola bilməmişdi və bununla barışıb ər-arvad baş-başa verib yaşamışdılar. Nənəmin bacısı olduğu üçün onu da nənə deyə çağırırdıq. Adı Qönçə olsa da, nədənsə Xonça kimi tanıyırdı hər kəs. Biz də “Xonça nənə” deyirdik…

Xonça nənəm əri ilə bütün sənədləri toplayıb uşağı övladlığa götürdülər. Adını da Nizami qoydular. Nizami bir neçə aylıq olanda Xonça nənəm qaraciyər xəstəliyindən Bakıya əməliyyat olunmağa getdi. Nizamini nənəmin evində hər kəs növbə ilə saxlayırdı. Birinci sinifdə oxuyurdum. Qardaşımla yatıb yuxumuzu da ala bilmirdik, gecələr Nizaminin çığırtıları imkan vermirdi. Nizaminin səsi ilə bərabər, anamın da “Nizim, lay-lay” səsi artıq beynimizə həkk olmuşdu. Xonça nənəmin əri Şəmil baba Nizamini “Nizi” deyə çağırırdı deyə, artıq hamımız onun ağzı ilə

çağırırdıq: “Nizi”. Bir aydan çox keçmişdi, Xonça nənəm qayıtdı. Biz artıq Niziyə alışmışdıq...

İllər keçirdi, Nizi böyüyürdü. Xonça nənəmlə Şəmil babam o qədər övlad həsrəti çəkmişdilər ki, Nizini dünyanın, bəlkə də, ən ərköyün övladı kimi böyüdürdülər. Hərdən onlara qonaq gedirdik. Nizi bağlarındakı ən gözəl meyvə ağaclarına dırmanıb bizə ərik, gilas, alça yığırdı. Nə qədər nadinc idisə, o qədər də təmiz ürəkli, mərd böyüyürdü. Ən sevdiyi əyləncə atası televizora baxanda, ya da bir qonaqla oturub söhbət edəndə onun başına dırmanıb boynunda oturmaq idi. Şəmil babam isə gülüb hərdən sadəcə, “yazıq Nizi... yazıq Nizi” deyirdi.

Çox keçmədi, Şəmil babam dünyasını dəyişdi. Nəvələrdən böyük olduğum üçün Nizinin başını qatmaq mənə düşmüşdü. Böyüklər üç gün, sadəcə, axşamdan-axşama evə gəlirdilər. Çox nadinc idi. Mən onu sudan, oddan, heyvanlardan, hər şeydən qorumali idim. Nə etsəm, olmurdu. Ən yaxşı bacardığım işə əl atdım, nağıllar uydurub Niziyə danışırdım. Bu, işə yaramışdı: “Mənə əsgər nağılı danış, bacı, nolarrr...” – hər nağılımda bir əsgər var idi. Hətta Cırtdanı belə əsgərə çevirmişdim.

Nizami atasının ölümünü öyrənəndə təmiz nadincləşmiş, ipə-sapa yatmaz olmuşdu, heç sözə baxmırdı. Sanki acısını belə yaşayırdı... Bir müddət sonra biz artıq Azərbaycandan getdik və mən Nizamini bir də artıq məktəbin son illərində gördüm. Öyrəndim ki, Xonça nənəm Nizini də götürüb Füzuli rayonuna köçüb. Özləri də bilmədən qəddar olan məktəbli uşaqlar Niziyə atası ilə bağlı nəsə danışanda Şəmil babamın onun doğma atası olmadığını deyibmiş. Xonça nənəm də Nizami hər şeyi öyrənməsin deyə, guya ərinin dəfn olunduğu qəbiristana yaxın olmaq bəhanəsi ilə evini-eşiyini satıb, kiçik bir daxma alaraq bir ucqar kəndə köçmüşdü.

Qadınların baş bəlası olan seriallar burda da özünü yetirmişdi. O vaxt məşhur olan biri var idi, “Klon”, Xonça nənəm ordakı qəhrəmanın övladlıq olduğunu öyrənəndən sonra öz anasına nifrət etdiyini görüb Nizamiyə hər şeyi açıb danışıb. Nizami xeyli susduqdan sonra ağlayaraq Xonça nənəmi qucaqlayıb “Mənim anam sənsən!” – deyib. Bunları Azərbaycana qayıdandan sonra mənə nənəm danışdı. Gəldiyim günün axşamı elə



Nizami özünü yetirmişdi. Necə sevinmişdi bizi görəndə... Heç dəyişməmişdi. Həmin nadinc Nizi...

Demək olar, həftənin yarısını bizimlə keçirirdi. Heç vaxt adımı deməzdi, sadəcə, “bacı” çağırardı.

Əsgər getdi Nizimiz… O, əsgərlikdə olduğu vaxt, yeni il gecəsi bərk qar yağmışdı. Birdən darvazanın səsi eşidildi. Qəribədi, itim Vinni də hürmədi. Yəqin, tanış adamdı, deyib qapını açdım. Birdən əsgər paltarında “bacı, mənəm” deyən Nizini gördüm. Dərhal boynuna atıldım. İkiqat şadyanalıq oldu, Nizi gəlmişdi, yeni il gecəsinə bundan gözəl sürprizmi olar?! Evlərinə deyil, bizə gəlmişdi. Hər kəs yığışıb getdi Xonça nənəmi sevindirməyə...

* * *

Qabaqda toy var idi, Nizaminin toyu!

Heç vaxt səsi çıxmayan telefonum susmaq bilmirdi.

– Alo, – cavab verdim.

– Bacı, – Nizinin səsini eşitdim.

– Ay can, Nizi!

– Bacı, səndən bir şey istəyəcəm.

– Nə? – təəccüblə soruşdum. Çünki o heç vaxt mənə zəng vurub nəsə istəməzdi.

– Gülnarın bu bəzək işlərini-filan sən edə bilərsən? Xalam dedi, bacarırsan. Bir də ona da pul verməyim.

– Təkcə qız toyunda? – soruşdum. Çünki öz hayımda idim. Gəlini bəzəsəm, özümə vaxtım qalmayacaqdı.

– Hər ikisində... – elə səslə dedi ki, yox deyə bilmədim.

Nizinin toyuna çox həvəslə hazırlaşırdıq. Onun bizdən başqa kimi var idi ki?! Hətta atamın mənə hədiyyə etdiyi üzüklərdən birini Xonça nənəmə verdim, gəlinə hədiyyə versin deyə. Hər şeyin könlüncə olması üçün əlimizdən gələni edirdik. Ona tək olduğunu hiss etdirməməyə çalışırdıq.

Evlənəndən sonra Nizini az-az görürdüm. Bir çoxlarımızdakı kimi, iş axtarışları, ailə dolandırmaq kimi problemləri peyda olmuşdu… Sonralar eşitdim ki, hərbiyə işə düzəlib. Çox narahat oldum. Çünki Nizinin necə biri olduğunu hamımız bilirdik, həm də cəbhə bölgəsində. Ara-sıra eşidirdim ki, hər atəşgah pozulanda Nizami irəli gedir. Onunla bağlı narahatlığım gün-gündən artırdı. Artıq bir qızı var idi, Ayşə var idi; ikinci də dünyaya gəlmək üzərə idi.

Bir gün gəldi bizə, axşam düşürdü... Evə getməyəcəyini dedi, yoldaşı isə dayanmadan zəng vurub harda olduğunu soruşurdu. Hamımız narahat olduq, ailəsində problem yaranar deyə, danladıq hərə bir tərəfdən. Nədənsə kefsizləşdi, sanki getmək istəmirdi. Sağollaşanda isə “Nolar, ehtiyatlı ol, irəliyə soxulma bu atışmalar zamanı” – dedim. Cavabında “Mən onsuz da şəhid olacam!” deyib getdi. Məni qıcıqlandırmaq üçün dediyini düşündüm. Çox əsəbiləşdim. Eləcə də ayrıldıq. O gedəndən xeyli sonra hələ də deyinirdim.

Bir neçə gün sonra Nizaminin vurulduğu xəbərini aldım… Onun dəfn mərasiminə getmədim, gedə bilmədim... Bunu da heç cür izah edə bilmirəm. Bəlkə də, qəbullanmadığım üçün... Onun məzarını ziyarət etməyə gedəndə şəhid olmasından bir ildən çox keçmişdi. Dərdinə dözməyib dünyadan heç bir xəstəliyi olmadan köçən Xonça nənəmin məzarı üstə gedəndə baş çəkmişdim Niziyə…

Nizamiyə atışma zamanı həlak olduğu üçün şəhidlik adı verilsə də, o, düşmənlər tərəfindən vurulmamışdı. Avtomatla ehtiyatsız davranılması nəticəsində Babaşov Nizami Şəmil oğlunun öz əsgərimiz tərəfindən vurulduğu deyilirdi. Vəziyyət qarma-qarışıq idi... Hərə bir söz deyirdi... Ancaq yenə də dediyini edib öndə getmişdi… Yarasını isə arxadan, kürəyindən almışdı… Ürəyindən...

23.01.2015-ci il… gecə… bu tarix təkcə Nizaminin şəhid olduğu gün deyildi, həmin gecə Nizaminin ikinci qızı – Arzu da dünyaya gəlmişdi...

Film kimi, amansız bir... Mən artıq Nizinin adını eşidəndə anamın onu beləkdə yelləyərək oxuduğu “Nizim, lay-lay” sözlərini deyil, onun yasında ağlayaraq “Gəlişi kimi müəmmalı gedişli Nizim, lay-lay” sözlərini xatırlayıram…Müəmmalı...





# ÜÇ HEKAYƏYƏ BİR BAXIŞ

## *"Ulduz" jurnalının baş redaktoru Qulu Ağsəsə*

Hörmətli baş redaktor! Bu günlərdə tənqidçi, ədəbiyyatşünas Kəmalə Umudova söhbət zamanı Sizin jurnalın Xalq yazıçısı Anarın 85 illik yubileyinə həsr olunmuş gənclərin hekayə müsabiqəsi haqqında danışdı və Xan Abdullanın "Yazgülün nəvəsi" hekayəsi ilə bağlı yüksək fikirlər söylədi. Görkəmli ədəbiyyatşünas Kəmalə xanımın gəncliyin yaradıcılığına bu qiyməti mənim diqqətimi çəkdi və sizin də köməkliyinizlə müsabiqədə yer tutan digər iki gənc yazıçının-Cavid Babayev və Orxan Cuvarlının da hekayələrini əldə edib fikir bildirmək istədim. Öncə belə bir müsabiqənin keçirilməsindən dolayı Sizə təşəkkür edirəm. Bu cür müsabiqələr təkcə gəncliyin yaradıcılığına verilən qiymət deyil, həm də ədəbi prosesi zənginləşdirmək, ədəbiyyatın inkişafına verilən dəstəkdir. Mən də bu kiçik məqaləni yazmaqla istədim ki, bu hekayələr çağdaş nəsrimizin faktı kimi dəyərləndirilsin və həqiqi qiymətini alsın...

Hörmətlə,
**Bədirxan ƏHMƏDLİ**
*Filologiya elmləri doktoru, professor*

Üç gənc, üç imza, üç hekayə və bu hekayələrin ümid verdiyi üç gələcək ədəbi həyat... Bu fikirləri, bəlkə, sonda yazsam, daha yaxşı olardı, yəni gəldiyim qənaət kimi səslənərdi. Ancaq gəldiyimiz qənaətlər yalnız bununla məhdudlaşmır, bu hekayələri oxuduqca yeni nəslin və yeni nəsrin hərəkətini izləməli oldum. Bu hekayələrdə zamanın axarı və ona yazıçı münasibətilə rastlaşdım, üslub müxtəlifliyi və özünəməxsusluğu, həyatın bədii idrakını və inikasını gördüm. Yeni süjet xətləri, obrazlar, bənzərsiz bədii təfəkkür, ideya, məzmun aydınlığı, yeni estetik yanaşma-bütün bunlar gənc nəslin gələcək ədəbi taleyini bəlirləyən faktorlardandır.

Cavid Babayevin "Üç nəfərlik motosikletlər" hekayəsi maraqlı bir süjet üzərində qurulub. Hekayənin əvvəlindən sonuna kimi yazıçı hadisələri bir-birinə bağlaya bilir, hətta elə bağlayır ki, bu bədii qaynaq zərrəcə hiss olunmur, keçidləri belə hiss etmək olmur. Ən adi detal belə təsadüfi işlədilmir və sonrakı gedişatda mütləq o detalın nədən işlənildiyi ortaya çıxır. Bu, yazıçı (xüsusən gənc yazıçı!) üçün çox şey deməkdir; o deməkdir ki, burada təsvirlərin heç biri gəlişigözəl deyil, mütləq şəkildə hər detalın bir funksiyası var. Hekayənin lap əvvəlində Benzlər ailəsinin uşağının olmaması, bu ailənin həyat hekayəsi, təhkiyəçinin həyatı, eləcə də Deyşanın taleyi bir-birilə bağlanır. Kiçik bir hekayəyə üç taleyi sığışdırmaq yazıçı dilinin funksionallığı, çevikliyi ilə şərtlənir. Əvvəlcə avtomobil sənayesinin ilk qurucusu Benzlər ailəsinin həyatı gəlir; Karl və Berthanın evlilik hekayəsi üç nəfərlik motosikletin yaranması ilə bağlanılır. Berthanın uşağının olmamasından doğan vəziyyət ailədə üç nəfərin olması istəyi ilə üst-üstə düşür. Ailə iki yaşında oğlan uşağı götürür və beləliklə, üç nəfərlik motosikletin yaranması hekayəsi quraşdırılır. Artıq universitet bitirərək həkim olan və üç nəfərlik ailəsi olan (eynilə Benzlər ailəsi kimi!) təhkiyəçiyə bunu Deyşa danışmışdı. Bundan sonra qəhrəmanın və Deyşanın özünün həyatı təsvir olunur. Qarayev metrosunun yaxınlığında 5 mərtəbəli evdə yaşayan

11 yaşlı cılız bir məktəbli oğlanın Deyşaya münasibəti səmimidir. Qonşu 20 mərtəbəli binada yaşayan Deyşa haqqında onun gördükləri ilə eşitdikləri bir-birinə ziddir. Deyşa əvvəllər burada yaşamayıb, sonralar gəlib və gəldiyi kimi də bir gün sirli şəkildə gedir. Yazıçı onun gözəlliyinə də işarə vurur. Ətrafın düşündüyünə görə isə Deyşa bu mühitə yaddır, onun geyimi, üç nəfərlik motosiklet sürməsi, siqaret çəkməsi ətrafda narahat təsirlər yaradır. Deyşanın kişilər kimi geyinməsi, tək yaşaması da məhəllədə söz-söhbətə səbəb olur. Məhəllə onun haqqında başqa şeylər düşünür. Bir neçə dəfə dostu T ilə onun motosikletində gedib-gələndən sonra T bir daha minməməyə qərar verir. Bunu ona anası qadağan edir və bildirir ki, Deyşa yaxşı qız deyil və onun yanında olmamalısınız. Hər halda, böyüklər Deyşa haqqında o fikirdə idilər. 11 yaşlı oğlan isə ondan gördüyü yaxşılığı unutmaq istəmir, ona yaxın olmaq istəyir: *"Filmlərdəki oğlanlar kimi hiss edirdim özümü. Uşaq ağlımla sanki Deyşanın mənim olduğuna qərar vermişdim. O vaxtlar bu hissin nə olduğunu anlaya bilməmişdim. O, nişanlım, sevgilim, dostum, bacım, yoxsa anam idi? Bəlkə, hamısı birdən? Bəlkə, heç biri? "Əsas odur ki, xoşbəxtəm" deyə düşünüb bütün suallardan imtina etdim".*

Deyşanı ən yaxşı 11 yaşlı oğlan başa düşür; sonralar xatırladığı bu hadisələrin təsvirindən aydın olur ki, Deyşa heç də başa düşüldüyü kimi olmayıb. Oğlanı maraqlandıran həmişə işığının niyə yanılı olmasıdı, bir də özü tək olduğu halda, niyə üç nəfərlik motosiklet sürməsi. 11 yaşlı oğlan Deyşanı elə bu cür də qəbul edir və hətta sevir. Düşünür ki, içki içmək, siqaret çəkmək pis vərdişlər olsa da, onu tərgitdirə də bilər. Burada yazıçı ilə cəmiyyətin tək yaşayan Deyşa kimi bir qıza xor baxmağın reallığı əks etdirmədiyi barədə mübahisə etmək də olar. Ancaq əsas odur ki, yazıçı bunu oxucuya inandıra bilir.

Yazıçı bədii mətni yaxşı toxuyur, heç bir boşluq buraxmır. Hekayənin əvvəlindəki təsvirləri sonrakı detallar tamamlayır. Deyşanın motosikletindən asılan koala brelokunun əvvəldə təsvirinin sirri sonda aydın olur. Deyşa o breloku qəhrəmanın getdiyi avtobus sürücüsünə verərək ona çatdırmağı istəmişdi.

Hekayənin sonunda məlum olur ki, təhkiyəçinin Deyşadan eşitdiyi bu hekayənin özü gerçəkliyi əks etdirmir. Yazıçı Deyşa barədə məhəllənin insanlarının yanlış təsəvvürdə olduğu qənaətinə gəlir və bununla da bizim bir çox məsələlərdə yanlış qənaətlər əldə etdiyimizi göstərmık istəyir.

Hekayənin sonluğu da, fikrimcə, uğurludur. Təhkiyəçinin nənəsinin "torpağın altına", T-nin Avropaya getməsi, özünün evliliyi və uşağının arxa oturacaqda oturması, Deyşanın ona Benzlər ailəsi haqqında yalan deməsini indi başa düşməsi və s. heç də yamaq kimi səslənmir. Bu cür təhlillər keçdiyi həyatla bugünkü həyatını müqayisə etməsinə imkan yaradır və arxada oturan oğluna baxıb düşünür: *"Maşında orta güzgüdən arxada oturmuş oğluma baxıram. Onun dünyayla bağlarının vaxtından tez qırılmaması naminə neçə cür yalan danışmışam? Sağımda oturan arvadıma baxıram. Görəsən, o neçə şirin yalan sayıb mənim ovcuma?"* Deyşanın ona qoyub getdiyi koalanın indi maşınının açarından yapışması isə ugurlu təsvirlər zəncirinin zirvəsidir. Bu detal təhkiyəçinin yaddaşından koalanın heç zaman getmədiyi anlamına gəlir.

Hekayədəki nəsr texnologiyası, hadisələrin və düşüncələrin iç-içə bağlanması, qəhrəmanın müxtəlif dövrlərinin təsviri, bəzən obrazın adının bir hərflə verilməsi (burada T) Murakami nəsr texologiyasını xatırlatdı mənə. Ancaq hər şey gənc yazıçının özünündür və bu cür nəsr texnologiyası onun gələcək yazıçı potensialından xəbər verir.

Orxan Cuvarlının "Daş" hekayəsi lirik-romantik üslubdadır. Bu üslubu mövzunun özü doğurur. Xocalı hadisəsinə həsr olunan hekayə qəhrəmanın otuz il əvvəlki yaddaşını və onun buraxdığı acı, kədərli izləri ehtiva edir. Qəhrəman illərdi eyni mənzərəni görür; bu mənzərə onun gözlərində daşlaşmış şəkildədi. Sanki kimsə göy üzünü onun gözləri qarşısında asıb gedib. Qəhrəman öz keçmişindən qurtula bilmir: *"Hərdən ötüb keçən vaxtlar quduz it kimi üstümə cumur. Hafizəmin illər əvvəlki hissəsindən sivişib irəli atılan xatirələr uzun labirintlərdən yarısağ, yarıölü gözlərimin önünə dikilir. Elə indi də bu tutqun səmaya baxıb bulanıq yaddaşımı ələk-vələk edirəm".*

Yazıçı təhkiyəçinin dili ilə sanki daşlaşmış insan ürəyinin kardioqramını çıxarır; həmin məşum gecədə insanların qəddarlığının sonsuzluğu Xocalı soyqırımını doğuran amillər kimi mənalanır. Yazıçı burada nə erməni adı çəkir, nə də onların vəhşiklikləri barədə yüksək səslə haray salır; sadəcə, yaşananları lirik şəkildə təsvir edir: *"Kim bilir, bəlkə, bir möcüzə olsaydı, şaxtada bədəni qaxaca dönən cansız uşaqlardan biri*

*dirilsəydi, sevinə-sevinə ilk dəfə gördüyü bu qəribəliyi dostlarına müjdələyərdi: "Uşaqlar, qırmızı qar yağıb…"* Son dərəcə ugurlu bənzətmədi. Yaddaşlarda yemək iyini pəncərələrdən dolan barıt iyinin əvəzləməsi, hərbi geyimli tanımadıqları adamların evlərə girməsi, "divan küncündə unudulan kuklanın sarı saçlarının qırov bağlaması kimi təsvirlər bütöv hadisənin mahiyyətini son dərəcə dəqiqliklə açır*: "Əvvəlcə bu şəhərin sakinlərinin ürəyini sökdülər, sonra evlərini.*

*Kərpic-kərpic tikilən bu yuva, indi də daş-daş, himinə qədər sökülürdü.*

*Günlər keçdikcə o əzəmətli ev qəfil xəstəliyə tutulan adamlar kimi əriyirdi. Əvvəlcə evin damı, sonra otağın tavanı yoxa çıxdı. O gündən səmayla məni ayıran bircə maneə qalmadı".*

Otuz il sonrakı mənzərə isə belədir: bütün bu dəhşətlərdən yalnız tanımadıqları yad adamların söküb apara bilmədikləri daşlar qalıb.

Mənə elə gəlir ki, bu lirik, bir qədər də mənsur hekayədə Xocalı qətliamını yalnız bu cür tanıtmaq mümkündür. Yazıçı burada süjetdən və obrazlardan şüurlu şəkildə imtina edib və yalnız daşın obrazını, yad adamların vəhşiliklərini göstərməyə çalışıb.

Xan Abdullanın "Yazgülün nəvəsi" hekayəsi təsvir manerası və bədii interpretasiyası baxımından məndə böyük təəssürat yaratdı. Hekayə struktur baxımından da ustalıqla hörülüb, müəllif ideyasının incə şəkildə müxtəlif vasitələrlə çatdırılması üçün mümkün olan hər şeyi edir. Hekayədə günümüzün real gerçəkliyi son dərəcə səmimi və həssaslıqla təsvir edilir. Yazıçı real gerçəkliklə yanaşı, özünün bədii həqiqətini də verə bilir və ən əsası budur ki, oxucunu da buna inandıra bilir. Xan Abdullanın hekayəsini maraqlı edən, bəlkə də, detallar üzərində qurulmasıdır. Detal yazıçı üçün böyük tapıntıdır və əgər yazıçı onu süjet boyu mənalandıra bilirsə, demək ki, məqsədinə nail olub. Süjet üçün hadisələrin ardıcıllığı, davamlı inkişafı deyil, hisslərin, duyğuların əlaqəsi, yaxud assosiativ yanaşmalar xarakterik olur. Təhkiyəçinin danışdığı hadisələr bir-birilə elə sıx şəkildə bağlanır ki, oxucu yaddaşında dərin izlər buraxır. Hadisələrin bu cür təsviri üçün, məncə, yazıçı təhkiyəyə və bədii ümumiləşdirməyə borcludur; hadisənin təsviri zamanı zəngin boyalardan istifadə olduqca uğurludur: "*Yataqxanada itikçilər yaşayırdılar – qaçqınlar, məcburi köçkünlər, dolanmaq üçün kənddən şəhərə gələnlər, kimsəsizlər... Yataqxananın məxsusi qoxusu vardı. Bu, səfalətin qoxusu idi; yüz addım uzaqda olsan belə, gəlib burnunu dalayır, ürəyini bulandırırdı. Buna rəğmən, yataqxananın qarşısından keçmək, kir tutmuş divarlara, uçuq-sökük eyvanlara, zivələrdən asılmış qara-qura paltarlara baxmaq xoşuma gəlirdi".*



"Yazgülün nəvəsi" hekayəsində hadisələrə iki zamandan baxılır; təhkiyəçinin hələ məktəbli olduğu vaxt və bundan təxminən 15-20 il sonra. Yəni yazıçı hadisələrə qəhrəmanın həm uşaqlıq, həm də gənclik çağlarından baxır. Artıq o, bir həkim olmuşdu və Çexov kimi hekayələr yazırdı. Demək, hadisələrin təsvirində təhkiyəçinin şahidi oldugu hadisələri yazması təəssüratı təsvir olunanlara inamı artırır. Bu, müəllifə imkan verir ki, qəhrəmanın taleyini sonacan izləyə bilsin. Maraqlıdır ki, təhkiyəçi Yazgülün qızı Yaqutla öz taleyi arasında bir oxşarlıq da tapır. Hər ikisi dovşandodaq idi, dodaqlarının üstündə çapıq var idi. Hər ikisi həkim olmaq istəyir. Yaqut ona görə həkim olmaq istəyir ki, anasının başı ağrıyır, onu sağaltsın. Yaqutun məktəbdə sıranın ən arxasında durduğunu gördükdə fikirləşir: *"Həmişə sıranın ən*

*axrasında dururdu. Mən də vaxtilə sıranın ən arxasında dururdum, hamının gözündən oğurlanmağa çalışırdım. Deyəsən, onun da sinif yoldaşları ilə arası yaxşı deyildi".*

Yazıçı hekayədə Yazgüldən daha çox qızı Yaqutun taleyini önə çəkir; o da başqaları kimi yaşaya bilərdi, məktəbi oxuyub başa vurardı və arzusunda olduğu həkim olar, bununla da xoşbəxt olardı mesajını verir: *"Yaqutun şəklini şərəf lövhəsinə vurmuşdular. Şərəf lövhəsinə əlaçı şagirdlərin şəklini vururdular. Nədənsə şəkildə dodağındakı çapığı silmişdilər. Yaqutun təhrif olunmuş şəkilləri cəmi iki il şərəf lövhəsini bəzədi. Uzun illər bəzəyə bilərdi, amma olmadı..."* Lakin bunlar olmur, onun ömrü yarıda qırılır. Anası ilə görüşməyə gələn bir kişi anasının boğazını kəsir, onu da şahid olmasın deyə, öldürür. Bunda günahkar kimdir? Yazgülmü, Yaqutmu, yoxsa cəmiyyətmi?!



Xan Abdulla hekayəsi üçün cəmiyyət problemini seçib, onun dərin qatlarına enib. Yataqxana həyatı yeni cəmiyyətin bir parçasıdır. Buradan "səfalətin qoxusu" gəlir. Cəmiyyət və səfalət problemi yazıçı üçün hər zaman aktuualdır. Sanki bütün bəxtsiz insanlar bura toplaşmışlar. Bunlar cəmiyyətin bir təbəqəsidir. Deyim ki, gənc yazıçı üçün bir qədər risklidir, hər hansı yanlış bir təsvir, mövqe onu ugursuzluğa da apara bilər. Ancaq o, hər şeyi zərgər dəqiqliyi ilə hesablayb, əvvəldən sona qədər bu cəmiyyətin hər üzünü göstərməyə çalışıb. Bununla göstərmək istəyir ki, yazıçı yaşadığı həyata biganə qala bilməz. Elə yazıçı cəsarəti də budur. Yazgülün fahişə həyatının təsviri onun bu həyata laqeyd qalmadığının işarəsidir. Bu həyat olduqca sərtdir, burada adamlar bəzən amansızdır. Hətta Yazgülün boğazını kəsəcək qədər amansız. Çox doğru olaraq yazıçı Yazgülün nədən bu yola düşdüyünü göstərmir, heç bunu deməyə ehtiyac da yoxdu, oxucu hər şeyi yaxşı başa düşür, dərk edir və qiymətləndirir.

Xan Abdullanın dili sadə, yaradıcı, zəngin və səlisdir. Yazıçı üçün bu, əsas şərtlərdən biridir. Dialoqlar fikir yüklüdür, dramatizmlə yanaşı, ideyaya xidmət edir. Kiçik bir hekayədə bir neçə yeni söz, ifadə işlədliir. "İtikçilər" (qaçqınlar, məcburi köçkünlər, dolanmaq üçün kənddən şəhərə gələnlər, kimsəsizlər...), "zivələrdən asılmış qara-qura paltarlar", "burnuyelli gənclər", "yaşdaşlarım" və s. onlarla söz və ifadə yazıçının söz yaradıcılığının zənginliyini göstərir.

Beləliklə, üç gəncin – Cavid Babayev, Orxan Cuvarlı və Xan Abdullanın hekayələrinə qısaca nəzər yetirdik; bilmirəm, bu gənclər neçə yaşındadır, nə vaxtdan yaradıcılıqla məşğuldurlar, neçə hekayələri çıxıb. Bu hekayələr onu təsdiq edir ki, nəsrimiz onların yaradıcılığı ilə dil, üslub, obraz, ideya baxımından dəyişib və yenileşib. Süjetli nəsrin ən kiçik və çətin formalarından olan hekayə janrında bu cür ugur onların gələcək yaradıcılıq yoluna tutulmuş aydın bir işıqdır. Biz də burada bu işığı axtarmağa çalışdıq...

# “ULDUZ” JURNALI İLƏ ƏDƏBİYYAT FONDUNUN XALQ YAZIÇISI ANARIN 85 İLLİK YUBİLEYİ MÜNASİBƏTİLƏ TƏŞKİL ETDİYİ HEKAYƏ MÜSABİQƏSİ QALİBLƏRİ

*1-Cİ YER*

Mən, Cavid Sərdar oğlu Babayev 1999-cu il mayın 7-də Gəncə şəhərində anadan olmuşam. 2006-cı ildə B.Cəfərov adına Kəlbəcər rayon 1 saylı orta məktəbin 1-ci sinfinə daxil olmuşam. 2016-cı ildə məktəbi bitirmiş və Azərbaycan Dövlət İqtisad Universitetinin maliyyə və Mühasibatlıq fakültəsinə qəbul olunmuşam. 2020-ci ildə təhsilimin magistr pilləsini Bakı Mühəndislik Universitetinin İqtsadiyyat və idarəetmə fakültəsində davam etdirmişəm. 2022-ci ildən etibarən “Ali & Nino” kitab mağazaları şəbəkəsində kitab məsləhətçisi olaraq çalışıram.

***Cavid BABAYEV***



## ÜÇ NƏFƏRLIK MOTOSİKLETLƏR

Sən demə, məşhur Benzlər ailəsinin uşağı olmurmuş.

Avtomobil sənayesinin pioneri Karl Benz ilk gördüyü andan etibarən Bertha Ringerə aşiq olur, onunla evlənir, lakin sonradan Berthanın heç vaxt dünyaya uşaq gətirə bilməyəcəyi gerçəyiylə üzləşir. Elə Bertha da bu gerçəklikdən evlilikdən sonra xəbər tutur və dərhal Karldan ayrılmağı qərara alır. O, Karlı o qədər çox sevirmiş ki, onun sağlam, doğurğan bir qadınla ailə həyatı qurmasını və hələ evliliklərindən əvvəl Karlın həvəslə söhbət açıb dil boğaza qoymadan danışdığı “oğlan uşağı arzusu”nun reallaşmasını istəyirmiş. Bir axşam Karl əlində şərab şüşəsi, qoltuğunda qırmızı lentlə bağlanmış şokolad qutusuyla evə girib şad-şalayın işlərin necə əla irəlilədiyiylə bağlı sözə başlayanda Bertha ağlamaqdan özünü güclə saxlayır. O özünü Karlın bu böyük xoşbəxtlik şorbasının içinə düşmüş murdar bir milçək kimi hiss edir. Şam yeməyi boyu Karlın dilindən, gözündən sıçrayıb getdikcə ətrafı öz ağuşuna alan sevinc qığılcımlarının atəşinə tab gətirmir və ağlaya-ağlaya içini tökür. İş-güc əlindən arvadıyla doğru-düzgün vaxt keçirə bilməyən Karl o an bu qadının qəlbindəki gizli ağrılardan bu vaxtacan necə bixəbər qaldığının fərqinə varır. Həmin gecə mətbəxdə yemək masası başında arvadını bərk-bərk qucaqlayıb üz-gözündən öpən Karl Benz özünə bir söz verir: söz verir ki, bundan sonra atacağı hər addım arvadının xoşbəxtliyinə xidmət edəcək. İllər keçir və Benzlər işlərində uğur qazanırlar. Bildiyiniz kimi, Karl Benz işində uğurlu olmaqla qalmır, hətta adını tarixə “avtomobilin atası” olaraq yazdırmağı da bacarır. Həyatları maddi baxımdan qaydasına düşən Benzlər pillə-pillə bütün problemlərdən xilas olduqca uzun müddətdir mətbəxlərinin tavanından asılı qalan o səssiz boşluq daha çox gözə batmağa başlayır. Karl uşaq mövzusunu yenidən açmaq barəsində haqq sahibi olmadığını düşündüyündən həmişə söhbətin istiqamətini Berthanın müəyyənləşdirməsini gözləyir. Nəhayət, Berthanın bir sualı hər şeyin başlanğıcı olur: “Niyə düzəltdiyin maşın 1 yox, 3 yox, 5 yox, məhz, 2 nəfərlikdir?” Yəqin, təxmin edə bilirsiniz, bu sual başqa hansı suallara açar ola bilər. Bertha bu açarı kilidə özü qəsdən salmışdı. Beləliklə, bəzi qapılar açıldı və Benzlər övladlığa uşaq götürmək qərarına gəldilər. Qara saçlı, qara gözlü, qarayanız, iki yaşlı bir oğlan uşağı. Yox, üç

yaşlı... yox, beş. İlahi, o necə də tez böyüyür. Çox keçmədi, Karl Benz anladı ki, artıq onun həyatında iki nəfərlik şeylərə yer yoxdur. İki nəfərlik çarpayılar üç adam tuturmuş. Beşiklər balaca otaqları daraltmır, böyüdür. Hər şeyi üç bərabər hissəyə bölmək olar. Hər şeyi! Bəs velosipedləri necə? Onları da üç bərabər hissəyə bölmək olar? Karl Benz ilk dəfə “ata” deyə çağırılanda anlamışdı... Anlamışdı ki, olar. Kağız üstündə cızma-qara və budur, Berthanın velosipedinin artıq 3 təkəri var. Velosipedi Karl idarə edir, arxasında Bertha və möhkəm borularla yan hissəyə bərkidilmiş böyük təkər üstündəki oturacaqda qara bir uşaq. Bu da son şəkil. Bilmirəm Benzlər xoşbəxt oldu, ya yox, amma deyə bilərəm ki, üç nəfərlik motosikletlər bax belə yarandı.

Bütün bunları mənə Deyşa demişdi. Deyşa qəhvəyi gur saçlı, geniş kürəkli, hündürboy, 29 yaşlı bir qız idi. Mən isə o vaxtlar 11 yaşlı cılız bir oğlan uşağıydım. Qara Qarayev metrostansiyası yaxınlığındakı beşmərtəbəli binalardan birində, beşinci mərtəbədə nənəmlə birlikdə yaşayırdım. Günüm məktəblə ev arasında nənəmin öyüdlərini dinləməklə keçirdi. Qarayevdə birlikdə vaxt keçirə biləcəyim cəmi bir dostum var idi. Adını bura yazmağın doğru olmayacağını düşünürəm, ona görə də hələlik ona T deyək. Dərslərin əlindən çölə çıxmağa çox da imkan olmurdu, ancaq olan kimi T’ylə maşın yolunda top oynamağa gedərdik. Futbol stadionunu əvəz edə biləcək başqa bir yer yox idi. Maşın yolu Deyşanın qaldığı iyirmi mərtəbəli binayla bizim binanı biri-birindən ayırır, qıvrılaraq məhəllələrdən keçir, metrostansiyaya qədər uzanırdı. Biz ta uşaqlıqdan burada məskən salmışdıq, ancaq bir dəfə də olsun, Deyşa adlı birinə rast gəlməmişdik. Deyşanın bura nə vaxt gəldiyiylə bağlı heç kim heç nə demirdi. Sanki o qəflətən yolun altından çıxıb qarşı binaya düşmüşdü. İndiyədək “Deyşa” deyə bir ad eşidən də olmamışdı, ona görə onun hansı torpaqlardan gəldiyi də hamıya qaranlıq idi. Soruşacaqsınız ki, bəs niyə bütün bunları kimsə onun özündən soruşmurdu? Məsələ burasındadır ki, o bir az, necə deyərlər, təhlükəli görünürdü. Məsələn, ətrafda ondan başqa tək yaşayan adam tanımırdıq. Hələ-hələ qadın olaraq tək yaşamaq bu məhəllələrə yad bir şey idi. Deyşa bütün qadınlardan iri, hətta kişilərin bəzilərindən də hündür və cüssəli görünürdü. Onun gözəl olduğuyla hamı, yəqin ki, razılaşardı, lakin zeytun dənəsi kimi qara gözləri insanların cəsarətini qırır, ona yaxınlaşmalarına əngəl olurdu. Kişilər kimi geyinərdi. Heç kim onu yubkada, donda, ya da adi ətəkli paltarda bir dəfə də olsun görməmişdi. Saçlarını mismara bənzər qəribə dəmirlərlə yığar, heç vaxt makiyaj etməz, əynində dəri kurtka, onunla dəst şalvar və qoltuğunda dəbilqəsi olardı. Hə, yanlış eşitmədiniz! Dəbilqə. Çünki onun üç nəfərlik motosikleti vardı. O vaxtadək üç nəfərlik motosiklet görməmişdim və əminəm ki, bizim məhəllənin adamları da görməmişdi. Qarayev küçələrində yalnız iki təkərli kuryer motosikletlərinə rast gələ bilərdin. Hər səhər Deyşanın motosikletinin səsi eşidilərdi. Məktəb avtobusuna çatmaq üçün səhərlər tezdən – saat 6-da oyanıb hazırlaşar, evdən çıxana yaxın o səsi eşidər və Deyşanın da yola düşdüyünü anlayardım. Məktəbdən qayıdıb eyvanımızda çay səfası sürərkən də çox keçməz, küçə başından motosikletin səsi gələr, Deyşa eyvanımızın qabağına çatarkən sağa burulub üzbəüz evlərin arasıyla 20 mərtəbəli binaya doğru irəliləyərdi. 13-cü mərtəbədə qaldığını bilirdim, çünki bu mərtəbənin eyvanında onu görmüşdüm. Nə qədər uzaqda olursa-olsun, onu tanımamaq mümkün deyildi. Gecə gec saatlara qədər dərs oxuyardım və fasilələrdə hərdən eyvana çıxıb boş-boş qarşı binalara baxardım. Deyşanın mənzilinin işıqları həmişə yanılı olardı. O vaxtlar qaranlıqdan qorxduğu üçün işıqları yanılı qoyduğunu düşünərdim, amma sonra onun pəncərə qarşısından o yan-bu yana keçdiyini, arabir eyvana çıxdığını görəndə sadəcə yata bilmədiyini başa düşdüm. Lap işıqlar sönülü olsa da, pərdəyə düşən mavi şüadan televizorun açıq olduğunu anlamaq olurdu. Axı necə belə gec yatıb tez oyana bilirdi? Hara gedirdi? İşləyirdi? Nə işləyirdi? Bunları da bilmirdim. Ən maraqlısı da bu idi ki, o niyə tək yaşamağına baxmayaraq, belə böyük 3 nəfərlik bir motosikletə sahib idi?! Ona kiçik kuryer motosikleti və ya iki nəfərlik adi motosiklet bəs edərdi. Ağlıma da gəlməzdi ki, bir gün onun motosikletinə oturmaq və bu sualı ona şəxsən ünvanlamaq imkanım olacaq.

Dekabr ayının tam ortasında, soyuğun bıçaq kimi kəsdiyi günlərdən birində dərsdən sonra kəskin qarın ağrısı səbəbindən məktəb tualetində qıvrıla-qıvrıla qalmışdım. T də xəstələnmiş və dərsə gəlməmişdi. Bütün günümü və tualetdəki ağrılarımı təkbaşına yaşadıqdan sonra birtəhər özümü toplayıb həyətə çıxanda bizim xidmət avtobusunun artıq məktəbdən uzaqlaşdığını gördüm. Arxalarıyca nə qədər əl yelləyib çığır-

bağır salsam da, fərqimə varmadılar. Məni yaddan çıxarmışdılar. Hələ davam edən ağrıyla əlim qarnımda dayanacağa sarı gedəndə düz yanımda tanış səsi eşitdim. Bu, Deyşanın motosikleti idi. Kaskanın altından səs eşidildi: “Gəl mən səni aparım”. İlk dəfəydi, onu belə yaxından görürdüm. Dəbilqəsinin şüşəsində qəribə şəkildə buruşmuş əksimi görüb özümü toplamağa çalışdım. Əvvəlcə etiraz etdim, çünki sözün düzü, deyəsən, mən də ondan bir qədər qorxurdum. İsrarla oturmağımı istədi. Nəhayət, çantamı kürəyimdən çıxarıb qucağıma aldım və yan oturacaqda büzüşdüm. Kəlmə kəsmədən bir xeyli yol getdik. Motorun səsi qulaq batırırdı. Qaranlıq otaqdaymışam kimi ətrafa diqqət kəsilmişdim. Açara keçirilən brelok gözümə sataşdı. Bu heyvanı biologiya kitabında görmüşdüm. Koala. Ara küçələrdə kəskin dönüşlər etdikcə balaca koala fiquru o yan-bu yana yellənirdi. Birdən Deyşa başını mənə sarı çevirdi. Özümü itirib gözlərimi tez yellənən brelokdan çəkdim və solumdan axıb gedən mağazalara baxmağa başladım.

– Nolub? Qarnın ağrıyır? – Deyşa qəfil soruşdu.

– Nə?

– Deyirəm qarnın ağrıyır?

– Hə, bir az.

Əlini oturacağımın yanına salıb kiçik bir termos çıxardı.

– Götür iç! Yəqin, soyuqlamısan.

Qapağı açanda zəncəfil qoxulu çayın ətri məni vurdu. Soyuqda buxarlanan çaydan içə-içə öz-özümə düşünürdüm: “Səsi təsəvvür etdiyim kimi kobud deyilmiş. Əksinə, mehribandır”. Yol boyu bir çox şeyin təsəvvür etdiyim kimi olmadığını başa düşdüm. Oğrun-oğrun ona baxır, xəyal dünyam və reallıq arasındakı fərqlərdən təəccüblənirdim. Axır, gəlib çatdıq. Məni binamızla üzbəüz marketin qarşısında düşürtdü. Mən təşəkkür edib uzaqlaşmaq istəyərkən dedi:

– Yaxşıca dincəl! Anana deyərsən sənə isti şorba hazırlayar. Yaxşı?

– Mənim anam yoxdur. Nənəmlə qalıram, – qeyri-ixtiyari bu kəlmələr ağzımdan töküldü. Duruxdu, qaldığım binaya baxdı. Kaskanın altında hansı ifadənin gizli qaldığını bilmədim.

– Onda nənənə deyərsən. – dedi və motoru işə salıb ara küçələrdə gözdən itdi.

O axşam nə düz-əməlli yemək yeyə, nə də dərs oxuya bildim. Elə hey Deyşa haqqında düşünürdüm. Düzü, heç qarın ağrısını da hiss etmirdim. Özlüyümdə qərar verdim ki, bu haqda mütləq T ilə danışmalıyam. Belə də etdim.

Sabahısı olanları T-yə danışdım, lakin o mənə inanmadı. Deyşaya kiminsə yaxın düşə biləcəyini mümkünsüz sayırdı. Ona izah etməyə çalışdım ki, təsəvvürümüzdəkilər yalandır, ancaq T məni dinləmədi. Bircə yolum qalırdı. T-ni o motosikletə mindirmək. Nə olur-olsun, bunu bacarmalıydım. Plan qurmağa başladım. Onun məktəb avtobusuna minməsinin qarşısını almalı, özümlə dayanacağa aparmalı və nəhayət, Deyşanın oradan keçməsini gözləməliydim. Gün boyu T-yə tez-tez sudan, çaydan, bufetdən aldığım meyvə şirələrindən təklif etdim. Dərsdən çıxanda isə mənlə ayaqyoluna qədər gəlməsini istədim. Əlbəttə ki, o da içəri keçmə ehtiyacı duydu. Elə bu an barmaq uclarımda cəld içəridən çıxıb təmizlikçinin qapı yanındakı dolaba söykədiyi saplı süpürgəni T-nin qapı kilidinə bərkitdim. Ayağımla süpürgəyə dayaq oldum. Planımın qalanı öz axarıyla getdi. T-ni inandırmağa çalışdım ki, qapı öz-özünə kilidlənib və mən də guya açmağa kömək edirdim. Təbii ki, biz çıxanda avtobus artıq yox idi. T mənimlə dayanacağa getməyə məcbur oldu. Geriyə Deyşanın gəlməsinə ümid bağlamaq qalırdı. Hər şey gözlədiyimdən də tez baş verdi. Uzaqdan motosikletin gəldiyini görən kimi cəsarətimi toplayıb əlimi azca yuxarı qaldırdım, ancaq tez də endirdim. T nə etdiyimi anlamağa macal tapmamış motosiklet qarşımızda dayandı və Deyşa kaskanın şüşəsini qaldırıb muncuq kimi gözləriylə bizə baxdı.

– Bu dəfə ikiniz də avtobusu ötürmüsünüz? – soruşdu.

– Hə, – cavab verdim.

Sonra olanları anlatmağıma ehtiyac belə yoxdur. T, gözlədiyim kimi, yan oturacaqda quruyub qalmışdı. Heyrətdən ağzını bıçaq açmırdı. Mən isə dediklərimin doğruluğunun isbatından zövq ala-ala Deyşanın arxasında oturub onun belindən yapışmışdım. Yol boyu özümü həm xoşbəxt, həm də bir qədər qəribə hiss edirdim. Deyşanın belini qucaqlamağımın nə mənaya gəldiyini anlamağa çalışırdım. Filmlərdəki oğlanlar kimi hiss edirdim özümü. Uşaq ağlımla sanki Deyşanın mənim olduğuna qərar vermişdim. O vaxtlar bu hissin nə olduğunu anlaya bilməmişdim. O, nişanlım, sevgilim, dostum, bacım, yoxsa anam idi? Bəlkə, hamısı birdən? Bəlkə, heç biri? “Əsas odur ki, xoşbəxtəm” deyə, düşünüb bütün suallardan imtina etdim.

Ancaq xoşbəxtliyim çox uzun sürmədi. Növbəti gün T vacib bir məsələ ilə bağlı danışmaq istədiyini deyib məni bir küncə çəkdi.

– Anam o motosikletə mindiyimizi öyrənib. – dedi.

– Nə olsun ki?

– Dedi ki, bir də olmasın!

– Niyə?

– Çox bir şey demədi, sadəcə, dedi ki, o, yaxşı qız deyil. Onun yanında olmamalıyıq.

– Dəli olmusan? Soyuqda qarın ağrısından qıvrıla-qıvrıla küçələrdə qalanda məni evə aparan o oldu. Bəs dünən ikimiz də avtobusu ötürəndə bizə kim kömək etdi?

– Bilirəm. Bəs indi nə edək?

– Qulaq as, böyüklər hələ də elə bilirlər ki, Deyşa təhlükəli, pis bir adamdır. Biz onlara göstərməliyik ki, bu belə deyil. Əgər onun bizə necə kömək etdiyini hamı görsə, onda hər şeyi özləri başa düşəcəklər. Lap biz özümüz də onlarla söhbət edərik.

Həmin gün T ilə ətraflı söhbət edib axşam evə yenə Deyşayla qayıtmağa razı saldım. Bu dəfə Deyşayla aramdakı sədlərin qırıldığını, bağlarımızın gücləndiyini hiss edirdim. Onunla söhbət edib suallar verirdim. Motosiklet belində onu qucaqlamaq içimi güvən hissi ilə doldururdu. Əmin əllərdə idim və ən əsası, ilk dəfə idi ki, məni qoruyacaq, yanımda ola biləcək, problemlərimi bölüşüb birlikdə həll yolları yarada biləcəyim bir insana sahib olmağa başladığımı duymuşdum. O axşam Deyşaya üç nəfərlik motosikletlər barədə olan sualımı da verdim. O da Karl Benzlə bağlı həmin o hekayəni danışdı. Bəlkə də, hekayəni birbəbir mən yazdığım sözlərlə, mən yazdığım formada nəql etməmişdi, ancaq hər halda mövzu da, məqsəd də eyni idi.

Bir gün daha keçdi və hər şeyin necə daha bərbad bir hal aldığının fərqinə vardım. T döyülmüşdü.

– Anam dedi ki, bir də sözündən çıxsam, lap pis olacaq. – T tənəffüsdə başını aşağı salıb sulu gözlərlə olanları danışmağa başladı. – Dedi ki, hər şeyi gedib nənənə deyəcək!

– Nənəmə?

– Hə. Üstəlik, dedi ki, özü Deyşanın ağlını başına gətirəcək.

– Bu nə deməkdir?!

– Bilmirəm! Dedi ki, əgər sən də motosikletdən əl çəkməsən, bizi birlikdə oynamağa qoymayacaq.

– Axı niyə?!

– Deyir, Deyşa yaxşı qız deyil. Siqaret çəkir, pivə içir, gecələr tək qalır. Deyir... deyir...

– Nə deyir?

T üzünü yana çevirib asta səslə deyəcəyi son sözləri də dedi:

– Deyir ki, o, pozğundur!

– Pozğun?!

Qulaqlarıma inanmırdım. Bu deyilənlər doğru ola bilməzdi. Hər şey yalan idi, yalan!

T ilə dərsin sonuna qədər, demək olar ki, kəlmə kəsmədik. Olanlar qarşısında deməyə sözümüz qalmamışdı. Çıxışda hamı avtobusa tərəf irəlilədi. T də hamıyla birgə. Mən yerimdən tərpənmədim. T geri çevrilib gəlmədiyimi gördü. Çarəsizcə gözlərimə baxdı. Baxışlarımızla sağollaşdıq.

Bu dəfə lap çox gözlədim, amma nəhayət, küçə başından burulan motosikleti gördüm və sevincək ayağa qalxıb yola yaxınlaşdım. Deyşa kəskin tormozla düz qabağımda dayandı. Sonra kaskasını çıxardı. Saçları batan günəşdə parıldayır, balaca burnu qızarırdı. Ancaq nədənsə baxışlarını gözlərimdən yayındırırdı.

– Yenə avtobusu ötürmüsən?

– Yox, sadəcə, sənlə getmək istədim.

Deyəsən, bu cavabı gözləmirdi, çaşqınlığı gözlərindən bəlli oldu. Ətrafa boylandı, baxışları məktəbimin divarlarında gəzişdi. Sonra üzünü mənə tutdu:

– Qulaq as, əslində, mən indi başqa yerə gedirəm. Bəlkə, bu dəfə avtobusla gedəsən? Əgər üstündə pulun yoxdursa, mən verərəm.

– Yox, pulum var! Amma çox soyuqdur. Bayaqdan burdayam. Məni heç olmasa yaxın bir yerdə düşürə bilmərsən?

Deyşa iç çəkib o yan-bu yana baxdı.

– Həm də qarnım ağrıyır! – bunu yalan demişdim.

– Yaxşı, otur, getdik.

Sevincimin hüdudu yox idi. Yan oturacaq boş olsa da, Deyşanı qucaqlaya bilmək üçün arxa oturacaqda oturdum. O da heç nə demədi. Saçları daşda bitən güllər kimi kaskanın altından çıxıb üzümə toxunurdu. O an T-nin dediklərini düşündüm. İstədim Deyşaya bütün olanları deyib həqiqətləri öyrənim, ancaq demədim. Bir şeyi anlamışdım. Anlamışdım ki, mən artıq Deyşanı sevirəm. O lap doğrudan da, siqaret çəkib içki içirsə belə, mən yenə onu sevirəm. Əlbəttə, bunlar pis vərdişlərdir, ancaq əgər onu sevirəmsə və əgər

bu içki, siqaret məsələləri həqiqətdirsə, onda mən özüm Deyşanın bu pis vərdişlərdən uzaq durmağına, onları tərgitməyinə kömək etməliyəm. Sevgimi göstərməliyəm. Qaldı ki, onun haqqında deyilən başqa nalayiq ifadələrə, bunların heç birinə inanmayacaqdım. Artıq Deyşanı tanıyırdım. Onun necə biri olduğunu ona uzaqdan baxıb yaxın durmayan, dalınca danışan ikiüzlülər yox, mən bilə bilərdim. Bir də ki zamanla hər şeydən danışıb bir-birimizi daha yaxşı tanıyacaqdıq. Uşaq qəlbim mənə bunları dedikcə Deyşanı daha möhkəm qucaqladım, yanağımı kürəyinə qoydum. Ürək döyüntülərini hiss edirdim. Elə bil qəlbi yerindən çıxacaqdı. Mənə elə gəldi ki, bədəni şam kimi titrəyir. Yoxsa külək məni aldadırdı?!

– Üşüyürsən? – ondan soruşdum.

– Yox, – boğuq səslə cavab verdi. – Üşümürəm.

Yanacaqdoldurma məntəqəsində saxladı. İkimizə də isti şorba aldı. Həm motosikletin, həm də özümüzün qarnını doyurduq və yenidən yola düşdük. Biz metrostansiyaya çatanda yağış yağmağa başlamışdı. Stansiya çıxışında saxladı.

– Yaxşı, hələlik, burdan o yana özün getməli olacaqsan.

Kaskanın şüşəsindən damcılar süzülürdü. Sağollaşdıq. Çantamı başıma tutub evə yüyürdüm.

Sonrasını yazmaq, nələrin baş verdiyini danışmaq mənim üçün hər nə qədər ağır olsa da, deməliyəm.

Evə gələn kimi nənəm məni o ki var döydü. Anasının T-yə dediyi şeylərin eynisini nənəm də mənə dedi. Nənəm qoca qadın idi, qarşı qoya bilərdim, lakin alınmadı. Uşaq ürəyim içinə düşdüyü vəlvələdən, iyrənclikdən titrəkləşib daha da cılızlaşdı. Sanki hər şey bir uşağın heç vaxt anlaya bilməyəcəyi, böyüklüyü və bulanıqlığı içində boğulacağı şeylərdən hörülmüşdü. İnsanları belə qəzəbli görməmişdim. Dünya artıq mən bilən dünya deyildi. Bütün sözlər mənim lüğətimdən kənarda dayanmışdı. Ağlaya-ağlaya pəncərəmdən Deyşanın mənzilinə baxdım. İşıqları yanırdı. Yalan demişdi, başqa yerə yox, elə birbaşa evə getmişdi. Yavaş-yavaş böyüklərin real dünyasını anlayırdım. Yalan və gizlilik.

Növbəti gün müəllimlərimin ağzından çıxan heç nəyə qulaq vermir, T ilə danışmır, səssizcə son dərsin son zəngini gözləyirdim. Əslində, nəyi gözlədiyimi özüm də başa düşmürdüm. Daha nə olacaqdı ki? Nə ola bilərdi?

Çıxış zəngi ürəyimi saldı. Sərxoş halda partamdan qalxdım. Dumanlı fikirlərlə küçəyə çıxdım. Sıraya girən uşaqlar bir-bir avtobusa minirdi. Hər kəsi özümdən qabağa buraxırdım. Bir müddət daha küçə başına baxdım. Çiskinli havada hər şey bulanıq idi. Qəfil bu bulanıqlıq içindən uzaqda dayanmış motosikleti gözlərim seçdi. Ürəyim çırpındı. Ancaq motosiklet yerindən tərpənmirdi. Gözlərimi çəkmədən dayanacağa doğru bir-iki addım atdım. Elə bu vaxt motosiklet hərəkətə gəldi, sürət götürdü, mənə doğru istiqamət aldı, sonra qəfil burulub sol küçəyə girdi və gözdən itdi. Siqnal səsi məni ayıltdı. Hamı yerini almışdı, bir mən qalmışdım. Avtobusa mindim. Yalnız ən arxa oturacaqlarda boş yer qalmışdı. Avtobus qapısı bağlandı. Başımı aşağı salıb arxaya keçəcəkdim ki, sürücümüz Hikmət dayı məni çağırdı. Ona yaxınlaşdım. Alçaq səslə dedi:

– İndicə qəşəng bir qız bunu mənə verdi və dedi ki, sənə verim. – gülə-gülə ovcuma nəsə basıb əlimi bərk-bərk sıxdı. – Hə, indi keç yerini al, gedək.

Uşaqların səs-küyü, gülüş dolu söhbətləri arasından keçib arxaya doğru irəliləyə-irəliləyə ovcumu açdım. Bu, brelok idi. Koala breloku. Yerimdə oturdum. Avtobus tərpəndi. Çevrilib arxa şüşədən son dəfə baxdım küçəyə. Çantamı çıxardım, yerimi rahatladım. Yanağımdan bir neçə damcı ovcuma – brelokun üstünə düşüb əridi. Avtobus sürət götürdü. Breloku çantamın zəncirbəndinə bərkitdim. Evə yollandıq.

Bu, Deyşanı son görməyim idi. Uzaqdan da olsa. Onu bir daha görən olmadı. 13-cü mərtəbənin pəncərələri uzun müddət qaranlığa gömüldü. Deyşa hara getdi? Nə vaxt getdi? Heç kim bilmədi. Qeybdən gəldiyi kimi, birdən-birə qeybə çəkildi.

Bu hadisələrin üstündən illər keçib, çox şey dəyişib. Artıq evliyəm və bir oğlum var. Nənəm torpaq altına, T isə Avropaya yollandı. Mən elə indi də Qarayev metrosu yaxınlığında yaşayıram. Oğlum özəl liseylərdən birində təhsil alır, həyat yoldaşım atçılıq mərkəzində çapar kimi yarışlara çıxır, mənsə vəkiləm. Qısası, həyatımdan narazı deyiləm. Uşaqlığımda baş verən bu hadisələri yazmaq ehtiyacı isə sonralar baş qaldırdı. Belə ki, mən uzun müddət sonra təsadüfən öyrəndim ki, üç nəfərlik motosikletlər heç də Deyşanın mənə danışdığı hekayədəki kimi yaranmayıbmış. Ümumiyyətlə, Karl Benzin bu məsələyə heç aidiyyatı yoxdur. Benzlər ilk avtomobili ortalığa çıxaranda artıq uşaqları da varmış. Özü də doğmaca, nə az, nə çox, düz 5 uşaq. Üç nəfərlik motosiklet ideyası isə Jean Bertoux adında bir

fransız ordu zabitinə məxsusdur. Belə başa düşdüm ki, bu motosikletlər elə ən çox müharibənin işinə yarayıb. Britaniyalılar pulemyotlarını qoymağa yer axtaranda görüblər ki, belə bir motosikletin yan oturacağına qoysalar, elə yollarını gedə-gedə istədikləri yerə rahatca atəş aça bilərlər. Nəysə, bax belə. Üzülməyin, Karl Benzlə olan hekayənin çox şirin olduğunu mən də bilirəm, amma nə etmək olar?! Həqiqətlər şirin deyil. Düşünürəm, görəsən, Deyşa mənə həqiqəti olduğu kimi desə, nə olardı ki? Yoxsa onun özünü də aldatmışdılar? Nə bilim. 11 yaşlı uşağa həqiqətləri olduğu kimi deməyin çətinliyi bir yana, doğruluğu da sual altındadır. Şirin bir yalanla uşaq qəlbini isitmək, onu bu yolla "yaxşı bir insana" çevirməyə çalışmaq... Maşında orta güzgüdən arxada oturmuş oğluma baxıram. Onun dünyayla bağlarının vaxtından tez qırılmaması naminə neçə cür yalan danışmışam? Sağımda oturan arvadıma baxıram. Görəsən, o neçə şirin yalan sayıb mənim ovcuma? Bu arada öz maşınım daxil bugünkü maşınların əksəriyyəti 4 nəfərlikdir. Mənim ailəmsə 3 nəfərlik. Orta güzgüdən oğluma baxdığım kimi, oğlumun yanındakı həmin o bir nəfərlik boşluğa da baxıram hərdən. Qoca Deyşanı orada xəyal edirəm. Saçları küləkdə uçuşur, burnunun ucu qızarır. Bu qədər şeyi danışmışkən bir sirri də aşkara çıxarım artıq: nənəmi belə xatırlamağa çətinlik çəkdiyim bu yaşımda, olmayan anamı təsəvvür etməyə çalışarkən gözlərimin qarşısında Deyşa dayanır. Bir vaxtlar bel çantamda yırğalanan koala indi maşınımın açarından yapışıb.

## *2-Cİ YER*

Mən Cuvarlı Orxan Ramin oğlu 1994-cü il oktyabrın 28-də Bakı şəhərində anadan olmuşam. 2012-2016-cı illərdə Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində bakalavr təhsili almışam. Magistr təhsilimi 2016-2019-cu illərdə Türkiyə Burslarının qalibi kimi Akdeniz Universitetinin jurnalistika fakültəsində tamamlamışam. 2019-cu ildə namizədlik dissertasiyamı uğurla müdafiə etmişəm. Rus, ingilis və türk dillərini bilirəm. Hazırda İctimai Televiziya və Radio Yayımları Şirkətində redaktor vəzifəsində çalışıram.

2015-ci ildən Orxan Cuvarlı imzasıyla ədəbi fəaliyyətə başlamışam. 2016-cı ildə Üçüncü Gənc Ədiblər Məktəbinin iştirakçısı olmuşam. 2022-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüyəm. 2023-cü ildə Gənclər və İdman Nazirliyinin "Gənclər mükafatı"nın "Ədəbiyyat" nominasiyası üzrə laureatı olmuşam.

***Orxan CUVARLI***



# DAŞ

Sürməyi səmada süzən buludlar ayın qabağını kəsdi. Ayın üzünü duvaqtək örtən kövrək ziyası görünməz oldu, ətraf zil qaranlığa büründü.

Otuz il bu yerdən baxdığım, arabir tutqunlaşan, bəzən də apaydın olan səmada buludlardan savayı bircə qımıltı da gözə dəymirdi. Bulud topalarının süzüldüyü hissələr laciverdə boyanırdı.

Bu səma illərdir gördüyüm yeganə mənzərə idi. İstəsəm də, bundan nə bir çərək əskiyi, nə bir qırıq artığını görə bilərdim. Sanki kimsə göy üzünü gözlərimin önündə bir rəsm tablosu kimi asıb getmişdi.

Gecə və gündüz növbələşəndə bu tablonun rəngindən başqa hər şeyi – eni, uzunu, genişliyi, hüdudsuzluğu yerli-yerində qalırdı.

Səhərlər rəssam bu xəyali tablonu açıq rənglərlə fırçalayırdı. Elə ki şər qarışırdı, tablodakı açıq rənglər qatı boyalarla əvəzlənirdi. Bu qatılıq buludların barmaqlarının ucunda gəzən adamlar kimi səssiz-səmirsiz çəkildiyi yerlərdə dərinləşirdi.

Az qala yaddaşıma həkk olunan bu rəsm tablosunda hərdənbir yeni şeylər; perik düşən bir dəstə sərçə, gözqamaşdıran günəş, bədirlənmiş ay, göy üzünə duz kimi səpələnmiş ulduzlar, səmanın canına yayılan göy qurşağı peyda olurdu.

Neçə gündür bu mənzərələrə baxa-baxa darıxmaq barədə düşünürəm. Darıxmaq hissi mənə ucsuz-bucaqsız səhranı xatırladır. Hərdən bu səhrada az qala dizlərinə qədər quma batırsan,

arabir isti qumsal ayaqlarını yandırır. Məni ən azı darıxmaq qədər fanilik hissi də sıxcalayır.

Bəzən həyat adlı yarışın sonunu düşünəndə bu hiss içimi çulğayır.

Dünyaya gəlirsən, qayğıların da səninlə bərabər böyüyür, gündəlik məişət təkrarları səni təngə gətirir. Bu qapalı dövrəyə özün də bilmədən öyrəşirsən. Zaman keçdikcə təəccüb hissini itirməyə başlayırsan. Hər şeyin parıltısını itirməsi, adidən adi, sadədən sadə olması içindəki fanilik hissini ərşə çıxarır.

Tez-tez keçmişimə qayıdıram. Keçmiş etibarlı, sınaqdan üzüağ çıxmış dostsayağıdır. Keçmiş indinin dolaşığından, gələcəyin bilinməzliyindən fərqlidir. Keçmişdə hər şey donub. Sən həmin dövrdəki səhvlərini, peşmanlıqlarını, təəssüflərini, sevinclərini, kədərlərini, doğrularını ölçüb-biçsən də, dəyişə bilmirsən, olduğutək qəbul edirsən.

Keçmişdən nigaran qalmaq olmur. Sən olub keçənləri kiçik bir təbəssümlə və ya acı bir təəssüflə xatırlamaqla kifayətlənirsən. Keçmiş gələcəklə bağlı narahatlıqlardan, nigaranlıqlardan uzaqdır…

Hərdən ötüb keçən vaxtlar quduz it kimi üstümə cumur. Hafizəmin illər əvvəlki hissəsindən sivişib irəli atılan xatirələr uzun labirintlərdən yarısağ, yarıölü gözlərimin önünə dikilir. Elə indi də bu tutqun səmaya baxıb bulanıq yaddaşımı ələk-vələk edirəm.

Bu otuz ildə çox şeyi unutmağa çalışmışam. Bəzən bu evin sevinc dolu günləri yadıma düşür. Biz heç kimə dəyib-dolaşmayan bir ailə idik.

Biz deyirəm, çünki mən də bu evin məhrəm, ad verə bilmədiyim rahatlığına isinişmişdim. Bu dördgöz evə neçə səadətli, bəxtiyar illər sığışmışdı. Ta ki o məşum günə qədər.

İnsanın ürəyi də daşlaşa bilərmiş. Mən xırda bir daş parçası olsam da, bu həqiqəti qavradığım gün heyrətləndim. İlahi, adamlar necə də qəddar olurlar!

Həmin gecə indi zilləndiyim səma mənə aydın görünmürdü. Bizi otağın tavanı, evin damı ayırırdı.

Xocalı günlərlə mühasirədə qaldı. Bu günlərdə adamlar bir qırıq qorxunu, vahiməni ürəklərinə yaxın buraxmırdı. Heç kim varidatını, uşaqlığını, gəncliyini burada qoyub gedəcəyinə inanmırdı. Bəlkə də, inanmaq istəmirdi.

Son günlər bir neçə ailəni təxliyə etmək üçün helikopterlər gəlirdi. Həmin an o adamların çöhrəsinin büründüyü təəssüfü, ağlamsınan sifətlərini unuda bilmirəm. Onlar son dəfə evlərinə, həyətlərinə, ağaclara, dağlara, quşlara, səmaya baxıb doluxsunurdular.

Bizim bünövrəsini qoyduğumuz yuvalar ağlaya-ağlaya keçmişiylə vidalaşan adamlar üçün göz dağı idi. Onlar sanki təkcə bu evləri yox, xoşbəxtliklərini, firavan günlərini də kərpic-kərpic hörmüşdülər. İndi həmin evlər, xoşbəxtliklər intəhasız bir naməlumluğun qoynuna sığınmışdı.

Evindən ayrılmaq istəməyənlər müqavimət göstərməyə çalışırdılar. Əlisilahlı düşmən dəstələrinin qabağında gündən-günə zəifləyən, gücsüzləşən, əliyalın müqavimət.

Bu evin adamları tələm-tələsik getdilər. Silah səsləri get-gedə yaxınlaşdıqca onlar o qədər tələsirdilər ki, qazanları ocaqda, balaca qızcığazın kuklası divanın bir küncündə qaldı. Evin ağsaqqalı heç ayaqqabılarını geyinməyə macal tapmadı, məstlərini sürüyə-sürüyə ailəsini meşəyə tərəf apardı.

Həmin sabah şəhər ağappaq qarı yorğan kimi sinəsinə çəkmişdi. Axşama doğru müqavimətin zəiflədiyi anlarda dümağ yorğan qeybə çəkildi, qocaman şəhər bahar laləzarları kimi al-qırmızı rəngə təslim oldu.

Görəsən, o məşum gecə, həmin laləzarda kürəyi üstə canını tapşıran neçə şəhər sakininin son gördüyü şey indi baxdığım tutqun səma olmuşdu?

Kim bilir, bəlkə, bir möcüzə olsaydı, şaxtada bədəni qaxaca dönən cansız uşaqlardan biri dirilsəydi, sevinə-sevinə ilk dəfə gördüyü bu qəribəliyi dostlarına müjdələyərdi: “Uşaqlar, qırmızı qar yağıb”…

O gecədən sonra evlərdəki yemək qoxusu pəncərədən içəri dolan barıt iyiylə əvəzləndi. Soyuq aralı pəncərələrdən, açıq qapılardan dalğa-dalğa evlərə doldu, otaqlar buz kəsdi. Divanın küncündə unudulan kuklanın sarı saçları qırov bağladı.

Soyuqdan sonra hərbi geyimli, tanımadığım adamlar da bu evə girdi. Əvvəlcə bu şəhərin sakinlərinin ürəyini sökdülər, sonra evlərini.

Kərpic-kərpic tikilən bu yuva, indi də daş-daş, himinə qədər sökülürdü.

Günlər keçdikcə o əzəmətli ev qəfil xəstəliyə tutulan adamlar kimi əriyirdi. Əvvəlcə evin damı, sonra otağın tavanı yoxa çıxdı. O gündən səmayla məni ayıran bircə maneə qalmadı.

Sonra bu evin taybatay qapılarını, sobasını sökdülər, masanı, taxtı, divanı, stulları, dolabları, qab-qacaqları, sarı kuklanı daşıyıb apardılar.

Aradan keçən otuz ildə o uca evdən geriyə

tanımadığım adamların söküb aparmaqda çətinlik çəkdiyi mən və bənzərlərimdən ibarət bünövrə, üzündəki mamırlardan başqa həyat əlaməti olmayan daş parçaları yadigar qalıb.

## *3-CÜ YER*

Mahmudov Xanbala Elçin oğlu (Xan Abdulla) 1994-cü ildə Gürcüstan Respublikasının Tbilisi şəhərində anadan olub. 2017-ci ildə BDU-nun hüquq fakültəsini bitirib. Hazırda "Teas Press" nəşriyyatının redaktorudur.

***Xanbala MAHMUDOV***



# YAZGÜLÜN NƏVƏSİ

Yataqxanada itikçilər yaşayırdılar – qaçqınlar, məcburi köçkünlər, dolanmaq üçün kənddən şəhərə gələnlər, kimsəsizlər... Yataqxananın məxsusi qoxusu vardı. Bu, səfalətin qoxusu idi; yüz addım uzaqda olsan belə, gəlib burnunu dalayır, ürəyini bulandırırdı. Buna rəğmən, yataqxananın qarşısından keçmək, kir tutmuş divarlara, uçuq-sökük eyvanlara, zivələrdən asılmış qara-qura paltarlara baxmaq xoşuma gəlirdi. Qışqırıqçı, hay-küyçü arvadlar bir-birlərini təhdid etməkdən, söyməkdən, saçlamaqdan, dişsiz, maymaq qocalar həyətdə domino, nərd oynamaqdan, burnufırtıqlı uşaqlar ağlayıb-zırıldamaqdan, burnuyelli gənclər binanın qarşısında küllənməkdən bezməzdilər. Ən çox pəncərələrə oğrun-oğrun baxmaqdan xoşlanırdım, qıraqdan bu bəxtsiz insanların həyatına tamaşa edirdim. Bəzi evlərin içi aydınca görünürdü – maykalı arıq bir kişi tosqun arvadını öpürdü, balaca bir uşaq iştahla çörək gəmirirdi, ana yeniyetmə oğlunu döyürdü...

Demək olar ki, yataqxanın bütün sakinləri qarabəniz idi. İkisindən başqa...

On beş yaşım təzəcə tamam olmuşdu. Yaşdaşlarım kimi bütün gün qadınlar barəsində düşünürdüm. Erotik filmlərə baxır, xoşuma gələn, gözüm tutan qızları fikirləşib yaşdaşlarım nə edirdisə, onu edirdim. Sakit, qaradinməz, adamayovuşmaz bir uşaq idim. Hansısa qızın dodağından öpmək, hətta əlindən tutmaq mənimçün əlçatmaz bir xəyal idi. Qızlarla dilxoşluq edən söhbətcil, qanışirin, yapışıqlı oğlanlara qibtə edirdim. Çirkin uşaq deyildim... Sadəcə, bəxtim gətirməmişdi, dovşandodaq doğulmuşdum... Dodağımın üstündə çəhrayı bir çapıq vardı. İndi də var, amma çox da bilinmir. Çünki bığ saxlayıram...

Günlərin bir günü tənəffüsdə sinif yoldaşım Həsəni yanlayıb müxtəsərcə dedim:

– Məni Yazgülün yanına apar. Pulum var.

Yazgül fahişə idi. Yataqxanada yaşayırdı. Onu bir neçə dəfə uzaqdan görmüşdüm. Yataqxananın iki sarışın sakinindən biri o idi. Həsən danışanda eşitmişdim, bilirdim ki, on manata görüşür. Anam mənə hər gün bir manat verirdi ki, məktəbdə acsam, nəsə alıb yeyim. On gün heç nə alıb yeməmişdim.

Həsən mənə baxıb rişxəndlə gülümsədi. Sinfin ən hərcayi uşağı idi. Qalın, pırpız qaşları vardı – sanki kimsə kiminsə saqqalını yolub alabaşına-külbaşına Həsənin qonur gözlərinin üstünə yapışdırmışdı. Həsən rişxəndlə gülümsəyəndə şeytana oxşayırdı. Düzdür, heç kəs şeytanın necə göründüyünü bilmir, amma Həsəni (daha doğrusu, rişxəndlə gülümsəyən Həsəni) şeytana oxşadanların sayı az olmadığı üçün bunu əminliklə yaza bilirəm.

– Deyəsən, qızmısan, – Həsən dedi. – Özün niyə getmirsən? Qorxursan?

Sözün düzü, qorxurdum. Daha doğrusu, utanırdım. Yazgüllə necə danışmalı olduğumu bilmirdim. Çünki heç vaxt heç kimlə belə bir sövdəyə girməmişdim. Bir az həyəcanlanan kimi dilim dolaşırdı, boğulurdum. Yazgülün yanında gülünc vəziyyətə düşmək, naşı kimi görünmək, pərt olmaq istəmirdim.

– Aparırsan, ya yox? – mən soruşdum.

– Yaxşı, dərsdən sonra gedərik, – Həsən cavab verdi.

Dərsdən sonra birlikdə yataqxanaya getdik. Mart ayı idi. Binanın həyətindəki ağaclar çiçək-

ləmiş, çiçəklərin xoş rayihəsi binanın üfunətinə qarışmışdı. Həyəcanlı idim. Ürəyimin guppultusunu eşidirdim. Qaçıb getmək, aradan çıxmaq istəsəm də, namusa boğulub gözləyirdim.

Yazgül birinci mərtəbədə yaşayırdı. Bloka girib qapıya yaxınlaşdıq. Həsən qapını döydü. Bir neçə dəqiqə sonra qapı açıldı, iyirmi-iyirmi beş yaşlı kürən bir oğlan mənzildən çıxdı və bizə salam verib getdi. Yazgül Həsəni tanıyıb gülümsədi:

– Xoş gəlmisiniz, – dedi.

Mənim üzümə baxanda duruxdu, sanki özünü itirdi. Mən daha da həyəcanlandım. Elə güman etdim ki, qadının sir-sifətimdən xoşu gəlmədi.

– Xoş gördük, Yazgül, – Həsən əkəc-əkəc dilləndi. – Necəsən? Nə var, nə yox? Dostum görüşmək istəyir. Siftəsidir.

Yazgülün otuz-otuz beş yaşı olardı, parlaq dərisi, nazik dodaqları, yaşıl gözləri, əyri və bəyaz dişləri, sısqa ayaqları, iri döşləri vardı. Qəhvəyi rəngli şort, pələngi köynək geyinmişdi.

– Yaxşıyam, şükür...

– Gör nə deyirəm... On beş manatımız var. Bəlkə, ikimiz də girək?

– Yaxşı... Keç içəri, iki dəqiqəyə gəlirəm.

Yazgül həyətə düşdü.

– Qapının ağzında gözlə, – Həsən dedi və bic-bic gülümsəyib içəri keçdi.

Yazgülün səsini eşitdim, kimisə haylayırdı: “Yaqut... Yaqut... Yaqut...” Üç-dörd dəqiqə sonra qayıtdı. Yanımdan keçib içəri girdi və qapını kilidlədi. Gözləməyə başladım...

Beş-altı yaşlı sarışın bir qız uşağı gəlib qapının dəstəyini burdu, kilidli olduğunu anlayıb geri çəkildi. Əlində sarısaç bir kukla vardı. Bu qızı bir neçə dəfə uzaqdan görmüşdüm. Amma dodağının üstündə çəhrayı rəngli, səliqəsiz bir çapıq olduğunu bilmirdim. Qıza ürəyim yandı. Mən heç olmasa bığ saxlaya bilərdim... Kuklasının da ağzı cırıq idi. Güman ki, hansısa uşaq ona sataşmaq üçün gəlinciyin ağzına mismar batırmışdı. Mənim özüm də belə zarafatlara, hənəklərə tez-tez məruz qalırdım. Bəlkə də, bunu qızın özü etmişdi, istəmişdi ki, kuklası özünə oxşasın...

– Sən Yazgülün qızısan? – ondan soruşdum.

– Hə, – deyə qız gülümsədi.

Yaşıl gözləri par-par parıldayırdı. Ağzında dişi yox idi. Bununla belə, gülümsəmək ona yaraşırdı. Allah bilir, kimin qızı idi. Yaşım çatsaydı, Yazgüllə beş-altı il qabaq görüşsəydim, elə bilərdim ki, mənim qızımdır. Çünki mənə çox oxşayırdı. Qızın başını sığallamaq, üzündən öpmək istədim. Lütf edirmiş kimi... Nədənsə belə güman etmişdim ki, indiyədək anasından başqa heç kim onu tumarlamayıb, üzündən öpməyib.

– Nə gözəl kuklan var, – deyə qızın saçını sığalladım, amma öpmədim, çiyrəndim. – Anan alıb?

– Hə, o mənim qızımdır, – uşaq sevincək dedi və kuklasını möhkəmcə qucaqladı.

Nitqi qüsurlu idi, sözləri düzgün tələffüz edə bilmirdi. “O mənim qızımdır” yox, “o əim ıdımdı” demişdi...

– Böyüyəndə nə olmaq istəyirsən? – vaxt keçirmək üçün soruşdum.

– Həkim... Anamı sağaltmaq istəyirəm... Başı ağrıyır tez-tez...

– Hə, mən də həkim olmaq istəyirəm. Ananı çox istəyirsən?

– Hə, hamıdan çox istəyirəm. O da məni hamıdan çox istəyir. Qızımı da hamıdan çox istəyirəm...

– Necə yəni? Ananı hamıdan çox istəyirsən, ya qızını? – deyə gülümsədim.

– İkisini də, – qız gülə-gülə dedi və qaçaraq həyətə düşdü.

Bir neçə dəqiqə sonra qapı açıldı. Həsən mənzildən çıxdı. Pörtmüşdü. Üzünə xoş bir təbəssüm qonmuş, yumru sifəti sanki daha da yumrulaşmışdı.

Əlini çiynimə qoyub dedi:

– Qorxma, keç içəri.

Deyəsən, həddən artıq həyəcanlı olduğumu anlamışdı.

İçəri keçdim. Mənzilin təmirinin, şəraitinin bizim evimizə bab olması məni əməllicə təəccübləndirdi. Dəhlizdə yaşıl bir ləyənlə qırmızı aftafa vardı. Yazgül otaqda siqaret çəkirdi.

– Keç əyləş. Çəkənsən? Götür birini.

Nəzakətlə imtina elədim və keçib divanda – televizorun qarşısında oturdum.

– Qızının adı Yaqutdur? – deyə soruşdum.

– Hə, gözləri yaşıldır deyə, adını Yaqut qoymuşam, – Yazgül məmnunluqla cavab verdi.

Onda yaqutun, əslində, qırmızı rəngdə qiymətli bir daş olduğunu mən də bilmirdim. Yazgül qızının adını “Zümrüd” qoymalı idi.

Televizorda hansısa cizgi filmi göstərilirdi. Yazgül gözlərini televizora zilləmişdi, aramla

siqaretini tüstülədirdi. Nəhayət, siqaretini kül-qabıya basdı. Ayağa qalxıb dəhlizə doğru addımladı. Ləyənin yanında dayanıb şortunu çıxardı və əyilib aftafadan su tökərək qasığını yaxşı-yaxşı yudu. Sonra birlikdə çarpayıya uzandıq...

Doğrusu, heç bir dəqiqə də çəkmədi. Qalxıb alt paltarımı, şalvarımı geyindim. Yazgülə on manat verdim və sağollaşıb mənzildən çıxdım. Həsən həyətdə idi.

– Sən də kişi oldun? – məni görüb irişərək dedi.

– Kişiliyi bununla ölçürsən?

– Yazgülün ləyəninə düşmüşdün? – deyə Həsən qəhqəhə çəkdi. – Elə bildim, düşüb boğulmusan. Niyə gec çıxdın?

– Gec çıxmadım. Mən on manat verdim, sən beş manat. Niyə məndən qabaq girdin?

– Kişi kimi düzünü de. Sənə milyon manat versələr, ləyəndəki sudan içərsən?

– Söhbəti fırlatma.

Doğrusu, əməllicə peşmanlamışdım. Hər şeyi başqa cür təsəvvür edirdim. Belə olacağını bilsəydim, nəinki on, heç beş manatımı da qıyıb verməzdim. On manata nə qədər kökə, şirni, qutab almaq olardı. İçəri birinci girməyin elə bir təfavütü yox idi. Sadəcə, Həsəni acılamaq istəyirdim. O yanımızda Yazgüldən şirin-şirin danışmasaydı, belə bir həvəsə düşməzdim.

– Əşi, birinci girsəydin, guya nə edəcəkdin? Bu gün bizdən qabaq, kim bilir, neçəsi girib.

– Sən girəndə tamam soyundu?

– Necə yəni?

– Koftasını da çıxardı? Döşlərini gördün?

– Hə, əlbəttə.

– Bəs niyə mənlə görüşəndə soyunmadı? Soruşdum ki, koftanı soyuna bilərsənmi. Dedi, yox.

– Mən haradan bilim? Ac tülküyə oxşayırsan. Yəqin, düşünüb ki, dişləyib qopardarsan.

– Görəsən, Yazgül bu yola necə düşüb?

– Sənin kimi yaramazlara görə.

– Çaşma. Allah haqqı, vurub ağzını dağıdaram.

– Yaxşı, incimə. Bir dəfə soruşmuşdum, yetimxanada böyüdüyünü demişdi. Sonrası da məlumdur...

Deyişə-deyişə məktəbə qayıtdıq, çantalarımızı sinifdən götürüb evə getdik. Eyni binada yaşayırdıq...

Gələn il Yazgülün qızı Yaqut məktəbə başladı. Görəndə salam verirdim, başını sığallayırdım. Məhzun-məhzun salamımı alırdı. Deyəsən, ona salam verməyimi, başını tumarlamağımı istəmirdi. Həmişə sıranın ən axırında dururdu. Mən də vaxtilə sıranın ən arxasında dururdum, hamının gözündən oğurlanmağa çalışırdım. Deyəsən, onun da sinif yoldaşları ilə arası yaxşı deyildi. Gözləri əvvəlki kimi parıldamırdı. Özü boyda çantası vardı. Əyin-başı həmişə səliqəli olurdu.

Aradabir zarafatla ondan soruşurdum:

– Qızın necədir, Yaqut?

Üzünü turşudub cavab verirdi:

– Yaxşıdır.

Yaqutun şəklini şərəf lövhəsinə vurmuşdular. Şərəf lövhəsinə əlaçı şagirdlərin şəklini vururdular. Nədənsə şəkildə dodağındakı çapığı silmişdilər. Yaqutun təhrif olunmuş şəkilləri cəmi iki il şərəf lövhəsini bəzədi. Uzun illər bəzəyə bilərdi, amma olmadı...

O məşum hadisənin üstündən on beş il keçib. Mən həkiməm. Şəhər xəstəxanasında işləyirəm. Aradabir Çexov kimi hekayələr yazıram... Ailəm, arvad-uşağım var. Şəhərin küçələrində Yazgülü tez-tez görürəm. Bütün günü veyil-veyil gəzir. Cındırından cin ürkür. Öz-özünə danışır, qışqırıb-bağırır, kimisə söyür... Yay-qış boynuna şərf dolayır... Yaqutun ağzıyarıq kuklası həmişə qucağında olur... Yataqxananı uçurub yerində çoxmərtəbəli, qəşəng bir bina tikiblər. Həmin məşum hadisədən altı ay sonra dağıtdılar yataqxananı...

Bir nəfər Yazgülün boğazını kəsmiş, qızını boğub öldürmüşdü... Xoşbəxtlikdən, Yazgül sağ qalmış, qatilin kim olduğunu polislərə deyə bilmişdi. Qatil Yazgülün qonşusu idi. Sərxoş halda gəlib onunla görüşmüş, sonra pulu olmadığını bildirmişdi. Yazgül hay-kül qaldıranda kişi öz bıçağı ilə onun boğazını kəsmişdi. Evdən çıxanda Yaqutun qapının ağzında durduğunu görmüş, talesiz qızcığazı içəri çağırıb kandardaca boğazlamışdı... Ələ keçməmək üçün...

Yaqut indi yoxdur... Nə vaxtsa Yazgül də olmayacaq... Günlərin bir günü haradasa soyuqdan donacaq, acından öləcək, ürəyi partlayacaq, beyninə qan sızacaq, ya da maşın vuracaq onu... Yaqutun ağzıyarıq gəlinciyi hansısa zibilxanada yandırılanda iki öksüz başdaşından savayı bu dünyada Yazgülün və onun qızının izi, nişanəsi qalmayacaq...

## Gülnar ÜMİD

***

Üzüb ümidlərimi utanacam yaşımdan,
yığacam gözlərimi yollarından birtəhər.
Sonra darıxmagı da əlimin əsasıyla
çarpayının yanında unudacam hər səhər.

"Başqa"ların içində başqa kimim var mənim?
Gələnim olmayacaq qapımı da döyməyə.
Yeməyə söz tapmayan ac qalmış qulaqlarım
fürsət axtaracaq ilk, gözlərini döyməyə.

Axtaracam hər axşam yaddaşımı gözümdə,
yadıma düşməyəcək heç nə səndən savayı.
Səhər oyanacam ki, saatın zəngi çalır,
dərmanların vaxtıdı, ömür ötüb havayı...

***

Mən səni özümdə tapandan bəri
Özümü tapmadım itirən qədər.
İncimə, nə yalan deyim ki, daha
xətrin əziz deyil xatirən qədər.

Boğazdan yuxarı yaxşıyam, deyib,
Boğazdan aşağı uduram pisi.
Xaraba qalmışda seçmək də olmur
Cilddən-cildə girən yaxşını, pisi.

Zaman da eynidir, şəhər də eyni,
İndi ötənlərdən yad gəlir səsin.
"Darıxmaq"dan əllərimi üzmüşəm,
Dizin-dizin süründürür nəfəsi.

Qaçmağa yolum çox, dayanmağa az,
Günlər təngnəfəs dayanıb yolda.
Həyat da tamaşa deyil ki, hərdən
bir az xoşbəxt olaq obrazda, rolda.



***
Bax indi  darıxıram,
dünən də darıxırdım.
Bilmirəm, Allah bilir, sabah da darıxacam.

Sən olanda nə var ki,
gedəndə yıxılacam,
gələndə unudacam.
Məni xatırlayanda
çəkdiyin siqaretlərin sayından yıxılıcam.

Dodağımda adına,
gözlərimdə sıxdığım yuxu lampalarının
bir gün doğrularına,
bir gün yalanlarına...

Sonra, sonra...
– Nə bilim, göylərə göndərdiyim
göydən asılı qalan cavabsız duaların sonuna
sığınacam.

Sən olsan da, olmasan da,
Yenə də darıxacam...

***
Nəsli kəsilməkdə olan yaxşılığın bir-iki
nümunəsi qalıb
hardasa, kiminsə ürəyində.
İt iti tutmadığı küçələrdə
insanlar bir-birini didir.
Zamanın darağından keçmək çətinləşib,
Güzgüsü sınmış insanlar özünə özgə güzgülərdə
baxır.
"Öz"lər itir özgələrdə.
Qayıtmaq asan deyil, ayaqqabılarını itirir insan,
Dönüş ar istəyir, qalmaq xar edir.

***
Qırılmış badədən içdim şərabı,
Doymadı, doymadı çat-çat dodağım.
İndi də  yadlara  gülümsəyirsən,
utandın? – Utanma, soyun, yanağım!

Yalandan nə deyim, unutmaq olmur,
Gözümdən düşənlər gözümə dəymir.
Dilim də özümə qənim kəsilib,
Xətrinə dəyirəm, sözümə dəymir.

Sevgimiz bicliyi təzə öyrənib,
Aldadıb çəkirəm, oyuna gəlmir.
Neyləsin ürəyim, dərdi boydadı,
Ölçürəm, sevgimin boyuna gəlmir.

Bu gün dünənlərə cavab tapmır ki,
Baxıb suallara gözünü döyür.
Nə olsun gözümdən düşən adamlar
Özgə ürəyində özünü öyür.

***
Sən gedəndə dalınca elə yıxılmışdım ki,
kəsdilər ayağımı.
Elə o gündən sonra sənə qaça bilmədim.
Susdum özgə evində elə həmin gündəcə,
Nə yalan deyim, sonra
bu barədə heç yerdə söhbət aça bilmədim.

Sonra, sonra nə oldu?
Beşikdə qığıldayan körpələrim dinlədi
Özümü vərəqləyib,
özümə danışdığım yalançı nağılları.
Kəsilən ayağımı gizlətdim böyüdükcə
onların iməkləməyində,
onların da heç zaman kəsmədi ağılları.

Sonra, sonra nə oldu?
Böyüdü arzularım,
hərəsi gülüşündən pay verdilər ömrümə,
Hərəsi bir qolumu saxladı, dayaqlarım.
İlahi, nə möcüzəymiş!
Bir də baxdım, baxdim ki,
kəsildiyi yerindən boy atdı ayaqlarım...

***
Bütün sevənlərim sənin kimi sevmədi!
Sevdilər gözümü, qaşımı
– sevmədilər dünyaya baxışımı.
Sevdilər günlərimi, aylarımı
– sevmədilər sən olan yaddaşımı.

Bütün sevənlərim sənin kimi sevmədi!
Sevdilərləblərimi
– sevmədilər sözlərimi.
Sevdilər  əllərimi
– sevmədilər əməllərimi.

Bütün sevənlərim sənin kimi sevmədi!
Sevdilər gözlərim güləndə
– sevmədilər ürəyim göynəyəndə.
Sevdilər, sevirlər bu gün də,
sevməyəcəklər sənin kimi heç vədə...

***
Elə yorğun gəlirdin,
saçımın sığalını unudurdum hər axşam.
Qızlarımdan seçmirəm deməyə nə var ki, ehh...
gəl indi onu mənim yaşıma anlat, ata.
Vallah dəyişməmişəm,
yenə cığal, ərköyün...
Məndən gedənlərimin izinə düşə-düşə gözümdən
düşdüm, ata.
Heç xəbərin olmadı,
xeyir duaların da saçlarımın ağına düşdü, ata.

**GƏLMİŞƏM...**

Hər gecə gözlərimin
qapısında dayanan
sənsiz darıxmağımı
səninlə ötürməyə gəlmişəm...

Dünəndə nə vardısa,
Yır-yığış etdim daha,
İndi bu günlərimi
götürməyə gəlmişəm.

Bütün etiraflar da doğulmamış ölürlər,
Etdiyin günahların
izlərini izimlə
itirməyə gəlmişəm...

Öz adımı da yazım,
bəlkə, yazılarına?
Sətir-sətir yazdığın
vergüllü cümlələri
bitirməyə gəlmişəm...

***
Bulud kimi guruldayıb
yağ arada.
Mən susacam:
damcı-damcı dilənəcəm sözlərini.

Qürur nədi – unut hərdən,
yığ arada,
qulağıma ağlayarsan silənəcən gözlərini.

Qaranlığın keşiyini çəkir mənlə
çəyirtkənin yalvarışı.
Qorxma daha:
ürəyini xilas eylə!
gündüzlərə bel bağlama, çıx aradan.

Qiblən üzü Tanrıyadı,
Tanrı unudub məni sən tərəfdən:
bəlkə, mənə elə gəlir.
İmanımı yandırmaram:
sənin yerin ürəyimdə,
bircə mənəm yox arada!

***
Gözünün güzgüsündə
daranırdım bu gecə.
Üzümə kirşanımı
Dodağının fırçası
Çəkirdi incə-incə.

Karlaşmışdı qulağım
eşitdiyim səslərə.
Nəfəsin danışırdı,
acıq verirdi bütün
“əbəs”lərə, “bəs”lərə.

İlk dəfə idi bu gün
sənə səndən danışdım.
Acığına gəlməsin,
sənə demişdim axı,
sevgilimlə tanışdın.

Şəlləmişdi saçımı
kürəyimə əllərin.
Danışdıqca dilindən
sürüşüb ürəyimə
düşürdü ümidlərim.

Yol eyni, mənzil ayrı.
Qapının astanası
utanır ayağımdan,
gözümdə səni görüb
sevinir intəhası.

***
Taleyin qayçısı doğrayır günlərimi,
bıçir 365 yerə,
12 qatda birləşdirir yenidən,
min dəfə geyindirir.
Yaşamağı heç olmasa geyinirsən doyunca,
Ölümdü ömrünü bir nəfəsdə soyunan...

***
Sabah mütləq yazacam,
bu dəfə söz verirəm!..
Sındırıb qürurumu parça-parça sözlərlə,
ağ gəlinlik geyinən kağız vərəqlərinin sinəsinə
sərəcəm.

Sabah mütləq yazacam!
Göz yaşımla isladıb
çəkdiyim darıxmağın bütün şəkillərini
Saatın əqrəbində tez sənə göndərəcəm.

Sabah mütləq yazacam!
Zaman qatarı keçir evinizin yanından,
qurban olum, nə olar,
heç olmasa bu dəfə ünvanını dəyişmə!
Məktubumu al, oxu,
söz verirəm sən oxu, sonra özüm gələcəm.

***
Soyuq suyun ömrü isinənəcən,
Darıxmağın ömrü küsənəcəndi.
Barışmağa bir bəhanə gəzirik,
Elə ayrılıq da bitənəcəndi.

Dərdin ölçüsü yox, çəkib bitirək,
Gözümüz kor deyil, gözdən itirək,
Keçmişdən nə qaldı, nə də götürək,
"Gələcək" bu ömrü biçənəcəndi.

Nə olsun, qucaqlıq qolumuz da var,
Sağa söykənməyə solumuz da var,
Şeytana daş atmaq yolumuz da var,
Çətini körpüdən keçənəcəndi.

İlləri boş yerə xərcləyir insan,
Yaxşıyla yamanı seçməyir insan,
Unudur, vərdişə çevirir insan,
Yaddaşı doyunca içənəcəndi.

Heç bilmir nə ilə yarışır ömrü,
Allah nə verdisə, barışır ömrü,
Axırda torpağa qarışır ömrü,
Çətini dünyadan köçənəcəndi.



## EŞQİN KUZƏSİNİ DODAĞIMDA QIR

Günəş saçlarını dənizə sərib,
Hər səhər heç qalmaz öyünməyindən.
Saçını xərçəngə pay verən ay da,
Utanar gündüzlər görünməyindən.

Nədir eqoistlik, nədir bu inad,
Həsrətin küləyi yad edir bizi.
Hansı yol üstündə dayanıb yenə,
Hansı şəhərlərə ötürür bizi?

Götür gözlərimi, sinənə sıx ki,
Dəyişsin qəlbimin döyüntüsünü.
Gəlişin, bəlkə də, alışdıracaq
Eşqin közü qalmış göyüntüsünü.

Üzü buludlara yol çəkən duam
Tutub ətəyindən çəkəcək səni.
Gözünün yaşını silib qoluna,
Bulud gözlərindən çəkəcək çəni.

Eşqin kuzəsini dodağımda qır,
Çatlayıb doyursun susuzluğumu.
Ərşinə çəkilmiş gecələrim, de?
Nə qədər içəcək yoxsuzluğunu?

Bağladım dilimi əlimə bərk-bərk,
Qaldırıb ardınca "sağ ol" deməsin.
Keçmişin iziylə yola düşüb gəl,
Məndən başqa səni kimsə görməsin.

# ULDUZ



Nemət MƏTİN

– Böyük ulduz tez sönür.

– Yəni ulduz ölür?

– Belə də demək olar.

Nazlı ulduzları seyr edərkən ona baxdım. Suya düşmüş pişik kimi titrədim. “İlahi, o, ulduzdan da gözəldir”, – acizanə düşündüm.

– Bəs ulduz niyə axır?

– Əslində, bizə elə gəlir ki, ulduz axır. Meteoritlər atmosferə girmək istəyəndə yanır.

– Uşaqlıqda axan ulduz görəndə arzu tutardım. Deməli, cəfəngiyyat imiş.

– Arzular bizi məqsədlərə yönəldir.

– Razıyam.

Nazlı mənimlə razılaşanda sanki ürəyimdə od qalandı. Qeyri-ixtiyari onu öpdüm. O utandığından nə edəcəyini bilmədi. Üzünü çevirib getdi.

* * *

Artıq evlənmişəm. Bir qızım var. Adını Ulduz qoymuşam. Həmin günün şərəfinə. Nazlı ilə heç nə alınmadı. Atası Nazlını və onun anasını Rusiyaya apardı. Bir daha sevdiyim insanı görmədim. Arabir xəbəri gəlirdi. Qonşularımız qəzet müxbirlərindən daha operativdirlər. Hər şeydən xəbərləri var. Son məlumatlara görə, Nazlı ərə gedib. Varlı bir iş adamına...

İyirmi bir noyabr... Bu əlamətdar günü heç vaxt unutmaram. Gözlənilmədən Nazlını gördüm. Həyat yoldaşı və oğlu ilə baba evinə gəlmişdi. “Bircə onunla danışa bilsəm...”, – deyə düşündüm.

O da oldu. İnsan bir şeyi çox istəyəndə olur. Həmişə olur. Nazlıdan başqa hamı harasa qonaq getmişdi. Fürsəti əldən vermədim. Tələm-tələsik qapılarına sarı addımladım. Qapını döyəndə səs çıxmadı. Əllərim sözümə baxmırdı. Birtəhər yerdən xırda daş götürdüm. Var gücümlə qapını döydüm. Nazlı qapını açanda dilim yumalanıb qarnıma düşdü. Dodaqlarım kilidləndi. O dedi:

– Xoş gəlmisən. Necəsən?

Uzun-uzadı susdum.

– Səni görəndə sevindim. – nəhayət, bu sözləri güc-bəla ilə ağızdan çölə atdım. – Yaxşıyam, Ulduz.

Nazlını gülmək tutdu. Güləndə daha da gözəlləşdi. Mənsə çaşdığım üçün dilxor oldum. Utandım. Yer yarılsaydı, düşünmədən içinə girərdim.

– Keç içəri, utanma.

Heç nə düşünmədən dərbeçədən içəri keçdim.

Sonra nə oldusa, yadıma gəlmir. Sanki sərxoş oldum. Bədənim keyidi. Baş verənlər hər gözümü yumub, açanda kadrlar şəklində görünməyə başlayır. Evə keçirəm. Çay içirik. Gülümsəmələr... Nazlı yanağımdan öpür. Soyunuruq. Tərləyirəm. Ürəyimdə sanki od qalanır. Rahatlaşıram...

* * *

Nazlıgilin Rusiyaya qayıtmağından bir ay keçib. Qızım Ulduza rəsm dərsindən evə tapşırıq veriblər. Tapşırıq dəftərinə nəzər yetirdim. Müəllim yazmışdı:

“Ulduz çəkin və rəngləyin”.

Rəsm albomunda yer qalmadığı üçün yenisini almağa getdik. Üstündə gəlincik olan albomu aldıq. Qaranlıq düşüb.

Yolda heç nə danışmadıq. Fikirli idim. Qızım sükutu pozdu:

– Ata, ulduzlar da bizimlə evə gedir.

Başımı qaldırıb ulduzlara baxa-baxa düşündüm: “Sonuncu dəfə Nazlını öpəndə ulduzlara baxmışam...”



Seyid AYNUR

**QARABAĞ**

“Qarabağ şikəstəsi”ni oxuyar
Şuşadan çıxan o sonuncu zabit,
“Qayıdacağıq!” deyib
Dəfn edər yaddaş məzarıstanında
Hey qisas gözləyən nakam ruhların
Susmayan harayını.
Əsir düşmüş körpə gülüşləridir –
Döyülməkdən sırtılan ən pis uşaq,
Ölümdür müharibə!..
İşğal olunmuş saysız ümidlərdir,
“Topxana”dan gələn imdad səsləri,
Qəbirlərdir yiyəsiz.
Kaş üşüyən vüqarımın çiyninə
Buşlatını atasan, şanlı əsgər.
Həsrət gözümü qırıb –
Bakının havası düşmədi yaman,
Qohumlarım xatirə oldu bir-bir,
Quş olub uçdu hamı.
Quruyar gözlərimdən axan çaylar
Dalğalanar göydə zəfər bayrağı,
Duman olub çəkilər
Gözümüzdən vətənsizlik qorxusu;
Xoşbəxtlikdən hamıyla qucaqlaşar,
Doğmalaşar insanlar.
Həqiqətin dilində azan verər
Yarası sağalan Şuşa məscidi.
Dayanıb namaz qılar
üzünü küləyə tutan çiçəklər.
Dağlara düşən şəhid qanı dönüb
qırmızı lalə olar.

**YAĞIŞ**

Bu şəhərin kiri axır üzündən,
Diri baxır ölüləri özündən.
Buludlardan düşən bir yağışam mən,
Qismət olsa, yanağından öpəcəm.
Bu ağlağan göy üzündən qurtulub
Əllərini, kirpiyini sevəcəm.
Mən bir evəm,
Başım üstə damım yox,
Darıxmağa dostum yox,
Adamım yox.
Yağmağım da gəlmir daha çöllərə,
Qan qoxuyan, qisas görən ellərə.
Daha gülə, budağa qonacağam.
Yar qoxuyan otağa hopacağam.
Bu şəhərin kiri axır üzündən,
Diri baxır ölüləri özündən.
Günahını sərib gecə yollara,
Dəyişib namusu dövlətə, vara-
Bu şəhərin kiri axır üzündən,
Diri baxır ölüləri özündən.
Düşürəm mən hər fəsil
Bu sonsuz yer üzünə.
Göy üzünün gözündən,
Buludların içindən
Qara, sarı torpağa,
Bağrı yarıq torpağa.
Mənə yol ver,
Yola doğru yoldaş ver!
Mənə söz ver,
Söz tutacaq sirdaş ver!..
Daşa çevir məni indi, İlahi!,
Puça çevir, heçə çevir, İlahi!

**SƏN**

Lal divarlar.
Utandığından gözlərini yummuş çilçıraq.
Bir fincan qəhvə –
içinə şəkər əvəzi gülüş qatılmış.
“Sən” – “O”:
Vanna otağının tərli kafelləri.
Üzlü pərdələrin
gizlətməyə çalışdığını hayqıran vicdanlı
pəncərələr,
doğulmayacaq körpə.
“Sən” – “Mən”,
“Ər” – “Arvad”:
orta statistik ailə olmağı bacarmayanlar.
Sevilməyən bədənlərdə əllərin yox,
yad gözlərin izi qalır.

**SÜKUT**

Arzularımı ağ vərəqə yazıb
qoydum ümidin cibinə,
qum üzərində bir alma ağacı çəkdim
günahlarımı xatırladan,
gözlərimi dənizin ətəklərinə
sıxıb ağladım –
bir də baxdım, gün çıxıb.

**ŞEİR**

Eyvanda “ayrılıq” sözü tumurcuqlayırdı:
səbri tulladım uçurumdan üzüaşağı,
şeir çiçəklədi ağ vərəqdə
dalğalanma daha, nəm çəkən gözlərim.
Qolumu qaldırıb
yatmış körpəmin üstünü örtmək istədim –
bir də gördüm əllərim
bir cüt qanad olub.

**MEŞƏLİ**

O gün Adilənin qırmızı başmağı
Ağquta atın təkindəki
qırmızı qotazlı xurcunun gözündə qaldı-
qırdı camaatı ermənilər.
Göz-göz olmuşdu,
düz yetmiş səkkiz dəfə
ürəyindən vurulmuş,
ermənin hirsi soyumamışdı.
Günahsızam dedi məhkəməyə gətirilən
Xaçaturyan:
Qopdu Meşəlidə gəzən ruhların fəryadı,
Ədalətin güclü əli sıxdı boğazını –
Tarix unudulmadı!..

**YUXU**

Bəyaz gecələrin
rəngli yuxusunu görən alma ağacları
ağappaq əlləri, al yanaqları olan bir
qızcığaza nağıl danışdı:
“Ömür qanadı qırıq insanların
quş kimi azad olmaq arzusudur.
Xoş gəldin,
Doğum günün mübarək!”.

**UŞAQ**

Bu gün “Ayrılıqlar qəbiristanı”nda
əllərimlə torpağa qoyduğum
Sevgimizin qırxı çıxdı.
Onsuz da bütün eşqlər yalan,
Məcnunlar ağciyərdir.
Əllərini qoynuna qoyan
Qış günəşi mənə tərəf baxır,
Biixtiyar qışqırıram yollara:
Məhəbbətin dilini bilmədinsə,
“İngiliscə”ni tum kimi çırtlamaq
hünər deyil.
Sən bilməzsən ürəyimdəkiləri,
bilməzsən,
bilməzsən, uşaq!..

**MÜHARİBƏDƏN KASKAD ŞEİR**

Gözlərinin dibi mavi, yoxsa yaşılmıydı,
bilmədim,
Gecənin gündüzə toxunduğu o al-qırmızı sabah.
Dil açdı bətnimdə azadlıq,
Gileyləndi olanlardan,
Bakının havası düşmədi – qocalar qırıldı bir-bir.
Dizin-dizin alçaldı ucaboy, enlikürək cavanlar,
Ay da kədər dolu baxışlarla son dəfə oxşar kimi
Daradı o gur, buruq-buruq saçlarını Həkərinin.
Gözlərinin dibi mavi, yoxsa yaşılmıydı,
bilmədim.
Düşmən durmadan göydən mərmilər yağdırdı
başımıza,
Yamacdan boylanan gülxətmi də ağladı
kəndimizi.

Mən evimizin pəncərəsində durub səni gözlədim
Gecənin gündüzə toxunduğu o al-qırmızı sabah.
Laçından bəd xəbər gətirdi bizim əmioğlu Abo,
Zəhrimar “Koridor” sözünü ilk dəfə onda
eşitdim.
Bir də köçkünlükdə bir özgə mənzilinə
sığmayanda,
Dil açdı bətnimdə azadlıq,
Gileyləndi olanlardan.
Şuşadan tək xatirə – başdaşlarında şəkillər
qaldı…
Son nəfəsdə nənəm dodaq qurudan həsrətlə
danışdı:
“Bizləri bir az da elə bu özümüzkülər öldürdü,
Bakının havası düşmədi – qocalar qırıldı bir-bir”.

**DARIXMAQ**

Yollar –
Dünyanın əlifbasıdır!
Çata bilməyəcəyim yasəmən qoxulu
arzudur uşaqlıq.
Rəssam olsam, kətan üstünə
Çiçəklərin ətrini çəksəm…
Adın düşüb yada –
darıxmışam iki heca.

**SEVGİSİZLİK**

A Z A D L I Q – çörək pulu üçün qadınların
Qul bazarında sərbəst dayanmasıydı!..
Hər gün evlərdə
neçə-neçə qadının ümidlərini
udurdu tozsoran.
Böyüklər gün eynəkləri taxırdı
gecə-gündüz,
vitrindəki konfetlərə baxa-baxa qalırdı uşaqlar.
Adamlar baxışlarıyla güllələyirdi
əl-ələ gəzənləri,
hamı rəsmi idi –
şəxsiyyət vəsiqəsindəki
fotolardakı kimi,
bu şəhərdə ölmüşdü sevgi.

**LAVANDA**

Lavanda tarlası.
Türkiyə,
Quyucuq kəndi:
Yanaqlarını sevgilisinin üzünə
sərən gülərüz qadın
bənövşəyi sonsuzluğa baxar,
sığal çəkər dikəlmiş qarnına
soruşar pıçıltıyla:
“Şair, yoxsa rəssam olsun?..”

**PORTAĞAL**

Radioya bənzəyirdi
o gün adamlar – hərənin ağzında bir avaz,
ürəyində bir dalğa.
Mən portağal qabıqlarından
qayıqlar düzəldib
dənizə buraxdım,
portağal qoxulu adam
şirin-şirin çarpayısında yatırdı.
Ailə tabloları çəkə bilməyən
sağ əlim
cızdı qumun üzərində:
məni,
onu,
bir də körpə portağalı.

**KİBRİT**

sinirləri yumaq edib,
ərinə köynək toxuyan bəstəboy qadın.
divarda göz boyda dəlik açıb
qonşusunu
seyr edən kişi.
bir qutu qədər ev –
və bir daha heç vaxt
alışmayacaq bir cüt kibrit.



***Qalileo QALİLEY:***

İnsana bu mükəmməl beyni verən Allahın insanın bu beyni işlətməsini istəmədiyinə inanmıram.

***

İki həqiqət bir-biriylə əsla ziddiyyətdə ola bilməz.

***

Heç bir şey öyrənə bilməyəcəyim qədər cahil birinə heç rast gəlmədim.

***

Ulduzları çox sevdiyimçün gecənin qaranlığından qorxmuram.

***

Ən böyük müdriklik özünü tanımaqdır.

***

Bu dünyada cahilliyin Elmə qarşı duyduğu kin və nifrətdən daha güclü bir kin və nifrət yoxdur.



***Tomas CEFFERSON:***

Əminəm ki, başqasına yaxşılıq edəndə hər kəsin qəlbi şad olur.

***

İnsanların sərvətləri artdıqca səmimiyyətlərinin də çoxaldığını görmədim.

***

Dəhşətli qanunu var təbiətin: azadlıq ağacı vətənpərvərlərin qanıyla vaxtaşırı suvarılmalıdır.

***

Həqiqətdən qorxmayan kəs yalandan əsla qorxmamalı.

***

Mənim vətənim – azadlığın olduğu yerdir.

***

Uğura möhkəm inanıram. Diqqət eləmişəm; mən çox çalışdıqca bəxtim də çox gətirir.



***Çarli ÇAPLİN:***

Güzgü ən yaxşı dostumdur; mən ağlayanda o əsla gülməz.

***

Gülüşsüz keçən hər gün – boş yerə keçən gündür.

***

Yağışda gəzməyi xoşlayıram, çünki ağladığımı kimsə görmür.

***

Sən bədbəxt ikən həyat sənə gülər; xoşbəxt ikən üzünə gülümsəyər, amma başqalarını sevindirəndə səni salamlayar.

***

Filləri sevmirəm; bir belə güclü, bir belə də itaətkar olasan.

***

Dünya hamıya yetəcək qədər böyükdür. Başqasının yerini tutmağa çalışmaqdansa öz yerin haqda düşün.



***Henrix BÖLL:***

Sadəcə inanın. Bilirsinizmi, bir şeyə sadəcə inanmaq belə, insana böyük güc verir.

***

...İnsan ən böyük ağrını sevdiklərinə daddırırmış.

***

Dünyada yanında ağlaya biləcəyin insan bir elə də çox deyil...

***

Özünü sərbəst hiss eləmək istəyirsənsə, ucuz geyimlər geyin.

***

Bütün insanlar qardaşdırlar, hətta düşmən olsalar belə...

***

Yer üzündə hər kəs bir-birinə yabançıdır.



***Arif Nihad ASYA:***

İşığın ardınca get! Kölgən arxanca istər gəlsin, istər gəlməsin!

***

Ölülərin çənəsini bağlayırlar ki,
burda gördüklərini orda danışmasınlar.

***

Qulun olaraq doğulmasaydım,
özüm gəlib fəxri qulun olardım, Allahım.

***

Aramızdakılardan biri körpü olmağa razılıq verməzsə,
qiyamətəcən bu çayın qırağındaca gözləməli olacağıq.

***

Yan, ey ürəyim, yan; Yandırammaz yanmayan!

***

Allah sənə layiq etsin övladlarını,
Ey qübbəsi aminlə hörülmüş yurdum!



***Andrey TARKOVSKİ:***

Utanmaq insanlığı xilas edəcək qədər qüvvətli bir duyğudur.

***

İnsanın başqa insanlara ağrı çəkdirmədən yaşaya bilməyi üçün bir idealı olmalıdır.

***

İnsan 16 yaşındaykən dünyanı dəyişdirəcəyini düşünər. 18 yaşında düşüncələri sərt bir qayaya çırpılar. 20 yaşına gələndə heç nəyi dəyişdirə bilməyəcəyini anlar. 25 yaşında isə dünyanın onu dəyişdirdiyinin fərqinə varar. Və 25 yaşında ölər, 75 yaşında gömülər.

***

Sənətin məqsədi, daha çox, insanı ölümə hazırlamaq, onu iç dünyasının ən gizli guşəsindən vurmaqdır.

***

Həyat hər zaman bizim xəyal gücümüzdən daha zəngindir.



***Pablo PİKASSO:***

Rəsm etmək üçün gözlərini yummalı və oxumalısan.

***

Elə insanların da aralarında surətləri əsllərindən çoxdur.

***

Sabaha yalnız o işlərinizi saxlayın ki, ölənəcən tamamlamaq istəmirsiniz.

***

Ən nəhayət, gənc olmaq üçün xeyli zaman itirmək lazımdır.

***

Mən axtarmıram. Mən tapıb üzə çıxarıram.

***

Rəsmlərimin heç birisi öz əlimdə deyil, çünki Pikasso orijinallarının qiyməti bir neçə min dollardır – mən də belə israfçılığa yol verə bilmərəm.



***Joze SARAMAQO:***

Ən asan işin yamanlıq eləmək olduğunu hər kəs bilir.

***

Kim olduğunu bilmirsənsə, özün ola bilməyin mümkün deyil...

***

Vicdanlar gərək olduğundan daha çox susarlar, o üzdən qanunlar yaradılıbdır.

***

Ümid duz kimidir, insanı doyuzdurmaz, amma çörəyə dad verər…

***

Həqiqətən də, görmək istəməyən kəs kordan daha betərdir.

***

Şübhə yoxdur ki, bizə ən yaxşı dərsləri sadə insanlar verirlər.



***Corc ORUELL:***

Əgər düşüncələr dili pozarsa, dil də dönüb düşüncələri pozar.

***

Azadlıqlarını müdafiəyə qalxmayanların ödədikləri bədəl ağır olur.

***

Bir cəmiyyət həqiqətdən nə qədər uzaqlaşarsa, həqiqəti deyənlərə də bir o qədər nifrət bəsləyər.

***

Həyatda əsas məqsəd neçə il yaşamaq deyil, şərəf və ləyaqətdirsə, onda haçan ölməyin nə fərqi varmış?

***

Coys sanki hayqırır: “Bu da sizə Allahsız həyat. Görün o necə də dəhşətlidir...”

***

Nə qədər ki yaşayıram, Yer üzünü sevməyə davam edəcəyəm...



***Stanislav Yeji LETS:***

Öləndən sonra yaşamaq asan deyil; bəzən buna bütün ömrünü sərf etməli olursan.
***
Ən çətini də elə insan cildindəki heyvanı sığallayıb oxşamaqdır.
***
Əlləri iməkləməkdən qurtulan gün İnsan tarazlığını da itirdi.
***
Bir belə sürü içində bəxtiyar çoban olmaq çətindir!
***
Ədalətin yolu üstə dayanmayın – Femida kordur.
***
İnsan ol! Meymunlar artıq bunun öhdəsindən gəliblər.
***
Tarixdən bütün yalanların silinməyi o demək deyil ki, yerdə ancaq həqiqət qalacaq. Ola bilər, yerdə, ümumiyyətlə, heç nə qalmasın.





***Bernard ŞOU:***

Uzun yaşadıqca daha çox bu qənaətə gəlirəm ki, Günəş sistemində Yer üzü dəlilər evi vəzifəsini görür.
***
Getdiyiniz yolda heç hansı əngəl yoxsa, bilin ki, o yol sizi heç hara aparmır.
***
Xoşbəxtlik qapınızı gündə azı bir yol döyür, amma təəssüf, o an evdə olmursunuz.
***
Çox az adam olar ki, ildə bir neçə dəfədən artıq düşünə. Mən həftədə bir-iki kərə düşündüm, dünyada məşhur oldum.
***
Acıqlı olduğunuz hər dəqiqə ərzində xoşbəxtliyin altmış anı itirilir.
***
Bircə yol həqiqəti dedinizsə, sonra istədiyiniz qədər yalan danışın, daha sizə inanmayacaqlar.

*Tərcümə və tərtib müəllifi*:
**C. BƏYDİLİ**



*“Şəhrizadın nağılları” silsiləsindən*

# VARLA YOXUN ƏHVALATI

Günel MEHRİ

Biri vardı, biri yoxdu. Bir Var vardı, bir də Yox vardı. Var və Yox əkiz qardaş idilər. Görünüşləri iki damla su kimi bənzəsə də, xasiyyətləri yerlə göy qədər fərqli idi. Var nə qədər kövrək, anlayışlı idisə, Yox da bir o qədər tərs və davakar idi. Var nə cür davransa da, Yoxu qane edə bilmirdi. Yox hər dəfə bir bəhanə tapıb söz-söhbət salırdı. Onun hərəkətləri valideynlərini də əsəbiləşdirirdi. Qış gecələrinin birində Yox yenə səsini başına atıb hay-küy saldı:

– Dedim ki, karandaşlarını mənə ver. Sən düz çəkə bilmirsən. Belə dağ çəkməzlər.

Var onu sakitləşdirməyə çalışdı:

– Sənin karandaşların var da. Öz karandaşlarını götür. Mən də belə çəkmək istəyirəm.

Yox isə dediyini deyirdi:

– Yox, dedim ki, ver. Yoxsa rəsmi cıracam.

Və elə bu məqamda Yox Varın bərk-bərk tutduğu rəsmdən yapışdı. Kağız iki yerə bölündü. Var ağlamağa başladı. Səs-küyü eşidən ata ilə ana otağa girdilər:

– Yenə nə olub?

Yox cırdığı rəsmi arxasında gizlətməyə çalışsa da, artıq gec idi. Valideynləri Varın əlindəki cırıq kağız parçasından nə baş verdiyini anlamışdılar. Yoxun hərəkətinə hirslənən ata onu cəzalandırmaq üçün bütün karandaşları götürüb getdi. Yox əsəbi halda Varın oturacağını silkələdi:

– Hər şey sənə görə olur. Axı sən niyə varsan? Sən yox olsan, bütün həyatım düzələr.

Var gözünün yaşını silib günahkar-günahkar qardaşına baxdı:

– İstəyirsən, mən gedim deyim ki, rəsmi özüm cırmışam? Ya da karandaşlarımı alıb sənə verim. Hamısı sənin olsun.

Yox yatağına girib yorğanı başına çəkdi.

– Yox, səndən heç nə istəmirəm. Yox ol!..

Səhər şəfəqləri Yoxun üzünü qıdıqlayırdı. O, gözlərini ovuşdura-ovuşdura yerindən durdu. Birdən dünən gecəki hadisə yadına düşdü. Əsəbi halda Varın çarpayısına baxdı. Amma orada çarpayı yox idi. Yox təəccüblə gözlərini bir də ovuşdurdu. Həmin künc, doğrudan da, boş idi. Yox yerindən sıçrayıb Varı çağırmağa başladı:

– Hardasan, Var? Bu nə oyundur belə? Tez çıx ortaya. Var, eşidirsən?

Yoxun səsinə səs verən olmadı. O tələsik mətbəxə keçdi. Anası fincanlara çay süzürdü. Atası da kitab oxuyurdu.

– Sabahın xeyir. Gəl, çay içək.

Yox tez fincanları saydı: bir, iki, üç.

– Ana, bəs dördüncü fincan hanı?

Anası təəccüblə ona baxdı:

– Hərəyə bir fincandır da. Dördüncü fincanı neynirik?

Yox əsəbi şəkildə anasının sözünü kəsdi:

– Bəs Var? Biz dörd nəfərik axı...

Valideynləri bir-birinə baxdılar:

– Var kimdir? Qonağın gələcək bu gün?

Yox qulaqlarına inana bilmirdi. O, cavab gözləmədən bütün evi, həyəti gəzdi. Amma nəinki Varı, heç onunla bağlı bir əlamət də tapa bilmədi.

Hətta evin divarlarına vurduqları ailəvi fotolarda belə Var yox idi. Yox heç cür sakitləşmək istəmirdi:

– Yox, bu belə ola bilməz. Hardasan, Var? Yoxsa mənim gecəki sözlərimə görə sən yox olmusan. Yox, yox. Qayıt evimizə, həyatıma qayıt...

Amma Yoxun çağırışları cavabsız qalırdı. Ən pisi isə valideynləri də, həyətdəki uşaqlar da Varı xatırlamırdılar. Onda Yox qərara gəldi ki, evlərindən çıxıb dünyanı gəzsin. O əmin idi ki, hardasa bir yerdə qardaşı Varla qarşılaşacsaq. Onlar yenidən birgə oynayacaqlar, güləcəklər və bir də dalaşmayacaqlar...

Beləcə, Yox evdən çıxıb yola düzəldi. Az getdi, üz getdi, dərə-təpə düz getdi. Çox yerdən soraqladı, amma qardaşı Varı gördüm deyən olmadı. Axırda yol bitdi, gəlib dənizə dirəndi. Yox əliboş geri qayıtmaq istəmədi. Dənizi səslədi:

– Xoş gördük, mavigözlü dəniz. Mən qardaşım Varı axtarıram. Yol məni sənə gətirdi. Sənin dalğalarında onunla çox oynamışıq. Bəlkə, sən biləsən onun yerini?

Dəniz əvvəlcə coşdu, daşdı. Nəhəng dalğaları sahilə hücum çəkdi. Amma Yox yerindən tərpənmədi. Üst-başı suyun içində soyuqdan titrəyə-titrəyə dənizə baxdı. Birdən dəniz quzu kimi sakitləşdi:

– Varı gördüm. O, mənim dalğalarımı aşıb o biri sahilə getdi. Belə görürəm ki, onu tapmağı çox istəyirsən. Sənə kömək edəcəm.

Dəniz bunu deyib iki yerə ayrıldı. Düz ortasından digər sahilə yol yarandı. Yox dənizə təşəkkür etdi:

– Çox sağ ol, əziz dəniz.

Yox həmin yolla gedib digər sahilə çatdı. Bu dəfə də hündür bir dağla qarşılaşdı. Dağın buludlara çatan zirvəsi, keçilməz sıldırım qayaları vardı. Yox dağın dövrəsində dolaşdı. Amma geri çəkilmək istəmədi. Dağla danışmaqdan başqa bir çıxış yolu görmədi:

– Salam olsun sənə, ucalardan uca, qocalardan qoca dağ! Mən qardaşım Varı axtarıram. Bəlkə, ona rast gəlmisən? Mənə ondan bir soraq versən, çox sevinərəm.

Bu vaxt tufan qopdu. Dağın yan-yörəsindən qopan iri daşlar düz Yoxun üstünə gəldi. Yox özünü qorumaq üçün sağa-sola qaçsa da, dağdan uzaqlaşmadı. Birdən tufan dayandı. Dağ dilə gəldi:

– Sən nə qorxmaz oğlansan? Məni təəccübləndirdin. Qardaşını görmüşəm. Ona doğru getmək üçün sənə sehrli ağacımı göndərirəm.

Dağın yamacındakı ağacın budağı uzanıb Yoxun qarşısında dayandı. Yox budağın üstünə çıxdı. Budaq onu dağın üstündən buludlara qaldırdı. Yox buludun üstündə oturdu. Göyün bir qatında təəccüblə ətrafına boylandı. Amma Varı heç yerdə görmədi. Qərara gəldi ki, indi də qardaşını səmadan soruşsun:

– Salam, ey sonsuz səma! Qardaşım Vardan xəbərin varmı? Onun sorağıyla sənə üz tutmuşam.

Səma bozardı. Buludlar qarışdı. Bir şimşək çaxdı, bir yağış yağdı, bir göy guruldadı ki, gəl görəsən. Amma Yox gözünü qırpmadan dik başla səmaya boylandı. Birdən səma aydınlaşdı, duruldu və dilə gəldi:

– Dik duruşundan xoşum gəldi, oğlan. Qardaşını sənə göstərəcəm.

Yox bir də gördü ki, aydın səmada bir parça bəyaz bulud ona yaxınlaşır. Buludun içində parlaq bir işıq vardı. Bulud yaxınlaşanda işıqdan səs gəldi. Bu, Varın doğma səsi idi:

– Salam, əziz qardaşım. Səni görmək necə gözəl. Darıxmışdım.

Yox gözlərinə inana bilmədi:

– Sən... sən işığa dönmüsən? Axı niyə?

İşıq Yoxun ətrafında dövrə vurdu. Onun üzünə yaxınlaşdı:

– Niyəsini soruşma, qardaşım. Mən indi səmada uçuşan bir parça işığam və həmişə sizi yuxarıdan izləyib xoşbəxtliyiniz üçün duaçı olacam.

İşıq Yoxun gözlərini qamaşdırırdı. O, əlləri ilə gözlərini ovxaladı:

– Yox, getmə, Var. Yanımda ol. Yenə qardaşım ol.

Yox dayanmadan bu cümlələri təkrarlayırdı. Birdən hiss etdi ki, kimsə çiynindən tutub silkələyir. Gözlərini açdı. Var pəncərədən düşən günəş şəfəqlərinin arasından Yoxa baxırdı:

– Sakit ol, Yox. Hər şey yaxşıdır. Deyəsən, yuxu görürdün, hə?

Yox yerindən sıçrayıb Varı qucaqladı:

– Sən burdasan. Yanımdasan. Yenə qardaşımsan, Var!

Var heç nə anlamadan Yoxa baxdı, baxdı və onu qucaqladı:

– Mən harda olsam da, yenə qardaşın olacam.

Bax burda göydən üç alma düşdü. Biri mənin, biri sənin, biri də nağıl sevənlərin.

*Əli Əl-Şəlah (İraq)* 1965-ci ildə Babildə dünyaya gəlib. Bağdad Universitetinin ədəbiyyat fakültəsində ərəb dili ixtisası üzrə təhsil alıb. Ərəb-İsveçrə Mədəniyyət Mərkəzinin rəhbəri, Beynəlxalq "Əl Mutennebi" Şeir Festivalının direktorudur. "Babilli Əli", "İmzalar" adlı kitabları oxucular tərəfindən rəğbətlə qarşılanıb.*



Əli ƏL-ŞƏLAH

**Mən günbatana boylanan adamam**

Yaralarıma "ölkə" adı vermişəm
və o ölkənin üstündən
tapdalaya-tapdalaya keçirəm o yan-bu yana...

Səhəri "axşam" adlandırıram,
çünki havanın işıqlanmasında
heç bir məna görə bilmirəm.

Harda uşaq görsəm,
atasının adıyla çağırıram.
tarlaları "torpağın bərəkətinin ovçusu"
adlandırıram.
Boş torpaqlar tarlaların günahının etirafıdır.
Dünənimizdə qalan insanlar
ətrafımızı tutmuş qələbəliyin daş-qaşlarıdır.
Ağır olduqları üçün onları
özümüzlə bu günə gətirə bilməmişik.

Bu gün gəlib çıxanlar isə
yolu yarımçıq qırılanların ölməsinin nəticələridir.
Həyatımızda daim var olmasını istədiklərimiz
vaxtsız getdikləri üçün təzə insanları tanıyırıq
və elə buna görə də ilğım
həqiqətin və illüziyanın süqutunun adıdır.

Bu süqutları mən
"xarabalıqlar" adlandırıram
və mənim ilğımım xarabalıqları
abad eləməkdə acizdir.

Həyata təzə atılanlar
bir də yeniyetmə kimi doğulurlar.

Belə qərara gəldim ki,
bütün xalqların tarixi işğallardan sonra dəyişir.
Onlar tarixin ən köklü xalqlarıdır.
Sivilizasiyalar isə
ucuz əbədiyyət yalanı satanların cübbəsidi.

Tiranlar bir başqa qurbanların xilasedicisidir,
digər qurbanlar isə yeni tiran tələşlarının adıdır.

Peyğəmbərləri belə adlandırıram:
"Səmaların naləsi".
Əzablarımızın və qoruya bilmədiyimiz
saflığımızın sevgilisi.
Müqəddəslər sanki fikir sürümüzün çobanıdır .
Onların mesajları isə
Müqəddəs Tanrının poeziyasıdır.

Mən hər başlanğıcı geri dönüş adlandırıram –
hər geri dönüş utancaq bir başlanğıcdır.

Qadınlar isə
başqalarında maraq oyatmaq üçün
kimisə sevənlərdir.

Haçan ki sizinlə danışmaq istəmirəm,
onda suya qərq olmuş qədər
köhnə sözlərlə danışıram.
Sanki duyğular da dilə gəlmək üçün
müqəddəs bir səs axtarırlar.

Siz yalnız fəryad edəndə
qorxularınızı görə adlandıra bilirəm.

Tanıdığım bütün kişilərə də bir ad verirəm,
sonra o adı tamamilə inkar etməli oluram,
sonda isə həmişə ağlayıram.
Mən günbatımının ağuşuna düşmüş bir adamam
və hər gün batanda ağlayıram.
Halbuki bir dəfə ürəkdən gülənlər
başqa nə ilə qidalana bilər ki?!

Sənin üçün başqa bir dil yaratmışam:
qorxulardan hörülmüş bir dil.
Ailəsiz qalmış yetim dili ilə danışıram səninlə,
çünki sən ölümcül bir lənətsən.

**Xəyanət**

Şübhələrimi dörd tərəfə yaymışam,
vəsvəsələrimin izinə düşmüşəm,
ağzım zəhər dadır,
sular gəmirir beynimi.

Bu, açıq-aşkar xəyanətdir,
halbuki sən xəyallarını və cismini
bağrıma basdığım sonuncu qadınsan.

Onunla birgə
başqasının sinəsi üzərində
gecələyirdi xəyanət.

Ah, köhnə dost,
çörəyimizdə qorxu cücərdi.

Bu evin uşağı belə
bir gün belə atasına oxşamadı,
heç yaxın qonşudan da
əsər-əlamət yox idi onda.

Xəyanət... maskan düşərsə,
əbədi dəliliyə düçar olmaq kimidir.

Xəyanət səni ayaq üstdə saxlasa da,
yeridikcə axsadığından təşvişə qapılan
ayaq kimi insanda həyəcan oyandırır.

Ləyaqətsiz bir cəmiyyətdə
sizin yerinizi tutmuş
qəhrəman axtarırsınızsa,
elə budur əsl xəyanət.

**Karvan**

İtlər hürür,
səslərini eşidirəm...

Amma səhradan keçən
karvan gözümə dəymir.
Amma itlər hürür...
İtlər...

**Yadlaşma**

Biz tək deyildik,
amma yalnız idik.

Geniş zəmilər tərəfindən oğurlanmış
bədənimizə toxunan
sonuncu hava kimi idik.
Bu zəmilər içimizdə
yaşamaq üçün təmiz hava qoymadı.
Biz bu zəmilərdə tək deyildik.

Bu dağlar sirrimizin yarısını
sinəsində saxlayıb.
Amma onlar da olduqları kimi qala bilmədi.
Sözləri ağzımdan alıb
dörd bir yana daşıyan çaylar
indi susuzluğa təslim olub.
Coşqun axıntılar öz sərhədlərini görüb.
İndi bütün göllərimiz, çaylarımız üçün
göz yaşlarımız yeganə çarədir, deyəsən.

Biz tək deyildik,
amma zaman yorğundur.
Artıq həyat yolundakı planlarımızda
dərin mənalar axtarmaq üçün qayğılanmırıq.

Deyilməmiş sözləri də görməyə öyrəşmişik,
danışılmamış hekayələri eşitməyə,
boğazda düyünlənib qalan
səsləri qucaqlamağa…
Biz tək deyildik.

Öz-özümlə danışdım,
şübhə ilə bədənimdən soruşdum:
“mən gördüyümü sən də görürsən?”

Mən könlümdə gəvəzəlik elədiyimi görürəm,
sənin heçmi gözünə sataşmır?

Soruşdum: "Dünəndə nə unutduq?"
Soruşdum: "Bu gündən nə qazandıq?"
Sonra öz-özümə cavab verdim.

Gələndə tək deyildik,
amma artıq yalnız qayıdırıq.

**Məğlubiyyət**

Mənə maraqlıdır,
kim qabağına çıxa bilərdi ki
tarix yazmış ordunun?!

Cavabı bilinmir,
çünki tarixi yalançılar yazır.
Və hətta dillər belə
irs oğruları ilə doludur.

**Əl Həllac[1]**

Sürgündə yuxu görəndə
insan Vətənə yaxınlaşır.

Bəs bizi
düşüncələrimizin yolundan
kim ürkütdü?

Ah, sən özün,
qorxu ilə barışmısan?
Cavab ver mənə!

Dünyadan köçmüşlərin adları,
ünvanları,
işarələri
bizim hekayələrimizin
final qapılarında rəqs etdi.
Və bu qabaran sularda
mən də çarmıxa çəkilmiş bədənimi gördüm.

**Aludəlik**

Nigaranlıqla dərindən nəfəs aldım,
uçaraq geniş çöllərə səsləndim.
Düşündüm, bəlkə, bu yolla
fəryadım sənə çata.

Sənə olan həsrətim
okeanların suyunu da qurutdu.

Şeirlərimdə yadların cənazəsini qucaqladım,
bircə sənin həsrətinin faciəsini
sözlərlə ifadə edə bilmədim.
Dərdlərim də sənə həsrətdir,
eşqin bir yana,
güldanıma qoyduğun güllərin də hələ solmayıb.

**Babilsayağı dəfn mərasimi**

Bu kimin cənazəsidir?
Bir tərəfdə müharibə meydanına çevrilən,
o biri tərəfdə canını götürüb qaçanlar ölkəsi.
Bu kimin cənazəsidir?
Allahım, bəlkə, sən deyəsən,
bu kimin cənazəsidir?

**İlğım**

Bu ruh bir məzardır,
min qapısı var onun.

Haçan qapıya çatmağa addım atsam,
cırıldadı, – yoxluğumu gizlətdi.

Beləcə, ikimiz də yorğunuq.
Oy, daha mənim üçün
bu ruha çevrilməkdən başqa
bir seçim imkanı yoxdur.

Bu göz yaşlarım mənim ilğımım olub –
heç yanı görə bilmirəm.

**Özümü sınayıram**

Öz dünyama səyahət edəcəm
və ürəyimin qapısını döyüb
qapı ağzında özümü gözləyəcəm.

Əgər bədənimlə ruhum arasındakı hasarlar
bir az alçaq olsaydı,
bəlkə, özümə qonşu olardım.

Məsələn, bu halda əmim anamın nəyi olacaqdı?
Özüm özümün əmioğlum olacaqdım?

[1] *Əl Hallac (858-922-ci il) Sufi təriqətinin güclü öncüllərindən olan şair.*

Onda Toni Bleyrdən viza dilənməli idim,
əgər Şekspiri orijinaldan oxumaq istəsəydim?

Əgər öz dünyama girmək üçün
bir qapı tapa bilmirəmsə,
deməli, o qapını könlümdə axtarmalı olacağam.
Əgər ürəyim istəyən kimi biri ola bilməsəm,
onda özüm olmağa çalışacağam.

**Əvvəlki ömürlər**

Mistik baxışları olan,
işin gərginliyindən əhvalı pozulmuş
nigaran bir kreslo
iş yerinin qapısı ağzında dayandı.

Sükut onunla birgə
pillələrin önünə kimi gəldi.

Sehrli baxışları olan
bu narahat kreslo yenə
ağlayır
danışa bilməyəndə...

**Qadın**

Ürəkli ol,
de görək nə istəyirsən?
O, bir qadındır,
bütün qadınlar kimi.

O sənə bəxş edilmiş bir lütf illüziyasıdır.
Fərz elə, cəhənnəmdən gələn səadətdir.

Onun mehrabına diz çöküb,
ayaqlarını qucaqlayıb dua edirsən,
onun üçün Tanrıdan çox şey diləyirsən.

Ah, dualar aləmi!
Bir qadın
bütün qadınlar kimidir.

**Sürgün**

Heç kim yaşamalı olduğu
zamanda doğulmamışdı.
Heç kim öz yerində deyildi.
Unudulmuşlar arasında
Unudulmağa layiq heç kim yox idi.

Bir gecə dan yeri söküləndə
fəryad eşidildi:
Atasızlar qışqırırdı:
Bəs doğulmayanların atası hardadır?

**Sonsuz suallar**

A

Ata ölüb,
oğul da ölübsə,
deməli, bir ev ölüb.

B

Su ölübsə,
ot da ölüb,
səs də ölüb.
Bəs ölüm özü haçan öləcək?

**Həqiqət**

– Səmanın da üzünü qaraldan
bu qurbanları gördünmü?
– Xəbərləri eşitmisənmi?

İki şəhid xəbəri –
bir qədər sonra
cəmi bir saniyəlik
salamlayacağıq onları.

**Yalnızlıq**

Bir qadınım olmadı –
həyatın səsiylə sevişdim
xəyal buludundan düzəldilmiş yataqda.

Bu yataqda düşündüklərimin
hamısı atamdır,
hamısı anam,
hamısı nəslimin davamçılarıdır.
Ölməzdən qabaq hamısıyla
tələsirəm görüşmək üçün.

**Bəsit zaman**

Ürəyində qoruduğu
yarasına toxunma,
içində partlamağa hazır
bomba kimi yatır yarası.

Onun mərd ürəyində qürur uyumur.
Eşq köhnəlsə də,
unutmaq üçün edilən dualar
qəbul olmur.

O, bütün ruhu ilə başqalarından fərqlənir.
Onu yerindən tərpətmək, sarsıtmaq olmaz.
O əyilməz,
bütöv bir qəbilə əyilsə də.

Yanan odun közləri kimi alovlu adamdır,
Onun eşqinin közərtisi belə
aşiqlərin yoluna işıq salır.
Onun yaraları da müqəddəsləşib, –
gözəl və qürurlu bir qadın tərəfindən.

Zaman çox bəsit məna kəsb edir
bu pak adam üçün.
Xəyalları ilə ölməzlik qədər
böyük dünyalarda yaşadığı üçün.

**Ziddiyyət**

Dirilər ölülərə nə deyə bilər ki?
İki dünya arasındakı yollar itib,
kim o dünyadan biriylə haqq-hesab çəksə,
səsi əks-səda kimi geri qayıdır,
bu azmış kimi,
vecsiz bir sıxıntı da ürəyi bürüyür.

Adların xaosu...
Heç kimin adı olmasa,
bəlkə, hamı özü ad qazanmaq üçün
düzgün yaşayar.
Qullar da azadlıq uğrunda
mübarizə aparmadan
azad olanda özlərini eyni cür hiss edir.
Dirilər, torpağın içinə çəkdiyi nəfəsik,
ölülər isə nəfəsi gedib-gəlməyin sonudur.

**Ana**

Yaradılış boğçasında hardan peyda oldun?
Hansı gildən tökülüb xəmirin?
Olmaya Tanrı bütün çiçəklərin gözəlliyini
bir bağçada toplayıb?
“Toplayıb. Deməli, beləcə yaranmısan?”
Kim səbəbini deyə bilər,
bayram niyə bircə gündə bitir?
Sən də bayram kimisən,
bir gündə başa çatırsan.
Və bayram kimi İlahinin seçdiyi günsən.

**Tiranlar**

Həmin tiranlar
nağılın göydən üç alma düşən
yerində yuxuya getdilər.
Bəsit fəhmləriylə vəhşi təbiətə ayaq açdılar.
Sən isə onsuz da axırda
tənhalığın girdabına yuvarlanacaqsan.
İndisə mərmər illüziya kimi donub qalmısan.
İndi mənə de görüm... Niyə?

Getdiyin hər yerdə gücsüzlərin
yaxasından yapışıb sürütlədin.
Hamını yarı yolda qoyub
milyon yerə səpələdin... Niyə?
Olmaya bədbəxt bir təsadüf nəticəsində
Tanrının nəzərindən yayınacağını düşündün?
Şəninə səslənən mahnılardan ötrü
fağırları kömür kimi yandırdın.

Xəritələri yenidən çəkməyi
və bu boş səhraları
gələcək nəsillərimiz üçün
oyun meydançasına çevirməyi
öz öhdənəmi götürdün?

Bəs elə bilirdin ki,
həyat küləklə rəqs etmək kimi bir şeydir?
Amma tarix
narkomanların hallanması sayaqdır bəzən –
üfüq parlaq görünür, amma əslində,
səni toz buludu özünə sarı çəkir.

Saxta sevgilərə çox arxalandın,
ah, dostum, halbuki yetimlərin
başına sığal çəksəydin, əbədiyyəti qazanardın.

Görəsən, ürəyin yuxaya dönə,
ya da qan ağlamaq istəyərdimi,
əgər casusların son nəfəslərini sənə versəydilər?

Dünyaya qarşı bu düşmənliyə kim son qoyacaq?
Ortadakı bu qan-qadanı kim aradan qaldıracaq?
Haçansa şəninə oxunan mədhiyyənin
bir gün ağı olacağı heç ağlına gəlmişdimi?

İndi haçansa
kiminsə əleyhin qalxan barmaqlardan sallanan
küdurətin dərinliyini duyursanmı?
Bəs, bu axşam günəşi kimi batanların
övladlarının xəyallarını düşüdünmü?
Cansız bədənlərindən
divarlar hördürtdüyün günahsızların
ailələrinin naləsinə qulaq verdinmi barı?

Bu təmiz suları, ağ göyərçinləri,
görüş yeri olan xurma ağaclıqlarını,
bir məzarlıq xatirə yerlərinidəmi
sən sildin Yer üzündən?
Sevinclərini başlarına uçurduqlarının
adlarını barı xatırlayırsanmı?

Bunları kim bağışlaya bilər, dost?..

Kim oğullarının məhbəsdə keçirdiyi fəsilləri
analara qaytara bilər?
Bu qədər qanı kim təmizləyər?
Səni bu qədər qanın arasında
kim axtarıb tapa bilər?
... Əslində, heç kim
belə bir qəhrəmanlıq göstərməz də.

Bu qanın ağırlığı qətran qarası qədərdir,
bu günahların peşmanlıq etirafı
bir rahib üçün belə çoxdur.
Bir xalqı qətl edəni Tanrı da bağışlamaz...

Odur ki, uzaq dayan səmamızın sərhədlərindən,
bağçalarımızdan, xurmalarımızdan əllərini çək,
günəşimizdən, çörəyimizdən, buğdamızdan...

Heyvanlarımızın da aldığı havadan uzaq dur,
onda yenidən inanarıq ki, sevincdən mələşirlər.
Get!

Hamımız sənə qarğış elədik...
Bəli, əlbəttə, qarğış elədik...
Bəs nə bilmişdin?

Əliyalınların ah-naləsi
Tanrı dərgahında asanca qəbul edilirmiş,
eşit və bil,
biz sənin əleyhinə dua etdik.

Burada ucalan hər səs
sənə qarşı bir dua üçündür.
əsən külək... sənə qarğışdır.
qabaran sular... sənə qarğışdır.
Bu yeniyetmə qızların simaları...
sənə qarğışdır.
Balacalarımızın sahibsiz oyuncaqları
sənə qarğışdır.
Səhərin gəlişi,
axşamın düşməsi,
quşların oxuması,
vəhşi təbiətin,
çiçəklərin davam edən həyatı,
hətta əxlaqsız qadınlar belə sənə qarğış tökür.
dənizdəki yosunlar da səni qarğıyır.

Bəs kim bağışlaya bilər belə insanı... dostum?

Biz səni, – Tanrının hökmündən
və xəbərdarlığından qorxmayanı,
elə Allahın imtahanına təslim etdik.

Biz hamımız Rəşid ola bilməyən Harunun
əllərində
çarmıxa çəkilən Məsih olduq.

İndi mənə de görüm,
səbəb olduğun faciələrin
şəxsən mən öz payıma düşəni üçün
niyə səni bağışlamalıyam?

İndi mənə de görüm,
bu gedişatın sonrasını görməmək üçün
qəflət yuxusundan ayılmamaq israrının səbəbi nə
idi?
Bu xalq artıq yuxularda da görüləsi halda deyil.

Məndən başqa hamıya cavab ver,
ancaq mən izahat istəyirəm.

**İşləməyən qanunlar**

Sanki məni görəndə
qapının kandarı da ağladı.
Onun üzündən bu sözləri oxudum:
"niyə gəldin?"

Üzüm dünyanın gərdişinə qapılmışların
sərsəri insanın üzüdür.
Məni bilmədiklərim yox,
bildiklərim azdırdı yolumdan.
Aynada gördüyüm insanı inkar elədim,
üzüüstə yerə çırpılanda ayıldım,
Qorxularımı səngitmək üçün
yenidən üz tutdum bu qapıya –
hələ içəri keçməmiş
bu kandarıca ev bildim.

Beləliklə, sən...
Bil ki, bizim evimiz
bir ilğıma tuş gəlib
yalnız küləklərlə özünə qayıda bilir.
Qadınların üzündəki o günah ləkəsi
soyuğun, qumun və aclığın meyvələridir.

Sənsə ölümdən ən uzaq yerdə
kütlələri ölümə səsləyirsən.
Sən zülmət saçan bir aydan nurlanan
meşənin ən zəif işıqlı yolu,
sən ev sahibinin əl-qolunu
bağlayan oğrunun səxavəti qədər,
hər birinin öz adı olan
fahişələr ordusu qədər də deyilsən.

Özündən əvvəlkilərdən fərqlənən
bir yolgöstərən üçün
bir masa və saman çöpündən
mahnılar düzüb-qoşdular.
Onun söhbətlərinin qalıqları da
ona itaət edənlər kimi yerlə bir oldu.

Qulaqlarımızla səma arasında gördüklərimiz
ancaq bu uca binaların uğultusudur.

Məğlubiyyətdən sonra içilən
içkinin dadını verir
şəhid xanımının
hər ay gözlədiyi təqaüdlə aldıqları.
İndi onun kişilərə qarşı arzusu
ürəyinin gölündə yellənən yataq istəyi kimidir.

Xəbər spikerinin yersiz qəhqəhə çəkib gülən,
irişən dodaqları bir anda dondu,
buz kəsildi və bir anda
dörd bir tərəf məzar çənbəri ilə əhatələndi.
Masaya dağlar qədər ağır kədər çökdü.
Son sözlər son möhür kimi oxundu.

Sonra məlum cənazə korteji arxasında
şəhidin soyundan çiçəklənənlər
əllərində bayraqlar,
dillərində şüarlar gəlib keçdi.
Növbəti nəsil belə hörümçək toru kimi toxunur,
bu şəhid adlarını uşaqları böyüdür,
o adlar yazılan küçələrdən keçirik.

Elə hey təxirə salınan “müharibənin sonu”,
təxirə salınan qələbə xəbərlərinin şərəfinə
bu adlar tarixə çevrilir.

Bu adların yolu ilə gedənlər
axmaqlıqlarını zorla təlqin edənlərin adına da
kimlikləri müəyyən etdilər.

Kəfən toxuyanlar
qorxulardan arınmış bir xristianlıq
və günahların bağışlanmasını
Tanrıya həvalə edən kilsələrin olmasını istəyir.
Bir yetimin uzun gecələrinin qorxusu isə
təyyarə səsləridir.
Onlar valideynlərinin olmamasından qorxur,
halbuki ölüləri öz züriyətləri dəfn edir.

Nəsillərin ardı gəlməsə,  hər şeydən əvvəl
bu əyləncəli söhbətlər də bitəsidir.
Bəlkə də, ən çox bunun üçün
əllərimiz saat əqrəbləri kimi göydən asılı qalır.

Sənsə ən böyük itkilərin şahidi anam,
sanki bütün kədərlərindən arınmısan.
Sənin üzündən oxunan kədərlər
Günəşin təzə-təzə çıxdığı vaxtın rəngindədir,
kitablarda isə sarı rəngdə.

Qadınlar ömrümüzdən keçirsə,
mövsümlər dəyişir.
Onlar suya da dua eləsə, müstəcəb olur...

İlanlar kürəyində səhraların duzunu,
qumunu gəzdirsə də,
mədələrində Dəclənin saf suyu var.

*Tərcümə edən:* **Fərid Hüseyn**





Elçin HÜSEYNBƏYLİ

*"Sevgi oyunları" silsiləsindən...*

# QATARDA

...Qatarla səyahət etməyi sevirəm.

Ən sevdiyim fəsil payız olduğuna görə bu dəfə də payızda yola çıxmışdım. Çiskinləyirdi. Axşamüstü dağlardan qopan külək payız yarpaqlarını perronun yanına, relslərin arasına gətirib yığmışdı...

SV, yəni iki nəfərlik kupeyə bilet götürmüşdüm. Yanımda adam olmasın deyə, ikisinin də pulunu ödəmişdim. Yanımda adam olanda yata bilmirəm. Bəlkə, elə ona görə də evlənmirdim.

Vaqon bələdçisinə də öncədən demişdim ki, məni narahat eləməsin, nəsə lazım olsa, özüm çağıracam.

Vaqon bələdçilərini tanımırsınız? Bir az mənə oxşayırlar, danışdırmasalar da, özüm danışıram, çağırmasalar da, özüm haya gedirəm, başqası üçün narahat oluram. Bu dəfə də belə oldu. Kupem bələdçinin otağına yaxın olduğundan birinci onun haray-həşirini eşitdim. Kiminsə üstünə qışqırır, vaqondan düşməsini tələb edirdi. Məcbur olub çölə çıxdım.

Bələdçi küncdə dayanmış miniatür qamətli gözəl bir xanımdan vaqonu tərk etməyi tələb edirdi.

Bu saat tərk edin vaqonu!

Qadın ovçudan (vəhşidən) qorxub küncə qısılan dovşan kimi dayanmışdı, amma əsibeləmirdi. Bu anda mən onu zərif göyərçinə də bənzədə bilərdim.

– Nə olub? – deyə bələdçidən soruşdum.

– Nə olacaq? Vaqona bezbilet (biletsiz) minib, öz yerimi təklif edirəm, razılaşmır, deyir ki, mən elə burda, ya da tamburda duracam. Elə bil bunu yeyəcəm. Hayasızlığa bax da.

Qadın ürkək-ürkək və nəzakətlə:

– Danışığınıza fikir verin! – dedi.

– Nəyə fikir verim, necə fikir verim!? Düş vaqondan! Qatarın rəisi gəlsə, ona nə cavab verəcəm!? İndi vəziyyət əvvəlki kimi deyil e! Hər şey kantroldadır!

Yadımda deyil, qadına yazığım gəldi, yoxsa gözəlliyinə heyranlıqdan idi, ya nəydi, bəlkə də, ilğım idi, yuxuydu, taleyin oyunu idi. Anidən:

Onun bileti var, – dedim.

Bələdçi nə dediyimi anladı, çünki məsələdən hali idi, biletləri ona vermişdim, qadın isə çaşdı.

O, mənim kupemdə qalacaq, – dedim.

Qadın:

– Sizin? – deyə təəccüblə üzümə baxdı.

– Narahat olmayın, – dedim, – mən öncədən iki bilet almışam. Biri sizin olsun!

Vaqon bələdçisi:

– Məllim, birdən yoxlama olsa, nə cavab verəcəm?

– Sən yox, mən cavab verəcəm, – ötkəmliklə dedim, – buyurun kupeyə, – qadına işarə elədim.

O, yerindən tərpənmədi. Bir mənə, bir də vaqon bələdçisinə baxdı. Sanki bizdən yox, özüözündən şübhələnirdi:

Qorxmayın, gəlin, – dedim.

O, çantasını sallaya-sallaya kupeyə tərəf gəldi, yenə də duruxdu. Mən kənara çəkildim və o, içəri keçdi, əl çantasını stolun üstünə qoydu, yağmurluğunu soyunmadan ətrafı seyr elədi. Mələfəni, yastığı əllədi, iylədi, sanki zifaf gecəsinə hazırlaşırdı. Mən də sakitcə tamaşa edirdim.

Sonra yatacağa oturdu. Onun yumşaqlığını, bərkliyini yoxlamaq üçün yerində yırğalandı.

O, yerini rahatlayandan sonra:

Mənim borcum nə qədərdir? – deyə üzümə baxıb soruşdu.

Gözlərinin dərinliyində itmək olardı. Qara bəbəkləri gözlərinin ağında çalxalanırdı.

– Sizin mənə borcunuz yoxdur, – dedim.

– Mən biletin pulunu nəzərdə tuturam.

– Onun pulu ödənilib.

– Yəqin, yoldaşınızın yeridir, hə? Bəs o özü hanı?

– Mən evli deyiləm, – dedim.

– Amma...

Narahat olmayın, – deyə onun sözünü yarımçıq kəsdim.

Qadın oturduğu yerdə şıltaq qızlar kimi ayaqlarını yelləməyə başladı.

Mən yerimə uzanıb kitab oxumağa davam elədim, amma fikrim qadının yanındaydı, daha doğrusu, toppuş ayaqlarındaydı və oğrun-oğrun onlara baxırdım. Üzünə baxmağa cəsarət eləmirdim. Bəlkə, çox gözəl idi ona görə, bəlkə, vurulmaqdan qorxurdum. O sanki nağıllardan düşüb gəlmişdi, bəlkə, su pərisiydi, sudan indicə çıxmışdı? Gözlərimi yumdum. Sanki yuxu görürdüm...

Mənə görə, onun 28-30 yaşı ancaq olardı. Çünki gözlərinin altı və əlləri mərmər kimi sığallıydı. Boyu 155-160 sm olardı, çəkisi də ona uyğun.

Qadın çantasından güzgü çıxarıb baxdı, dodaqlarını yaladı, üzünü o tərəf-bu tərəfə çevirdi və güzgünü qaytarıb yerinə qoydu.

– Deyəsən, siz də mənim kimi kitab oxumağı xoşlayırsınız? – üzümə baxmadan, etinasız halda soruşdu və pəncərədən çölə baxdı.

– Hə, – qısaca cavab verdim.

– Heyf ki, mən kitab götürməmişəm. Çünki çemodanımı evdə unutmuşam və düzünü bilmək istəyirsinizsə, mən qatara da təsadüfən minmişəm.

– Növbə ilə oxuyarıq, – gülümsünərək dedim.

– Bilmək olar, oxuduğunuz nədir?

– Öz kitabımdır, – dedim.

– Deməli, yazıçısınız?

– Belə də.

– Birinci dəfədir, öz kitabını oxuyan yazıçı görürəm.

– Çox yazıçı tanıyırsınız ki? – dedim və güldüm. O da mənə baxıb güldü.

– Yox, sözgəlişi dedim, elə-belə. Yəni yazıçılar da öz kitablarını oxuyur?

Kitablarımı ona görə oxuyuram ki, necə pis yazmamağı öyrənim.

O, daha heç bir sual vermədi. Amma mən ondan gözümü çəkmədim. O da hərdən mənə baxır, nəsə fikirləşirdi. Yəqin, məni təftiş edirdi.

– 38 yaşım var, – dedim.

– Mən sizdən yaşınızı soruşmadım axı.

– Əzəl-axır soruşacaqdınız, – dedim və yenə də gülümsündüm. –İstəyirsiniz, sizin yaşınızı da, peşənizi də deyim.

– Yaşımı çətin tapasınız.

– Əslində, onu tapmışam, amma məlum səbəbdən demirəm...

– Yox, mənim elə bir kompleksim yoxdur. Özüm də deyə bilərəm.

– Vacib deyil. Həkimsiniz.

Tapmadınız, – deyə güldü.

Fikir verdim ki, gözlərindən gülür, ovurdları da çalalanır.

– Müəlliməyəm, – dedi, – ədəbiyyat müəlliməsi. Sizi də tanıdım. Mən sizi tədris edirəm.

Onun bu etirafı xoşuma gəldi. Ona görə də dikəlib oturdum.

– Hə, mənə də dedlər ki, orta məktəbdə tədris olunuram, – bir az yekəxanalandım.

Susduq. Handan-hana o:

– Bəlkə, bir qədər hündürdən oxuyasınız, – dedi.

– Hündürdən oxumağı sevmirəm. Özü də öz mətnimi başqasına oxuya bilmərəm.

Onda verin, mən də bir az oxuyum.

Təəccüblə ona baxdım:

Özünüz demişdiniz axı, növbə ilə oxuyarıq, – dedi və güldü.

Gülüşü cingiltili və əfsunediciydi. Düzü, hələ indiyə kimi məni cəlb edən belə bir qadın olmamışdı. Bəlkə, bu, yuxuydu, ilğım idi, ya taleyin oyunuydu... Bəlkə, vurduğu ətrin rayihəsiydi...

Kitabı ona uzatdım. O, zərif, göyərçin əlləriylə kitabı ehtiyatla məndən aldı, sanki güzgü götürürdü və yerə salmaqdan ehtiyat edirdi.

Mən yenidən yerimə uzandım.

O, kitabı oxuyur və haldan-hala düşürdü. Gah gülümsünür, gah da qəmlənirdi.

Başını qaldırıb mənə baxdı və:

– Yaxşı yazırsınız, – dedi. – Xüsusən də bir fikriniz xoşuma gəldi.

Nə fikirdi elə? – yenə də dikəldim.

O cavab vermədi. Yəni cavab verməyə imkanı olmadı. Qapı döyüldü. Durub açdım. Bələdçiydi, yanında da paqonlu, kepkalı biri vardı. Qatar rəisi olduğunu dərhal anladım.

Qatar rəisi:

– Mənə dedilər ki, sizin kupedə biletsiz sərnişin var.

– Bizim kupedə biletsiz sərnişin yoxdur, – dedim, – biletlər bələdçidədir.

– Amma biletlərin hər ikisində sizin adınız yazılıb.

– Düzdür, biletləri mən almışam.

– Amma onun adı olmalıdır, – deyə qadını göstərdi.

– O, mənim arvadımdır, – anidən dedim.

– Kəbin kağızınız var?

Yox, biz kəbini qatardan düşəndə kəsdirəcəyik.

Qatar rəsi ağzını açıb nəsə demək istəyirdi ki, özümü təqdim eləməyə məcbur oldum. O, qınayıcı nəzərlə bələdçiyə baxdı və sağollaşıb-eləmədən getdi. Mən də qapını bağladım. Onların, yəni qatar rəisinin səsi aydınca eşidilirdi:

Axmağın biri axmaq, əvvəlcə öyrən, sonra mənə de də!

Bələdçi də özünə bəraət qzandırırdı:

– Rəis, mən hardan bilim e?

Canına azardan!

Onların səsi kəsiləndən sonra qadın:

– Siz niyə elə dediniz? – deyə təəccüblə üzümə baxdı. Mənə elə gəldi ki, onun gözləri yaşarıb.

– Nə bilim. Nəsə özümdən uydurmalıydım da.

– Amma mənim xoşuma gəldi, – dedi və gülümsündü.

Doğrudan! – deyə qəhqəhə çəkdim, – zarafat edirdim də.

Deyəsən, kədərləndi. Çiynini çəkdi. Kitabı qatlayıb özümə qaytardı və yenidən pəncərədən çölə baxdı.

– Bilrisiniz, mən belə zarafatları xoşlayıram. Bəlkə də, bu, heç zarafat deyil...

O, üzünü mənə tərəf çevirdi və güldü...

Kefim durulmuşdu. Özümdən asılı olmayaraq dil qəfəsə qoymadan danışırdım. Heç o da məndən geri qalmırdı...

Yatmaq vaxtı gələndə çölə çıxdım. O, yerini rahatlayandan sona qapını döyüb içəri girdim.

Gənc xanım mənm də yerimi açmış və öz yerinə girmişdi.

Nə əziyyət çəkirdiniz? – dedim.

Gülümsündü. Bəlkə də, bayaqkı ər-arvad sözümə işarə vururdu...

Səhər yuxudan oyandıq, daha doğrusu, o oyandı. Mən yatmamışdım ki. Səhərə kimi ona baxmışdım. O da səksəkəliydi. O tərəf-bu tərəfə çevrilir, hərdən örtük üstündən sürüşür, bədəninin bir hissəsi açıq qalır və çöldən düşən işıqların haləsində cəzbedici görünürdü. Düzü, bunu qəsdən edirdi, ya yox, bilmədim...

Birinci o, çölə çıxdı, əl-üzünü yuyub qayıtdı. Makiyajsız da gözəl idi. Mən də ayaqyoluna gedib qayıtdım. Mən gələnə qədər özünə sığal vermişdi və qapıya tərəf baxırdı, sanki məni gözləyirdi, üzü gülür, gözləri parıldayırdı.

Qəfildən:

Növbəti dayanacaq mənimdir, – dedi.

Təəccübləndim və nə edəcəyimi bilmədim.

– Elə bilirdim ki, siz də mənim kimi sona qədər gedəkciniz, – təəssüflə dedim.

– Mən də elə bilirdim, amma düşməliyəm. Sevgilim hardasa buralarda məni gözləməlidir, – sevinclə dedi.

“Sevgili” sözünü eşidəndə çaşdım. Beynimdə o qədər xəyallar qurmuşdum ki.

– Niyə fikrə getdiniz? – yenə də gülümsündü.

– Sevgilinizi qısqandım, – mən də özümü o yerə qoymayıb gülümsündüm. Amma gülüşlərimiz fərqliydi: onunku dürüst, mənimki istehzalıydı, yəni taleyin ironiyası...

O heç nə demədən, gülümsünə-gülümsünə sağollaşdı, çantasını əlinə alıb qatardan düşdü və sanki özüylə ruhumu apardı...

Səfər ərzində bircə dəqiqə də onu unutmadım. Onun gülüşü, qara gözləri, ala-qaranlıqda parlayan dərisi yadımdan çıxmırdı. Bu, bir yuxuydu, ilğım idi, ya taleyin oyunuydu, bilmədim...

Səfərim başa çatdı və geri döndüm. Yenə də çiskinləyirdi. Yenə də külək payız yarpaqlarını ətrafa səpələmişdi...

...Birdən onu gördüm. Yağışın altında dayanıb mənə baxırdı. Çətirsiz-filansız. Üst-başı əməllicə islanmışdı. Bir-birimizi aralıdan tanıdıq. O, mənə tərəf yüyürdü və qarşımda dayanıb gülümsündü. Saçlarından yağış damırdı...

– Bu siziniz? – deyə təəccüblə soruşdum. O da gülə-gülə başı ilə təsdiqlədi. – Sevgilinizi qarşılamağa gəlmisiniz?

– Hə!

– Bəs sevgiliniz hanı?

O, mənim qarşımdadır, – dedi.

Çaşdım.

– Bəs...

– Mən onu axtarmağa çıxmışdım. Tapandan sonra qatardan düşdüm. Necə yazmışdınız? “İnsanlar xoşbəxtliyini vağzallarda tapır, vağzallarda da itirir...”

Bu nədir, taledir? – deyə məşhur pritçanın sözlərini pıçıldadım.

O da eyni pritçadakı cavabı verdi:

– Yox, bu, sevgidir, – dedi.

Mən onun qara gözlərinə uzun-uzadı baxdım, sonra qucaqlayıb dodaqlarından doyunca öpdüm: ilğım kimi, yuxu kimi, taleyin oyunu kimi...

**Noyabr, 2023**

# SSS: SEYRAN SƏXAVƏTLƏ SÖHBƏT



*O, sözün də, insanın da safını sevir. Azərbaycan ədəbi dilinin normalarına xələl gətirən yazılar onu xəstə yatağına belə sala bilir. Müdrik zarafatlarına görə isə onu çağdaş günümüzün Molla Nəsrəddini adlandırmaq olar.*

*Azərbaycan ədəbiyyatının Seyran Səxavəti ilə söhbətimizə ustad yazıçının uşaqlıq illərilə bağlı xatirələrdən körpü saldıq.*

**– Seyran müəllim, doğrudur ki, ilk şeirinizi rus dilində yazmısız?**

– Şayiədi. Bizim millət şayiə janrını xoşlayır. Hansısa informasiyanı alır, o informasiya onu doyurmayanda, böyür-başını şayiə janrında tamamlayır. Şeir rus dilində deyil, sadəcə, rus sözləri var içində. Rus qızına yazmışdım o şeiri, rus dili müəllimimizin, Lena müəllimənin qızıydı. Kənddəki bütün qızlardan fərqlənirdi. Özünə sığal çəkirdi, saçlarına tumar çəkirdi, lent vururdu, olurdu gözəl. Bütün oğlanlar da onu sevirdi. Bizim qızların ağlına gəlmirdi özlərinə sığal çəksinlər. Mən də 3-də, ya da 4-də oxuyurdum, dəqiq yadımda deyil.

Bizim torpaq da ki güclü, yeməli torpaq! Ayağımız torpaqda, başımıza da gün vurur – Qarabağ günəşi! Düzdü, belə coğrafi termin olmasa da... Orda oğlan uşaqları çox tez ayılırdı. Çox tez cücərirdilər. O cücərənlərin içində, yəqin, mən də olmuşam. Rus dili müəlliməsinin qızını sevənlərdən biri də mən idim. O vaxt rəhmətlik anam Füzuli şəhərindən kəndə gəlin gəlmişdi. Kənddə iki kitabxana vardı: biri kolxozun kitabxanası, biri anamın kitabxanası. Anam bizim kəndə çox şeylər gətirmişdi. Kənddə şoraba nə olduğunu bilmirdilər. Anam onlara öyrətdi. Mürəbbə nədir, bilməzdilər. Uzaqbaşı tutdan “irçal” deyilən şey var, onu bişirərdilər. Anam müəllimə idi, rus dilini çox gözəl bilirdi. Ondan iki həftə aralıqla üç söz öyrəndim. Bir gün soruşdum ki, “mən” nə deməkdir? Dedi “ya”. Bir həftə sonra, anam ilk xəbər aldığım sözü unudanda soruşdum ki, “səni” nə deməkdir? Dedi, “tebya”. Bir həftədən sonra da “sevirəm” sözünün mənasını öyrəndim.

**– Bu minvalla “əsas sözlərin” mənalarını öyrənmiş oldunuz...**

– Hə, əsas sözləri öyrəndim və kolxozun həyətində ot tayasının yanında rus dili müəlliməsinin qızı gəlib keçəndə tutdum onu. Dedim: “Ya tebya lyublyu”. O da qayıtdı ki, net.

Gəldim evə, anamdan ümidlə soruşdum ki, “net” nə deməkdi? Dedi, “net”, yəni yox.

**– Həyatınızın ilk rədd cavabını aldınız beləcə...**

– Ay sağ ol. O sarsıntıdan iki bənd şeir yazmışdım.

İndiyə qədər yadımdadır:
Sizdən bir cavab istədim,
Rusca mənə “net” dediniz.
Saf eşqimi lağa qoyub,
Hərdən “privet” dediniz.

Amma düşünmədin, gözəl,
Gördüyün iş necə işdi?
Mən biləni, anan sənə
Rusca layla deməmişdi.

**– Şeiri kiçik yaşda yazsanız da, hissiyyatınız güclü olub. Xüsusilə son misra çox təsirlidir...**

– Hə, yəni rusca yazmamışam, obyekt özü rusca olub.

**– Deyirlər, kənd uşaqları sevəndə gözəl sevir, şəhərdə böyüyən uşaqlar belə dəli-dolu sevməyi bacarmır...**

– Kim deyibsə, düz deyib. Şəhər çox yekrəngdi. Şəhərdə nə var? Ancaq yekrəng evlər, küçələr, asfalt, avtobuslar, trolleybuslar və başqa maşınlar. Şəhərin atributları bununla da qurtardı. Amma kənddə nələr yoxdu. Çinarlar, dağlar, dərələr, təpələr, bulaqlar, meşələr, çəmənliklər...

**– Bütün bunlar adamı şair edir...**

– Elədi. Şəhərdə hər yerin öz adı var da, düzdü? Şəhər İcra Hakimiyyəti tərəfindən adlandırılıb. Kənddə icra hakimiyyəti-filan yox idi, amma hər yerin öz adı vardı. Məsələn, Çirişli dərə. Orda çiriş bitirdi. Qaraquzey. Arazölən, Taxtalı. Bütün bunlar kənd adamını yerə- yurda doğma edirdi. Hər kəs elə bilirdi ki, kənd onun özününküdür. Şəhərdə yaşayan adam heç vaxt şəhəri özününkü hesab eləmir, çünki şərik çoxdur.

Mənə bir dəfə dedilər ki, niyə sən çox vaxt gecələr işləyirsən? Dedim, çünki gecələr bəşəriyyətin yarıdan çoxu yatır, dünya daha çox mənimki olur.

**– Şəhərə özünü yad hiss edənlər, şəhərin özünə yad hiss etdiyi adamlar, yəqin ki, bunun xiffətini çəkir.**

– Bunun çox qısa cavabı var. Gözünü şəhərdə açan, ömür boyu şəhərdə yaşayan adam kəndə ezam olunsun – 10 illik, 15 illik. O hansı dərəcədə kəndçi ola biləcəksə, şəhərə gələn kəndçilər də o qədər şəhərli olacaq. Bunun cavabı budur, özü də mütləq cavabdır ha, başqa variantı yoxdur.

**– Siz bir ifadə işlətdiniz, dediniz, "yeməli torpaq". Kənddə doğulan yazıçının ən böyük gücü torpağı hiss etməyidi. Şəhərdə doğulan yazıçı bunu hiss edə bilməz.**

– Düzdür, yenə özümdən sitat gətirəcəyəm, aşıq gördüyün çağırar... Bir dəfə Novruzqabağı televiziyada çıxış edirdik, qabaqdan da torpaq çərşənbəsi gəlirdi. Dedim, ümumiyyətcə, Novruz bayramı şəhər adamlarına aid deyil. Aparıcı da yaxşı bir qız idi, deyəsən, bakılı idi. Gördüm, mısmırığını salladı. Dedim, qızım, incimə e, torpaq çərşənbəsi var, elədir? Bəs asfalt çərşənbəsi necə, var? Dedi, yox. Dedim, day nə deyirsən?

(gülüşmə).

Torpaq enerji mənbəyidir. Mənim üçün günəşdən də güclü enerji mənbəyi torpaqdır. Torpaq zəhər kimi istiot da yetişdirir, bal kimi əncir də. İşə bir bax! Məkan, zaman bir, dad- tam başqa. Günəşdə biz bunu hiss etməmişik. Demək, torpaq günəşdən də güclü enerjiyə sahibdir.

Torpağın bir üstünlüyü də var. Günəş yandıra, məhv edə də bilir, amma torpaq mərhəmətlidir. Torpaq kimi yandırıb indiyə qədər?

*"Baş redaktora süd
apardım ki, içib əmələ gəlsin"*

**– Seyran müəllim, o vaxt sizə məsləhət görüblər ki, Qızıl Meydana, Kremlə, Lenin babaya şeir yazasız. Nəzərə aldınızmı?**

– Deyim də. Bizim rayonda "Qızıl Araz" qəzeti çıxırdı. Allah rəhmət eləsin, çox möhtəşəm bir baş redaktoru vardı, Firuz Atakişiyev. Qələmi olan adam idi. Rus qızına yazdığım şeiri apardım, oxuyub güldü. Qəzet şəhər mərkəzində yerləşirdi, bizim kənd – Yağlıvənd kəndi isə Ağdam – Füzuli yolunun kənarında. Arada 7 km yol var idi. Ya atla gedirdim, ya eşşəklə. Redaksiya da məsciddə yerləşirdi. Özümlə də bir litr süd aparmışdım ki, bu arıq, cansız kişi içsin, bir az əmələ gəlsin.

**– Balaca yaşınıza uyuşmayan çoxbilmişlik...**

– Hə, görünür, o vaxtdan canımızda varmış, mən bunları sonradan dərk edirəm e. O vaxtdan danışıram, amma bu vaxtın adından. Rus qızına yazdığım şeir bir az antisovet şeiri kimi çıxırdı. Dedi, bala, Şamama Həsənovanı tanıyırsan? Şamama Həsənova da SSRİ Ali Sovetinin deputatı idi, iki dəfə Sosialist Əməyi Qəhrəmanı... məşhur adam idi, bir sözlə. Dedim, tanıyıram. Dedi, hə, bax, ondan yaz, partiyadan yaz, Lenindən yaz, Qızıl Meydandan yaz. Mən də çap olunmaq istəyirdim. Şamama xanımdan yazmadım, baxmayaraq ki, onu bir dəfə görmüşdüm. Gördüyümdən yazmadım, amma görmədiyim Qızıl Meydandan, görmədiyim Moskvadan, görmədiyim Lenin "babamdan" yazırdım. Yəqin, bunlar da ürəkdən

gəlmədiyindən baş redaktor oxuyub deyirdi, get bir az da yaz.

**– Siz bu haqda ürəklə və əlbəttə ki, yumorla söhbət açırsız. Hərçənd şairlərin çoxu Leninə şeir həsr etdiklərini danırlar.**

– Mənim yaşıdlarımdan da bunu danan var, onlar saxtadırlar. Özlərinə də deyirəm. Deyirəm ə, yazmışıq da. Boynuna almamaq nə deməkdir? Bilirsən, bu nəyə oxşayır? Bir qatarda gedirik, sən beşinci vaqondasan, mən onuncu vaqonda. Nə sən çalışa bilərsən məndən sürətlə gedəsən, nə də mən çalışa bilərəm mənim vaqonum səninkindən sürətlə getsin. Sürətin vahid və mütləq olduğu məqamlar və məkanlar var.

**– Seyran müəllim, siz kifayət qədər populyar şair olmusuz. Bəs siz şeirə nə vaxt inanmaqdan vaz keçdiniz ki, nəsr yazmağa başladınız?**

– Yox, bu şeirə olan inamsızlıqdan gəldiyim nəticə deyil. Ən azı ona görə ki, şeirin də, nəsrin də materialı sözdü də. Sadəcə, mən 4-5 il heç nə yaza bilmədim. Hətta Məmməd Araz “Ulduz” jurnalında məqalə yazmışdı ki, Seyran Səxavət niyə ədəbiyyatdan qaçaq düşüb? Mən həm ölkədən getmişdim, Bişkekdə işləyirdim, həm də elə bil ki, ədəbiyyatdan getmişdim. Yaza bilmirdim, yazmırdım da. Bir dəfə bir jurnalist məndən soruşdu ki, siz 5 il susmusunuz, nə üçün susdunuz? Dedim, o vaxta qədər yazmışam, pis-yaxşı, ədəbiyyata xidmət etmişəm. Beş il susmaq da o deməkdir ki, beş il də yaza bilməyəndə susmağımla ədəbiyyata xidmət etmişəm. Və özümü haqlı hesab edirəm. Sonra mən şahın vaxtında İrana işləməyə getdim, 1974-cü ildə. Artıq 4-5 il idi ki, heç nə yazmırdım. Beynimdə nəsə fırlanırdı, dumanlı şəkildə, ordan da buxarlanıb gedirdi. Yəni gəlib ürəkdən keçmirdi, yol bağlanmışdı elə bil. Orda ilk hekayəmi yazdım. İranda işləyəndə “Azərbaycan”, “Ulduz” jurnallarına, “Ədəbiyyat qəzeti”nə abunəydim. Göndərdim “Ədəbiyyat qəzeti”nə. Üzeyir Hacıbəyovun yubileyi ərəfəsində, 15 sentyabr nömrəsində dərc olundu. Nəsə nəsr məni daha çox çəkdi. Şeirlə nəsrin fərqini mən müsahibələrimin birində qısa və konkret belə demişəm ki, şeir mənim üçün şəhər uşağıdı, nəsr kənd uşağı. Elə bil mən öz ilkinliyimə qayıtdım. Baxmayaraq ki, ikisi də sənətdir, ikisinin də materialı sözdü, nəsr mənə daha ciddi gəldi.

Elə olub ki, bir oturuma on iki şeir yazmışam, elə olub, on oturuma bir şeir də yazmamışam. 7 roman yazmışam, 8-9 povestim var, radio, televiziya pyesləri, teatr tamaşaları üçün pyeslər... Yəni nəsr mənim üçün bir az torpaq işidi, ağır işdi.

**– Əsərləriniz arasında fərq qoyursuzmu? Valideynlər də övladlarının ən uğurlusunu sevirlər...**

– Mənim öz əsərlərimə baxışım, deyim, necədir. Bunlar, əslində, bir əsərdi. Şərti olaraq birinin adı “Nekroloq”du, biri “Daş evlər”di, biri “Yəhudi əlifbası”. “Seyran Səxavətin yaradıcılığı”-bax, düzgün ifadə budu. Əslində, bunun özü də şərtidi. Bir az böyük miqyasda götürəndə, var “Azərbaycan ədəbiyyatı”. Seyran Səxavət yaradıcılığı o ifadənin içindədi. Adlar şərtidi. Hətta Seyran Səxavətin özü də nisbətən şərtidi.

**– Bir neçə il qabaq romanlarınıza tənqidçilərin bir az laqeyd yanaşmasından gileylənmişdiniz...**

– Laqeydlik bir az ayrı şeydi. Məsələn, götürək “Nekroloq” romanını. “Yəhudi əlifbası”nı da onun davamı hesab edirəm hardasa. 60 ildir ədəbiyyat aləmindəyəm, pis-yaxşı hamını tanıyıram. Adlı-sanlı, bərkgedən tənqidçilərin hamısına o kitabı verdim və dedim ki, bunun altını üstünə çevirin, nə bilim, ələk kimi çevirin, nə istəyirsiz, edin. Heç biri yaxın dura bilmədi. Bu, biganəlik yox, prinsipsizlikdi. Həm də sözə olan diqqətsizlikdi. Çoxdan bu fikirdəydim, bu fikir son iyirmi ildə təsdiq olundu: sovet dövründə muzdlu tənqidçilər vardı, müstəqillik dövründə isə “Azərbaycan tənqidi” deyilən anlayış günəmuzd tənqiddən ibarətdi.

*“Yer kürəsini ağıllı adamlardan qorumalıyıq”*

**– Sizin kitablarınız sovet dövründə böyük tirajlarla çap olunub. Məsələn, o dövrdə bestseller sayılan “Daş evlər” 90 min tirajla çap olunub və hamısı da satılıb. Kitablarınızın böyük tirajla çap edildiyi dövr üçün darıxırsınızmı?**

– Əlbəttə, darıxıram, adam döyüləm? Elə darıxıram! Heç bir zamanı, elə məkanı da qaralamaq olmaz. Böyük mənada “zaman” deyirəm ha. İndi “zaman”ı da yerində işlətmirlər. Deyirsən, gedək çay içək, deyir, zamanım yoxdur. Zaman ayrı şeydi, zamana minilliklər sığmır. Hə, şura hökumətinin çox gözəl cəhətləri vardı. İndi mənim kitabım çıxır 200-300 tirajla, o vaxt çıxırdı yüz min tirajla, Moskvada əlli min tirajla. İndi mən durub deyim, darıxmıram?

**– Belə bir fikir var ki, o vaxt internet olmadığına görə yeni nəşrlər hadisə sayılırdı.**

– İnternetin qəti dəxli yoxdu. Sən mənə bir il qabaq kitab vermişdin, bir günün içində oxudum, onda internet yox idi?

Biz söhbətimizdə bəzi bəlalardan danışdıq. Ola bilsin, sənə qəribə gəlsin, amma bütün bəlaların kökündə, fövqündə bir şey dayanır. Biz insan olaraq dünyanı, Yer kürəsini və bəşəriyyəti ağıllı adamlardan qorumalıyıq! Yoxsa dünyanı dağıdırlar!

**– Texnologiyanın insan faktoru üzərində üstünlüyünü nəzərdə tutursuz?**

– Elə hər mənada deyirəm. Dünyanı irəli aparmaq nə deməkdi? Dünyanın öz sürəti var, öz tənzimi var. Mənim bir nənəm vardı, şuşalı qızı idi, onlar özlərinə “qalalı” deyirlər. 1961-ci ildə Qaqarin kosmosa uçanda dedi ki, göyün filan yeri yırtıldı, bundan sonra dünya dağılacaq. Savadsız adam idi, belə bir şərh vermişdi bu hadisəyə.

O ağıllı adamların üzündən insanlar dünyanın bütün gedişatına qarışır. Tənzimat pozulur. Adicə bir şey deyim sənə. İsfahanda mən bir hamam görmüşəm, bircə şamla işləyirdi. Amerikanlar gəldi görsünlər ki, nə məsələdir, korlayıb getdilər. İndi şam da yanmır, hamam da işləmir. Yer kürəsi həmin ağıllı adamların “hesabına” korlana-korlana gedir.

**– Onda bəşəriyyətin ilkinliyinə qayıdaq? Əgər ağıllı adamlar olmasaydı, bu gün söhbətimizi yaddaşda saxlamaq üçün səsyazmadan da istifadə edə bilməzdik...**

– Eləməzdik, əlimizlə yazardıq! Bu bizə nə verdi? Bax, 30 il qabaq televizoru yandırmaq, ya kanalları dəyişmək üçün gedib gəlirdik, bir az hərəkət edirdik. İndi piylənə-piylənə oturmuşuq. Varlığın piylənir, bədənin piylənir, beynin, düşüncən piylənir, həyata olan sevgin, eşqin piylənir. “Bəşər sivilizasiyası” deyirlər, mən bu sözü qəbul eləmirəm. Orijinal görünmək xatirinə deyil. Götürün dünyanın son 100 ilini. Gör nə boyda haqsızlıqlar, ədalətsizliklər, insan adına yaraşmayan işlər baş verib. Bunların hamısının da səbəbkarı ağıllı adamlardı. Ona görə dünyanı onlardan qorumaq lazımdı, dünya öz başını saxlaya bilər.

*“Mən öz sözümə baxan adamam”*

**– Seyran müəllim, mən bir dəfə oxudum ki, siz roman yazmazdan əvvəl yazı masanızı öpürsüz, tumarlayırsız...**

– Ona yaltaqlanıram də.

**– Yəni bu yanaşmanın uğur gətirəcəyinə sizdə mistik inam var?**

– Hə, bir növ özümü inandırmışam, özü də inandırmaqda çox zəhmət çəkməmişəm, mən özüm öz sözümə baxan adamam. “Sitizen” saatım vardı, bir də “Təxti Cəmşid” təsviri olan qızıl üzük. Saatı çıxarırdım, üzüyü də qoyurdum üstünə. Bir ay təxminən hər şeydən imtina edirdim. Natiq Səfərovla, Ramiz Rövşənlə, heç kəslə görüşmək olmaz, heç kəslə.

Əsas birinci cümləni tapmaqdı. Mənim iki hissəli “Qaçaqaç” romanım təxminən min səhifədi. Öz həyatımdan – məndən keçən və mənim keçdiyim adamlardan yazmışam. Birinci cümləni mən aparmalıyam, yerdə qalan bütün sözlər məni aparmalıdı. Çünki sən sözü uzaqbaşı bir cümlə məsafəsinə qədər apara bilərsən, amma söz səni min cümlə məsafəsinə də apara bilər.

**– Romandan yenidən şeirə keçid etmək istəyirəm, çünki siz dediyiniz kimi, bunlar bütöv mənada, “Seyran Səxavət yaradıcılığı” kimi qəbul edilməlidir. Sizin “İlk məhəbbət, son məhəbbət” şeiriniz on ən yaxşı sevgi şeirindən biri seçilib. Deyirsiz ki, “İnsan bir dəfə doğulduğundan elə bir dəfə də sevə bilərmiş”. Siz bu şeiri yazanda, doğrudan, buna inanırdız?**

– Bəli. Bu şeir yazılıb 22 yaşın içində. Mən yazanda ki, insanlar bir dəfə doğulduğundan elə bir dəfə də sevə bilərmiş, buna yüz faiz inanırdım. O obyekt də məlumdur, indi həyatdadır. Şeir kənd cavanının şəhər qızına olan sevgisiylə bağlı yazılmışdı. Ata-ananın ərköyün bircə qızı... Otuz yaşdan sonra mən anladım ki, özümə şər atmışam. İnsanlar bir dəfə doğulduğundan elə min dəfə də sevə bilərmiş. Həyat davam edir. Sevgi də adam kimidi. Adamlar doğulur, yaşayır, ölür. Sevgi də elədi. Amma iki seriyalı sevgilər də var, filmlər kimi. Sevgi var, bir seriyadı, qurtardı, öldü getdi. Yeddisi, qırxı çıxmamış da unudulub gedir. Elə sevgi var ki, hörmətə çevrilir. Onu da təşkil etmək mümkün deyil, gərək öz-özünə baş versin. Sevgi hörmətə çevriləndə qala bilir, nümunə ola bilir,

başqalarının qibtə obyektinə və məkanına çevrilə bilir.

**– Belə çıxır, şeirdə həqiqətdən çox yalan var.**

– Bir türk mahnısının sözlərini eşitmişdim, çox xoşuma gəlmişdi: "Öylə bir yalan de ki, inanmayım yalandı". Füzuli baba nə deyir? "Aldanma ki, şair sözü, əlbəttə, yalandı".

**– Bu misralardakı hisslərin ölməzliyinə elə inanmaq istəyir ki, insan.**

**"Sıxma ürəyimi, ürək cəhənnəm,**
**Axı sən ordasan, sən sıxılarsan".**

– Bayaqkı şeirin sonudu. Məhəbbət Kazımov mahnı da yazıb, məşhur mahnıdı. Bu şeiri o vaxt qızlar "Xatirə" dəftərinə yazırdılar. Sonra bizim arvadın da "Xatirə" dəftərindən çıxdı. Çox populyar şeir idi, adamlar bir-birinə göndərirdilər. O şeirin hesabına mən təxminən 1200 manat pul qazanmışam. "Qaçaqaç" romanında yazmışam bunu. 22 yaşında mən şərqşünaslıq fakültəsinin 3-cü kursunda oxuyurdum. Bizim bir məşhur şairimiz zəng etdi ki, radiodan səni axtarırlar. Şaxtalı bir qış günü idi. Getdim. Dedi, sənin şeirlərin xoşuma gəldi, gəl 10 dəqiqəlik "Poeziya dəqiqələri"ndə şeirlərini oxu. O vaxt o verilişə Məmməd Rahim, Bəxtiyar Vahabzadə kimi məşhur şairlər çıxırdı. Mənim o verilişə çıxmağım qeyri-mümkün bir şey idi. Amma çıxdım. Qonorarı da çox yüksək idi, 10 dəqiqəyə 1200 manat aldım mən. Pulu alandan sonra dərslərimi yarımçıq qoyub getdim Moskvaya. Dərs-zad yaddan çıxdı.

Otuz beş-qırx il sonra həmin şairlə Moskvada liftdə "naxalni" görüşümüz oldu. Dedi, indi sən, maşallah, adlı-sanlı adamsan, bəs nə əcəb o vaxt soruşmadın ki, ay filankəs müəllim, bu nə hörmət idi, sən mənə elədin? "Poeziya dəqiqələri"ndə tələbə oğlanın çıxış etməyi mümkünsüz bir şey idi.

Dedim, yəqin, şeirlərim xoşuna gəlib. Dedi, həm də ona görə. Mən bir xanımı sevirdim, necə oldusa, kobudluğum tutdu, onu incitdim, o da məndən üz döndərdi. Məktublarıma cavab vermir, zənglərimə cavab vermir. Axırda "Azərbaycan" jurnalında sənin bu şeirini, "İlk məhəbbət, son məhəbbət" şeirini kəsdim, ümidsiz göndərdim onun ünvanına. 8 gündən sonra zəng gəldi. İşdə bir telefonum vardı, ancaq evdən zəng edirdilər ona. Bir də gördüm, telefon zəng çaldı. Elə bildim, arvad yenə deyəcək filan şey al, filan şey al. Amma o xanımın səsi gəldi, adımı da çox nəvazişlə çəkdi... Bax ona görə səni çağırdım, sən o xanımı mənə qaytardın o şeirinlə.

*"Ortaya nəsə qoy, biz də*
*baxıb öyrənək"*

**– Bu gün Azərbaycan ədəbiyyatının ən böyük problemi nədir?**

– Ədəbiyyatın bircə problemi var, heç o da ədəbiyyatın problemi deyil, oxucuların problemidir. İndi kitab oxuyan azdı. Ədəbiyyat onsuz da yaranır. Bu gün oxunmayacaq, sabah oxunacaq. Ədəbiyyata gündəlik tələbat malı kimi baxmaq lazım deyil. Ədəbiyyat şüurun, hissin ən yuxarı zirvəsində məskunlaşmış bir şeydi. Ədəbiyyat Allah kimi bir şeydi. Ədəbiyyata təşkilat kimi baxmaq lazım deyil. Ədəbiyyat onsuz da öz işini görür. Başını aşağı salıb adam balası kimi öz işinlə məşğul olanda həyatın da, sənətin də orda gedir, hörməti də orda qazanırsan.

Təxminən 25 il qabaq bəzi cavanlar ortaya çıxmışdılar, mənimlə də görüş keçirdilər. Gördüm bunların arasında istedadlı cavanlar da var. Amma əxlaq deyilən bir şey var də. Əxlaq deyəndə Azərbaycan xalqı ancaq yorğan-döşək söhbətini gətirir gözünün qabağına. Ancaq əxlaq çox geniş məfhumdur, Kainatdan sonra əxlaq gəlir mənim aləmimdə. Gördüm bunların o məsələdə bir az əlləri aşağıdı. Axırda mənə sual verdilər ki, bu görüşdən bizim haqqımızda hansı fikirlərlə ayrılırsız? Dedim, sizə qulaq asdım, içinizdə istedadlı cavanlar var. Amma bir şey hiss elədim, çalışın özünüzü ondan qoruyun. Hamınız başınızın razmerindən böyük danışırsız.

Həmin cavanlar heç kimi bəyənmədilər, gündəmə gəlmək üçün Üzeyir bəydən, Cəlil Məmmədquluzadədən tutmuş, Səməd Vurğun, Rəsul Rza, Bəxtiyar Vahabzadəyə qədər hamını tökdülər çölə. Ən çox tənqid olunan da Anar oldu. Hikkələri bəraətlərindən dəfələrlə böyükdü. Demirsən ki, ədəbiyyat belə olmalıdı? Ortaya qoy, biz də baxıb "öyrənək də". Deyənlərin yaşı 50-ni keçib, hələ ortada heç nə yoxdur.

Bəziləri ağızları köpüklənə-köpüklənə deyir ki, Şuşanı qaytardılar, bəs niyə əsərlər yazılmır? Bu, ədəbiyyat deyil. Qabaqlar SSRİ vaxtı sosializm yarışı vardı, ona bənzəyən bir şeydi. Ədəbiyyatın öz tempi, öz hövsələsi var. Öz qəbahəti və öz bəraəti var. Sən kimsən, ədəbiyyata sifariş verəsən?

İkinci Qarabağ müharibəsindən əvvəl bizi – bir neçə yazıçını bir proqrama dəvət etmişdilər.

Aparıcı bizi ortaya qoyub sinif rəhbəri kimi danlayırdı: "Niyə müharibədən yazmırsız?" və bu kimi şeylər.

Dedim, mən bütün ərkim keçən dostlarıma – Musa Yaquba, Ramiz Rövşənə, Sabir Rüstəmxanlıya, Vaqif Bəhmənliyə Qarabağ haqqında yazmağı qadağan eləmişəm. Çünki Qarabağ məsələsi artıq ədəbiyyat mövzusu deyil, müharibə mövzusudu, döyüş mövzusudu. Qarabağ haqqında ən mükəmməl və ən vacib əsəri Ali Baş Komandan Azərbaycan əsgəri ilə bir yerdə yazmalıdı. Şükürlər olsun ki, yazıldı. Poemada, povestdə, romanda alınan Qarabağ mənə lazım deyil. Mənim də az-çox fantaziyam var, bir obraz yaradaram, Rembo kimi qıra-qıra düz gedər İrəvana qədər. Mənə Qarabağ lazımdır, gedib İsa bulağında ovcumu doldurub naturada su içim, torpaqla üz-gözümü yuyum. Şükürlər olsun ki, o əsər yazıldı. Son iki yüz ilin ən vacib əsəri!

**– Yəqin ki, Qarabağla bağlı mənəvi yükünüz çox böyük idi...**

– Bilirsən, adama ən çox ağır gələn nə idi? Sənin əlinə baxan bir millət başqasının hesabına gəlib sənin torpaqlarını alır, sənə diktə edir. Bu, çox ağır məsələdi. Bu hətta torpağın işğal olunmasından da min dəfə ağır bir şeydi. Mənim bir erməni dostum vardı: Levon Adyan. Ağdərədən idi. Yaxın dost olmuşduq, Azərbaycan ədəbiyyatçıları onun xətrini çox istəyirdi. Bu hadisələrdən sonra köçüb getdi Peterburqa. İldə bir dəfə mənə mesaj yazırdı: "Bez slov". ("Sözsüz"). O iki kəlmə mənə bir il bəs edirdi. Başı aşağı, dili gödək nə qədər yaşamaq olardı?

Qarabağ azad olunandan sonra ona bircə dəfə yazdım. Yazdım: "bez slov"…

**– Bəs siz yazandan sonra cavab gəlmədi?**

– Yox, cavabı məndən əvvəl Azərbaycan ordusu vermişdi.

**– Kin-küdurətə baxın! Bu illər ərzində hər il Qarabağı aldıqlarına eyham vurmaq!.. Qələbədən üç il keçib, bəlkə, siz də onun etdiyi kimi, hər il bu sözü yazıb göndərməliydiz.**

– Yox, elə bircə dəfə göndərdim. Mən ayrı kişiyəm axı. Mən azərbaycanlıyam, o isə ermənidi.

**– Yurd yerinə getdinizmi?**

– Kəndimiz azad olunandan üç gün sonra getdim. Amma yaxşı qurtardım...

**– Ərazi minalanmışdı?**

– Yox, başqa məsələdi. Məni bir polkovnik dostum qeyri-qanuni aparmışdı. Bizim kəndimiz gözəl bir gölün kənarında yerləşirdi. Ordan Şuşaya 40 km yol var. Molla Nəsrəddin yolub – yəni qısa yol. Dağ çayı boyunca gedirsən, meşəlik, cırcıramalar da burdan oraya kimi oxuyurlar sənninçün. İndi kənddən əsər-əlamət yoxdu, göldən bildim ki, bizim kənddi... Dostuma dedim ki, məni tez çıxarın burdan. Orda çox qalmaq çətin olardı...

**– Xankəndi də düşməndən təmizləndi. Təbii ki, hamımız buna sevindik. Qarışıq duyğular yaşayanlar da vardı. Məsələn, bəzi yazı adamları dinc ermənilərin köçünə baxıb sevinə bilmədiklərini bildirdilər. Sizin içinizdəki sevinc hissini qısnayan bir hiss varmı, məsələn, mərhəmət kimi?**

– Mən bir dəfə bir görüntüyə baxdım. Orda Zori Balayan bir qadına müsahibə verirdi. Bu danışır, erməni anası olan qadın da hayıl-mayıl olub ona qulaq asırdı. Zori Balayan deyirdi ki, türk balasını pəncərəyə mıxlayırdıq. O bağırırdı, səsi qulağımıza gəlirdi. Bu səs bizə ləzzət edirdi. Amma birdən bizə elə gəldi ki, onun ağzını yummaq lazımdı, anasını da tutmuşduq, onun döşlərini kəsib, uşağın ağzına basdıq ki, səsi kəsilsin...

Mən dünyanın ən alçaq canlısına mərhəmət göstərə bilərəm, amma bunlara rəhm edə bilmərəm.



*"Yusif Səmədoğlu ilə oturub hortadardıq"*

**– Seyran müəllim, dediyiniz kimi, siz İranda şahın dövründə iki il tərcüməçi işləmisiz. Necə xatırlayırsız o illəri?**

– Şah azərbaycanlıların bütün hüquq və bərabərliklərini əlindən almışdı, ermənilərin isə neçə məktəbi, qəzeti, kilsəsi – hər şeyi vardı. Amma indikilərə baxanda şaha min şükür. Şahın dövründə tərəqqi vardı. Həm də İran dünyanın ən maraqlı məkanlarından biridi. Ora mənimçün türk məmləkəti kimi bir şeydi. Neçə yüz il orda türklər şahlıq ediblər. Sonuncu şah Rza Pəhləvi idi, onun da xanımı azərbaycanlıydı.

**– Fərəh xanımla görüşdünüzmü heç?**

– Yox, şahın qayınanası ilə görüşmüşəm. Ququşla görüşmüşəm. Şahın bacısı vardı, Əşrəf Pəhləvi, idman işlərinə baxırdı, onunla görüşmüşəm. Mənim "Daş evlər" romanımın bir xətti elə İranla bağlıdır.

**– "Qaçaqaç" romanı həyatınızdan keçən qələm dostlarınıza həsr olunub. Bəs indi hansı şair və yazıçılarla üzbəüz oturub söhbət etmək istərdiz? Yaşadığı dövrdən və məkandan asılı olmayaraq...**

– Məsələn, Ziqfrid Lenslə (o, almandı) oturub bir pivə içərdim. Gürcü Nodar Dumbadze ilə söhbət etmək istərdim. Onunla görüşmüşəm də. Möhtəşəm insan və çox istedadlı yazıçı idi. On ildən bir onu başdan-ayağa oxuyuram. Azərbaycana gəldikdə, Yusif Səmədoğlu ilə oturub, onun özü demişkən, hortadardıq. Sonra qarabağlı yazıçı var, əjdaha, "Qatarda" pyesini yazıb, İşi Məlikzadə bax, onunla uzaq səfərə gedərdim. Amma mənim işim bununla qurtarmır axı. Tutaq ki, mənim on yazıçı dostum olubsa, min qeyri-yazıçı dostum da olub.

**– Bəli, deyilənə görə, dostlarınız arasında hətta qırçılar da olub. Müxtəlif peşə sahibləri ilə dostluq etmək obraz tapmaq istəyindən irəli gəlib?**

– Obraz axtarmaq istəyi nəinki məndə, yazıçıların heç birində olmur. Bu, sadəcə, onun həyatıdır. İstəsə belə, onu özü təşkil edə bilməz. Bunda, sadəcə, belə alınıb. Mənim həyatımda o qədər maraqlı adamlar olub ki. Adil Hacıyev, Zeynal Zeynalov – dünyanın ən maraqlı adamlarından idilər...

**– Seyran müəllim, sözə sevgi, adətən, genetik olur. Övladlarınızdan sözə, qələmə meyilli olan varmı?**

– Yox, yoxdur. Bəlkə, ona görə ki, onlar da bayaq tənqid etdiyim gənclər kimi pis dövrə – keçid dövrünə düşdülər. O vaxt bir qəzet vardı, "Oxu məni". Orda bir rubrika vardı, məşhur adamların uşaqlarından müsahibə alırdılar. Bir xanım mənə zəng vurub uşaqlardan müsahibə almaq istədiyini bildirdi, dedim, gəlin.

Əvvəl Orxana üz tutdum. Dedi ki, bir o qalıb ki, mənim şəklim qəzetdə çıxsın? Toğrula dedim, o da razı olmadı. Qızım Ləman 8-ci sinifdə oxuyurdu, dedi, mən danışaram. Yaxşı da müsahibə vermişdi. Hətta müxbir Ləmana sual vermişdi ki, qardaşlarınla necə yola gedirsən? Demişdi, "itlə pişik kimi. Amma bir-birimizi çox istəyirik".

Müxbir gedəndə Orxana dedim ki, ötür xanımı. Gördüm xanım deyir ki, Orxan, yaxşı, müsahibə vermirsən, heç olmasa de görüm, Seyran Səxavətin əsərlərini oxumusan? Bu da dedi ki, mən heç Məhəmməd Füzulini oxumuram, Seyran Səxavəti oxuyacam?

(gülüşmə)

**– Sözü, adətən, gül qoxusu, yarpaq qoxusu ilə müqayisə edirlər. Siz isə belə bir ifadə işlətmisiniz: sözün üfunət qoxusu. Söz nə vaxt üfunət qoxusu verir?**

– Bu suala qısa cavab verəcəyəm. Sözün yükü yalan olanda it iyi verir… Türkiyə türkcəsindən dilimizə keçən bir deyim var, məsələn, deyirlər, "filankəs sözünü tutmadı". Söz quş-zaddı, onu tutum? Bəs Azərbaycan dilində necə deyirlər: "Filankəs sözünün üstündə durmadı". Çünki sözünün üstündə durmaq hər kişinin işi deyil. Söz bütün böyüklüyülə, nəhəngliyilə həm də sürüşkən şeydi, çoxları onun üstündə dura bilmir, yıxılır…

*Söhbətləşdi:* **Günel Natiq**





Məmməd MƏMMƏDLİ

# 27 YAŞIMDA ÖLƏCƏM...

Xəstəxanaya çataçatda şəhərə qaranlıq çökdü, günün gündüzündə günəş qeybə çəkildi, ətrafda səs kəsildi. Dünyanın sonu gəldiyini düşündülər. Nə baş verdiyini anlamırdılar, bir anlıq nitqləri tutuldu. Emin canındakı xofu qovub bərkdən qışqırdı:

– Hə, təbrik edirəm, Allahın qəzəbinə gəldin! Cəhənnəmə getmək istəyirsən, mənsiz get! Həyatından bezmisən, mənim nə günahım var...

Coşqun mızıldandı, lakin heç nə demədi. Allahın günahkar bəndəsi başındakı qarma-qarışıqlığı sahmana salmağa çalışdı. Beynini ha çalışdırmaq istədi, heç nə alınmadı. Yazıq-yazıq onun üzünə baxdı, susdu.

Qarşıda yalnız beşmərtəbəli bir bina görünürdü. Aləm zülmətə dönsə də, bulanıq, sarımtıl rəngdə bərq vuran xəstəxananı seçə bildilər. Gördüyü mənzərənin sehrinə düşən Coşqun "biz ora getməliyik!" – deyib, dostunun qolundan dartdı.

Xəstəxananın qapıları bağlı idi, ancaq hansısa qüvvə onları maqnit kimi içəri dartırdı. İzaholunmaz bir gücün qarşısında sanki hipnoz olurdular. Coşqun öz-özünə danışırmış kimi divardan yapışdı:

– Yuxarı çıxmaq lazımdı! – deyib, kərtənkələ təki dırmaşmağa başladı.

Coşqunun inadkarlığına etiraz edə bilməyən Emin də kərtənkələ yerişini aldı. Sanki fövqəltəbii bir varlıq ona görünməmiş güc verdi.

Xəstəxananın damında ürəkləri bulanır, canlarında yüksək hərarət hiss edirdilər. Coşqunun spontan hərəkətləri Emini özündən çıxarırdı. Həyatı elə bura qədər imiş... nə etdiyini anlamır, beynində pozuntular baş qaldırırdı. Düşüncələr içində kənara çəkilib, çarəsiz-çarəsiz hadisələrin gedişatını gözlədi. Bir dost kimi əlindən gələni etmişdi, bundan sonra artıq özü bilər...

Başlarının üstünü yadplanetli obyekt alanda qorxu canlarına elə sarmaşdı ki, yerlərində donub qaldılar. Nə gizlənə, nə də qaça bilirdilər. Təslim oldular...

Arada yaranan çəkisizlik ayaqlarını binanın damından üzdü. Onlar burula-burula naməlum obyektin içinə sovruldular...

* * *

Cimi Hendriksə qulaq asırdı. Payız günəşinin isitdiyi yarıqaranlıq otaqda boynunu büküb oturmuşdu. "Woodstock" festivalındakı konsertlərini dəfələrlə izləmişdi. Ən çox da 1969-cu ilin videoyazılarını dinləməyi sevirdi. Ağ stratokasterdə "Foxey Lady" mahnısını qıvrıla-qıvrıla ifa edən Hendriksi özü dəfələrlə dostlarının arasında təkrarlamışdı. Həmişə də Cimi Hendriks kimi şan-şöhrətli ifaçı olmağı arzulamışdı. Amma Coşqunu Bakının "Deja vu" rok-klubundan o yana tanımırdılar. Pis ifa etmirdi, musiqiyə ürəyini qoymuşdu, səhnədə özünü unudur, Hendriks kimi tamaşaçıların gözlərini qamaşdırırdı. Daha o qaradərilinin taleyini yaşamaq istəmirdi! Bu vaxt qapı döyüldü. Qalxmağa halı olmadığından elə oturduğu yerdən səsləndi:

– Gəl!

Emin içəri keçəndə gözlərinə inanmadı. Dostu onunla zarafat etmirdi. Coşqunun oturduğu divanın bir tərəfi al-qana boyanmışdı.

– Sən... Niyə özünü bu günə qoymusan?

– Emin, məni xəstəxanaya çatdır...

– Məsləhət görərdim əvvəlcə başını yox-ladasan. Heç utanırsan? Bir qaradərilinin üstündə özünü öldürmək ancaq sənin kimi axmağın ağlına gələrdi, – Deyinə-deyinə bu ağıldan zayın qolundan tutub, ehmalca onu dikəltdi.

Xoşbəxtlikdən, xəstəxana yaxında idi. Yol boyu Emin ona həyatın astar üzünü başa salırdı.

– Sən bilirsənmi, insanın özünü öldürməsi Allah qarşısında işlətdiyi ən böyük günahıdır?

Coşqunun canından üşütmə keçdi.

– Sən bu hərəkəti eliyəndə heç ata-ananı düşündün? – Emin davam etdi. – Məlumun olsun ki, səndən fərqli, Cimi Hendriks özünü öldürməyib. Sən yaxşı ifaçısan, amma başqasının yolunu gedirsən. Bu səni məşhur etməyəcək... bunu birdəfəlik qulağında sırğa elə...

Coşqun ağzına su alıbmış kimi yazıq-yazıq dostunun üzünə baxırdı. Susmağı ilə sanki Eminin fikirləri ilə razılaşırdı.

Qəflətən hava qaraldı, günəş yoxa çıxdı. Küçələrdən insanlar, maşınlar qeybə çəkildi. Dostların canına vicvicə düşdü...

* * *

Gitarasını səsgücləndiriciyə qoşub 70-ci illərin dəbdə olan rok mahnılarını çalırdı. Səsi o qədər qaldırmışdı ki, küçədəkilər səs gələn tərəfə baxır, narazı-narazı ötüb keçirdilər. Qonşularsa bu dəliqanlı gitaraçının musiqisinə çoxdan öyrəncəli idilər. Həftəsonu dostlarını başına yığan Coşqun 27 yaşını qeyd etmək üçün bu dəfə evində “parti” keçirirdi. Dostları da deyib-gülür, qızlı-oğlanlı oynayır, kresloda yayxanıb Xırdalan pivəsindən içə-içə Coşqunun ifasına qulaq asırdı. Kefləri saz idi... O qədər siqaret üfürmüşdülər ki, günəş işığı içəri düşməyə çətinlik çəkirdi. Coşqun da Hendriks kimi qıvrılır, gitaranı boynunun arxasında çalırdı, hərdən də simlərini dişi ilə tərpədirdi. Üç saatlıq “səs-küy”dən sonra qonaqlar dağılışdı.

Coşqun günü “yaxşı” başa vurmağı planlaşdırmışdı. Görəsən, həyatı bu gün bitsəydi, necə olardı? Odur ki, Cimi Hendriksin “Woodstock”dakı konsertlərini qoşub divanda özünə yer elədi. Damağında Marlboro, bir əlində də pivə şüşəsindən yapışan dəliqanlı gənc həyatını vərəqləməyə başladı. Öləndən sonra yaddaşlarda qalacağına inanırdı. “27-lər klubu”nun üzvü olmaq ümidi ilə cibindəki “lezva”nı çıxartdı. Kağızını cırıb qolun bükülən yerindən astaca sürtdü. Həmən dərisi açıldı... ağappaq damarı üzə çıxdı... İkinci cəhddən sonra içəridə axan tünd-qırmızı mayeni azadlığa buraxdı. Qan fəvvarə təki elə fışqırdı ki, divanı, yeri, hətta tavanı belə qırmızı rəngə boyadı. Damağındakı siqareti buraxmadan qanı ilə çəkdiyi mənzərəyə tamaşa edirdi...

Qanın təzyiqi düşdü, fəvvarənin gücü azaldı, ancaq o, huşunu itirmədi... “Qəribədir niyə ölmürəm bəs?” – deyə ağlından keçirdi. Bir anda ölmək fikrindən daşındı. Anladı ki, ömür insana verilən taledir və o, bu taleni yaşamalıdır. “Görünür, vaxtım hələ çatmayıb...” – öz-özünə dedi.

Mobil telefonla dostuna zəng vurdu.

– Emin, damarımı kəsmişəm, tez məni həkimə apar, – deyib telefonu bağladı.

Televizorda “Foxey Lady” mahnısını ifa edən Cimi Hendriks ağ gitarası ilə tamaşaçıları coşdururdu, ancaq Coşqun üçün indi bunun heç bir əhəmiyyəti yox idi...

* * *

Coşqun yuxudan ayılıb adəti üzrə səhərin siftəsinə siqaretini yandırdı. Tüstülədə-tüstülədə başını pəncərədən çıxarıb yoldan keçən maşınlara, işə tələsən adamlara baxdı. Günəş düz gözünə düşürdü. Kefi kökdür. Necə də olmasın, axı bu gün 27 yaşı tamam olurdu. Özəl günündə valideynlərini qohumlarıgilə yollayıb “parti” keçirmək üçün dostlarını evə çağırdı. Yeyib-içmək, siqaret, bir də gitara... necə deyərlər, budəfəki ad günü yaddaqalan olacaqdı. Emini də unutmadı. Telefonla zəng vurub dəvətinin məqsədini açıqladı:

– Şimal maralı, necəsən? – o, dostunu belə çağırırdı. – Sənə bir sualım var. Sən “27-lər klubu” haqqında nə bilirsən?

– Coşqun, sən elə bir vaxtda zəng vurdun ki... əlimdə işim var, sonra danışarıq.

– Yox e, sən bilirsən ki, Cimi Hendriks, Cennis Coplin, Emi Vaynhaus, Morrison, Kurt Kobeyn...

– Hansı Kurt Kobeyn, “Nirvana” qrupundakını deyirsən?

– Bəli, dostum, özüdür ki, var. Onların hamısı 27 yaşda ölüb. Mənim də bu gün 27 yaşım tamam olur. Odur ki, səni “parti”mə dəvət edirəm.

– Nəsə mənə tam aydın olmadı. Əvvəla, təbrik edirəm, 100 yaşa. Amma sənin “27-lər klubu” ilə nə əlaqən? Bəlkə, kluba üzv olmaq istəyirsən?

– Bəli dostum, düz başa düşdün. Mən bu gün dostlarımla vidalaşıram.

– Nəsə gözümə “yaxşı” dəyirsən. Amma mən bu gün məşğulam. Sabah bir yerdə oturarıq, – deyib telefonu bağladı.

Coşqunun kefi saz idi, Hendriksin gitarası kimi... Odur ki, küncə qoyduğu ağ stratokasterini götürüb divanda yerini rahatladı. Gitarasını kökləyib, “Mi” simini “Re”yə endirdi. Bu gün “ağır parti” olacaqdı, bütün dostları ilə yaxşı əylənəcəkdi...



Əli BAĞIŞ



# SÖZLƏRİM

1. Böyük-böyük adamların kiçik-kiçik işlər görməsinin yalmız bir səbəbi var: Böyük işlərin kiçik,çox kiçik adamlar tərəfindən oğurlanması!

2. Kimin "nə", "necə" dediyinə yox, "niyə?" dediyinə baxın.

3. Oğluma; Atam atandan böyük kişi olub, özüm özündən!

4. Zəif olanda hamı ədalətli olur, Kişi odur ki, güclü olanda ədalətli olsun.

5. Haqlıyamsa, yanımda deyilsənsə, lənət olsun sənə, haqsızamsa, yanımdasansa, lənət olsun mənə...

6. Söz, Əməl, Adam arasındakı tərs mütənasiblik belədir; Sözlə Əməl arasındakı məsafə kiçildikcə Adam böyüyür, Sözlə Əməl arasındakı məsafə böyüdükcə Adam kiçilir!!!

7. Çox şərəfsizin kişi olduğu, ayaqyolunda "Kişi"yazılmış lövhəyə tərəf gedəndə yadına düşür...

8. Övladlarımıza heç bir sərvət saxlaya bilmiriksə, heç olmasa "Allah rəhmət etsin, atan yaxşı Adam olub, bala"-nı saxlamaq ki öz əlimizdədir...

9. Həyatda ən qəliz şey bir adamı tanımaqdı. Tanıyandan sonra həyat o qədər asan olur ki...

10. Ən gözəl sözləri şairlər, tamadalar, mollalar seçib danışırlar. Mənə sözünü yox, Əməlini göstər eee...

11. Allahın sığorta idarəsi işləmir. Heç kim heç vaxt heç nədən sığortalanmayıb.





*"Kiçik uşaqların dərdini kiçik görməməli".*
***Əbülqasım Firdovsi***

*Elə bir öləm ki,*
*Elə bir öləm ki, uşaqlar,*
*Sizə heç ölüm qalmaya...*
***Əziz Nesin***

Xatirə SALAHZADƏ

# XİFFƏT

Qəbiristan yoluna çatanda hələ günorta olmamışdı. Yol boyu "qəbiristan mollaları" sıra ilə düzülüb iş gözləyirdilər. Ovçu şikarını gözləyən kimi, onlar da ölü sahiblərini dörd gözlə gözləyər, adətən, yoldan keçən maşının içindəkiləri süzərdilər. Səhər obaşdan ziyarətə gələn ölü sahibləri "son mənzil"i tərk edirdilər. Kimi üzündən çəkilməmiş iztirabı, kədəri ilə, kimi sanki bir ritual icra edib dönən kəsin baxışı ilə, kimi göz yaşlarını heç cürə saxlayaa bilmədən güclə yol gedirdi.

Qəbiristan, əvvəllər, hələ kiçik yaşlarımdan vahiməli bir yer bilirdim. Bilirdim yox, hiss edirdim. Yadımdadır, heç qəbiristana getməmişdim, heç görməmişdim də. Kəndimizdə yas var idi. Yaşımı xatırlamıram, amma yəqin ki, elə də böyük deyildim ki, anam olmadan gecəni kiminsə yanında qala biləm. Buna görə də məni də özləri ilə kəndə aparmışdılar. Azyaşlı əmim oğlunu kənd avtobusu vurmuşdu. Həyətdə evin önündəcə divara qısılıb qalmışdım. Kənd arvadlarının ara-sıra "şaxsey-vaxsey" sədalarını eşidəndə körpə ürəyim sıxılır, sanki kimsə məni dondurur, tərpənməyə qorxur, heç ağlaya da bilmirdim. Arvadlar sakitləşən kimi donum açılırdı. Sanki növbəti donma rejiminə keçməzdən əvvəl nəfəs almağa tələsirdim. Əl-qolum açılan kimi bu dəfə də nənəmin, əmim arvadının divara çəkdikləri mavi rəngli şirəni balaca dırnağımla qoparıb yerə tökürdüm. Arvadların təziyə məclisinin səsi gələn kimi yenə də divara qısılıb donurdum. Arada indi də pis yuxudan ayılanda elə o vaxtdakı kimi qorxudan donuram, o biri tərəfə çönmək nədir, heç nəfəs almağa belə ürək edə bilmirəm. Ta ki, öz-özlüyündən yuxuya gedənədək qorxu məni ağuşuna alır. Başımın üstündə yerdən bir qədər hündürlükdə göy rəngdə taxtası və şüşəsi olan ikiqat açıq pəncərələr vardı. Uşaq düşüncələrimlə sanki pəncərədən ölən uşağı virtual olaraq görür, elə bilirdim ki, arvadlar "şaxsey-vaxsey"lərlə onu incidərək harasa yola salırlar. Özümü tanıyandan rejissor Cerri Zukerin 90-cı illərdə çəkdiyi "Ruh" filminə hər dəfə baxanda ölən artistləri qara əcaib şeylər aparan epizod eynilə bu səhnəni gözümdə canlandırırdı. Elə bil həmin qorxulu günü yenilənmiş kimi hiss edir, yenidən yaşayırdım. Hələ bu arada yerə düşən qopuntuların da fikrini edirdim. Evin kandarına şirə çəkiləndə ta onun qurumasını gözləyənədək nə içəri, nə də çölə çıxa bilərdik. Əks halda yerdəki şirə ayağımıza yapışar, yeri də korlamış olardıq. O zamanlarda kənd

evlərində boya əvəzi istifadə olunan gilə oxşar bu maddə məni özünə cəlb edirdi. O qədər sevirdim ki şirəni. Kənddə tətillərimi keçirərkən vedrənin içinə quru gili töküb, su əlavə edib onu əllərimlə həll etmək ən sevdiyim məşğuliyyətlərimdən biri idi. Bir az böyüyəndə hətta özüm də çəkmişdim, baxmayaraq ki, şəhər uşağı idim. Yerə düşən şirə qopuntularını görcək "hadisə yeri"ndən aramla, üsulluca uzaqlaşırdım. Özümü başqa divara sıxılan tapırdım. Mən həqiqi qəbiristan görmədim, amma kənd həyətindəki o yası qəbiristan bildim. Hətta bir qədər böyüyəndə, kənd qəbiristanına sərbəst gedib ziyarət edəndə də, gündüz olmasa da, gecə "son mənzil"in xofu məni basırdı. Ancaq öz atam dünyasını dəyişəndə "son mənzil" mənə o qədər doğmalaşdı ki, elə bilirdim, atamın yeni mənzilidir. Qorxu sanki yoxa çıxmışdı... bəlkə, böyümüşdüm. Bəlkə də, acı qorxumu üstələmişdi, ona qalib gəlmişdi. Bilmirəm. Nə vaxtsa eşitmişdim ki, başqasının acısını öz vücudumuzda hiss etmək üçün eyni acını yaşamış olmamız lazımmış. Yaşadım, gördüm, bildim...

Dərin düşüncələrə daldığımı görən Türkan – "Bax burda saxla, bulağın yanındadır onun qəbri. Sən düşmə!  Bir az tək qalım" – deyib tələsdi. Maşından enmədim. Uzaqdan daşdan kəsilmiş ağappaq barelyef görünürdü. Aralıda da olsam, qızılı haşiyədə yazılmış ... böyük adı açıq şəkildə görünürdü. Qəbrinin üstündəki çox uzun yazı isə heç görünmürdü. Çox güman ki, şeir idi. Atası şeirə aşiq idi. Evlərində Nazim Hikmətdən tutmuş, müasir şairlərə qədər kimin kitabını axtarsan, tapa bilərdin.

Maşının şüşələrini açıq saxladım. Gedişini izlədim. Qəbrə aram-aram yaxınlaşdı. Dünəndən buz kəsmiş rəfiqəmin sanki bir parçasını yerə atıb sındırdılar. Naləsi yeri-göyü titrətdi. "Nifrət"i od püskürdü. Biz qəbiristana girəndə yenicə başlayan çiskin gur yağışa çevrilmiş, dayanmadan yağırdı. Türkanın göz yaşları yağışa qarışmışdı. Yağış onu, o, yağışı ağladırdı. Beləcə yerə çöməlib dədəsi ilə "dalaşdı". İndiyədək boğazında düyünlənib qalan sevgiqarışıq nifrətinimi deyim, nifrətqarışıq sevgisinimi deyim, dilə gətirirdi. Heç vaxt üzünə deyə bilmədiyi, görmək istəmədiyi dədəsinə qəlbindəki bütün sözləri unudar, deyə bilməz, içində qalar qorxusu ilə tez-tez, təngnəfəs dilə gətirib bütün cümlələrini tamamlamağa çalışırdı. Yaxınlaşan molla çox qısa bir zamanda  əvvəlki yerinə- qəbiristanın mərkəzinə yön alıb gedirdi. Simasından surələri tez-tələsik, ala-yarımçıq oxuyub birtəhər yola verən mollalara bənzəyirdi.

O vaxtlar mən kapsul dərmanları ilk dəfə onun atasında görmüşdüm. Hər axşam ərəb qorkasının rəfindən gözoxşayan, rəngarəng dərmanı götürərək açır, içindəki tozunu qəbul edib qabını atırdı. Uşaq idim, amma o kapsulların rəngarəngliyi məni necə cəlb etmişdisə, evimizdə görüb alışdığım, sovetin ağ, bəzən sarı rəngli tabletlərindən çox fərqli gəldiyi üçün onları oyuncaq da zənn edirdim. Arada o ərəb qorkasından bizim üçün Türkiyədən gətirdiyi – o zaman nadir tapılan – türk saqqızlarını da çıxarıb uzadaraq – xüsusi bir zəhmlə "di gedin oynayın" deyirdi. Mən onun atasından çəkinirdim, hətta qorxurdum da. Uşaqları sevməyən bir tövrü vardı. Amma qızını çox sevirdi. Hər işdən qayıdanda "nazım-quzum" deyib o üzündən-bu üzündən öpərdi. Daha doğrusu, Türkan özü atasından öncə tez onun önünə atılardı. Türkanın atasına qarşı böyük sevgisi vardı. Ona dədə deyərdi. Atası özü belə öyrətmişdi. Dolanışığa görə bir-iki yaxın məsləkdaşı ilə o, böyük qardaş Türkiyəyə pənah aparmışdı. Uzun müddət Türkiyə universitetlərinin birində Şərq ədəbiyyatından dərs demiş, orada yaşamışdı. Türk ləhcəsinə o qədər alışmışdı ki, öz Qarabağ ləhcəsini də ona qatıb danışırdı. Türkan ona dədə deyəndə elə bilirdim, atası daha da yaşlıdır. Hər dəfə Türkiyədən qayıdanda özü ilə çoxlu "Çocuk" uşaq jurnalları gətirərdi. Yaxşı xatirimdədir, o jurnalları necə böyük sevgi ilə vərəqləyər, xəyallara dalar, gündüzü axşama qatardıq. O zaman necə dostluqlar, necə qonşuluqlar vardı. Yatmaq vaxtı çatanda evimizə gedərdik. Qonşuluqda bu qədər narahatlıq da böyükləri heç incitməzdi. Qəlbimdəki ilk Türkiyə sevgisi də elə o evdəki abu-havadan yarandı. Evin divarlarında müxtəlif rakurslardan çəkilmiş Ayasofiya məbədi olan şəkillər lap çox idi. Ərəb mebelinin üzərində göz oxşayan, eyni zamanda qəribəliyi ilə düşündürən sənət heykəlcikləri vardı.

Aradan bir qədər zaman keçdi. Atasını evdə artıq çox az-az görməyə başladım. Zaman-zaman da heç görmədim. Beləcə onun valideynlərinin həyat yolları ayrıldı. Onlar – ata-qız artıq bir-birini görmür, unutmağa çalışırdılar. Artıq o böyük sevgi incikliyə, kiçik nifrətə qədər gedib çıxırdı. Atasından söz açılanda hər zaman nifrət püskürürdü. Amma mən nədənsə bu nifrətə heç vaxt inana bilmirdim. Valideynləri boşanan Türkanın həmişə özünü boynubükük, sıxıntılı, əskik hiss etdiyini dərindən duyurdum. Az-çox

tanınan atası haqda heç vaxt heç kimə söz açmazdı. Ətrafında olan dost-tanışı heç onun atasının kimliyini bilməzdi. Bəzən məcbur qalanda “boşanıblar” deyib mövzunu dəyişərdi, vəssalam. Həyatının hər bir dönəmində boşanmış valideynlərin övladı olmağın iztirabını içində çəkir, nifrəti, qəzəbi daha da artırdı. Biz bir-birimizdən az-çox fərqli olduğumuz üçün rəfiqəmin bu halı mənə onun düşündüyü kimi acınacaqlı gəlmirdi. Mən onu anlamırdım. Daha doğrusu, onun vəziyyətini acınacaqlı hesab etmir, atasına olan nifrətini isə heçə sayırdım, inanmırdım. Çünki atasına böyük sevgisi olan bir qızcığazın böyük nifrəti heç cürə ola bilməzdi. Mən ki, axı mən ki bu sevgini görmüşdüm. “Sevgidən nifrətə bir addımdır” ifadəsi onun bu vəziyyətində bir külliyyatlıq yalandır. Bu od püskürmə nifrətdən başqa hər şey idi. Nəsə, nəsə adını qoya bilmədiyim, nifrət pərdəsi arxasında gizlənən başqa bir şey idi. Onun öz vəziyyətini dünyanın sonu imiş kimi düşünməsini isə heç anlamırdım. Axı nə vardı ki burda, bir-birinə zidd iki insan nəticədə bir-biri ilə yollarını ayırırlar. Bu qədər bəsit. Birlikdə gəldikləri yolu yarıda qoyub yeni bir yola addım atırlar. Ayrı dildə danışan, bir-birini məsxərəyə qoyan, çox zaman kinayəli davranan, daşıması qeyri-mümkün dərdləri yaşayan cütlüklər bu əzablara sinə gəlib niyə zülmlə yaşamalıdır ki?.. Mənə hər zaman elə gəlirdi ki, bir-birini səmimi, təmiz, ülvi hisslərlə, təmənnasız sevən cütlükləri həyatda heç bir çətinlik ayıra bilmir. Ən ağır sınaqlardan belə üzüağ çıxırlar. Birtərəfli, nəyinsə naminə yaradılan sevgi zənciri günün birində qırılmağa məhkumdur. Niyə birgə yaşayıb, ömür - lərini bir-birinə diksinərək baxıb çürütməlidirlər?! Güzəşt edən tərəf birtərəfli qalırsa, o da geci-tezi təslim bayrağını qaldırır. Di gəl, sən bunu rəfiqəmə anlat. Əslində, o nə vaxtsa anasını başa düşüb anlamağa da çalışıb. Hətta onun yanında da olub. Amma ürəyinə hökm edə bilməyib. “Boşanmış ailənin qızı” yükü onun zərif çiyinlərinə ağır gəlib həmişə. Yaxından tanımaq istəyən oğlanların ailəsi barədə gerçəkliyi biləndən sonra ondan uzaqlaşdıqlarını mənə etiraf edərkən necə həyatdan, insanlardan küsür, ağlamsınırdı. Üzündəki sakit qəzəbi insanı bugünkü kimi lərzəyə gətirirdi. Amma Allahdan olan kimi, çox mərhəmətli, rəhmli qız idi Türkan. Şeytana uymurdu. Bitib gedən münasibətlərin sonunda sakitliyini qoruyub saxlaya bilirdi ən azı. Mən o vaxt belə düşünürdüm. Türklərsayağı da “Allahın təqdiridir” deyər, nəyə isə sığınardı. Bir Məlikməmmədin onu divlərin əlindən xilas edib quyudan çıxaracağı günə, simurq quşunun lələklərini yandırdıqda onu bu qaranlıq dünyadan işıqlı dünyaya aparacağına cani-könüldən inanar və o günü böyük səbirlə gözləyərdi.

Keçib maşına əyləşdi. Göz yaşlarını kağız salfetlə silərək – “Tez ol, tez sür gedək burdan... Qurtuldum, qurtuldum... İndi soruşan hər kəsə rahatlıqla “atam yoxdur”, “atam yoxdur”... deyə bilərəm” sözlərini deyə bildi...





DEBÜT

Aynur ƏDİL

# CAVABSIZ MƏKTUBLAR

Sənə yenə yerli-yersiz məktub yazıram. Bu, neçənci cavabsız məktubdur? Heç özüm də bilmirəm. Amma görünür, bu sənə yazdığım sonuncu məktubdur. Təsəvvür də edə bilmirəm ki, bu məktubu necə sonlandıracam... Axı illərdir öyrəşmişdim sənlə bağlı yazmağa, yaxud elə sənə yazmağa. Bəlkə də, üzündə xəfif bir gülümsəmə belə yaranırdı yazdıqlarımdan dolayı. Sən hisslərini büruzə verən olmamısan deyə, mən tərəfdən sənə gələnlərin səni xoşbəxt etdiyinə, yoxsa səni bezdirdiyinə əmin olmamışam heç vaxt. Hazırda isə əmin olduğum tək şey var: sənə olan bütün hisslərim bir filmin final səhnəsi, şedevr əsərin son cümləsitək sona çatır. Bilirsən, sevən insan üçün sevgi heç vaxt yük olmaz, deyirlər. Ancaq sevilən tərəf yorduqdan, erkən qocaltdıqdan sonra o böyük sevgi zamanla nifrətə, sonra isə ümumiyyətlə, bütün hissləri itirməyə gətirib çıxarır. Əbəs yerə deməyiblər ki, çox böyük sevgi nə vaxtsa nifrətə çevrilir, ya da o qədər çox sevmə, bir gün nifrət edərsən deyə. Nə vaxtsa düşünsəydim ki: sənə vida edirəm, yaxud əlim sənin əleyhinə yazılar yazır, bəlkə də, gülməkdən keçinərdim. İndi isə hər şey tərsinə çevrildi. Bax elə indicə əlimi ürəyimin üstünə qoyub haqqında düşünəndə ritmlər dəyişmir. Həyəcanla səndən gələn zəngləri gözləmirəm. Adını təsadüfən hardasa eşidəndə o ad üzümü güldürmür hər zamankı kimi. Bəzən isə yol gedərkən, maşının pəncərəsindən ətrafa boylanan zaman digər bir maşının nömrəsində adlarımızın baş hərflərini yan-yana görəndə xəyallar qurmuram. Asan olduğunu deyib ikimizi də aldatmayacam. Bəli, çox çətin oldu illərdir içimdə böyütdüyüm sevgini bir gecə yarısı çox düşünüb, götür-qoy etdikdən sonra bitirmək. Görəsən, bu, sənin qələbəndir, yoxsa mənim? Sənmi məni özündən soyutmaq istəyinə nail olmusan, yoxsa mənmi artıq tökülən, ağaran saçlarıma güzgüdə baxarkən əvvəlki özümü tapa bilməyəndə ayılmışam ki, bu sevgi məni bədbəxt edir, bəlkə də, ikimizin də qələbəsidir. Bax yenə sonuncu dəfə yazıram deyib, hər şeyi çox uzatdım həmişəki kimi. Çoxdan yanından çıxıb getməyim lazım olduğu adamın yanında artıq qaldığım kimi... Elə isə məktubumu oxuyuram:

"Bilirəm, həmişəki kimi sonuncu məktubum da cavabsız qalacaq. Ancaq hər şeyə rəğmən, sənə yazmaq yenə də məni rahatlandırır. Elə bilirəm ki, illərin yükünü yavaş-yavaş azaldıram üstümdən. İllərdir sən tərəfdən mənə ümid işığı gəlməsə belə, mənim səndən günəşi gözləməyim isə yenə də mənim səhvim olsun. Hə, bu dəfə gedirəm və heç nə gözləmirəm. İnanırsan, həyatımda baş verən dəyişikliklərin, qazancın və bəzən isə itkilərin sürətinə özüm də çata bilmirəm. Heç nə arzuladığım kimi getmir. Nə iş həyatım, nə ürəyimə yeni aldığım insan, nə də təzə tanış olduğum dostlarım. Elə bilirəm, qürbətdə, dilini bilmədiyim ölkədə, yadlar içərisində, parkda itkin düşən azyaşlı uşaq kimiyəm. Hiss etdiklərimi anlayan və dilimdən nəsə başa düşən heç kəs yoxdur. Şairin də dediyi kimi: "mən adam tapmıram adam içində..." Hərdən şükür edirəm ki, qələmim var və yaza bilirəm. Ən azından hər şeyimi bölüşməyə ağ vərəqlərim var. Məni başqa kim anlayır ki öz yazılarımdan başqa?! İstəmədiyim hər mühitdə həyatıma davam etdikcə özümə bu cümləni xatırladıram: "Sakit ol. Sən yazıb-yaratmağı bilirsən. Hər nə yaşasan, yaşadıqlarını kitaba, yazıya çevirəcəksən və həm özün rahatlaşacaqsan, həm də özündən sonra iz buraxacaqsan". Və bunları düşündükdən sonra mənə yaşamaq cəsarəti, sevgisi gəlir. Bəlkə də, bütün bu qəzəb, aqressiya, boşluğun əsl səbəbi gedənləri heç kəsin əvəz edə bilməməyinə görədir. Onlar hər zaman bizdən bir parçamızı mütləq özləri ilə götürüb aparırlar. Eh, o qədər itkilərin içərisində nə ehtiyac var idi axı sənin də məni tək qoymağına?! Özün bilirsən, bir il əvvəl uşaqlığımın məsum, saf çağlarını

birlikdə paylaşdığım, böyüdükdən sonra isə qürbətdə yaşadığına görə arabir üzünü gördüyüm canımdan, qanımdan olan birini torpağa tapşırmışdım... Hamı deyirdi ki, zaman keçdikcə dünyadan köçənlər unudulur və insan soyuqqanlı olur. Elə olmadı amma. Və bir də anladım ki, hər deyilənə inanmaq olmaz. Bir də görürsən, gecənin bir yarısı elə sızlayır ki yaralar... Nəfəsi də çətinliklə alıram. Bunları ancaq vəfa, sədaqət və sadiqlik kimi hissləri daşıyanlar bilər. Duyğularını itirən, azğınlaşan insanlar üçün nə fərqi var ki kim getdi, kim qaldı? Onlar bu dünyaya, sadəcə, qəlbi təmiz insanlara zərər vermək üçün gəlirlər. Bu məktubum fərqlidir, hə? Həmişə sənə yazan şıltaq, həyat dolu qızın notlarına bənzəmir, deyəsən? Bəli, bunun ən böyük günahkarlarından biri də sənsən. Yaşadıqlarım öyrətdi mənə gözümüzü açdığımız bu ucsuz-bucaqsız kainatda yalnız və yalnız özümüzə görə yaşamalı olduğumuzu. Nə mənası oldu özümü sənə fəda etməyimin? Bildinmi qədrimi? Özünlə tək qalanda, hər kəs yanından çıxıb gedəndə bircə anlıq da olsa, yad etdinmi məni və sənə olan böyük sevgimi? Sən belə sevilməyi ancaq ya romanlarda oxuya, ya da filmərdə izləyə bilərdin. Real həyatda şahid olduğun üçün, yəqin, bu sevgi səni də çaşdırıb...

Bilirsən, sənin üçün burnumun ucu göynəyirdi hər saniyə, hər an. Sən isə sevgisizliyin ayrılıqdan daha betər olduğunu öyrətdiyin gündən darıxmağı da unutdum. Bəlkə də, ürəyimin dərdinliklərinə ensəm, yenə də səni taparam. Amma ona əzab verdiyini bildiyi halda, bir quyuya təkrar niyə düşmək istəsin ki bir insan?! Yeri gəlmişkən, elə səndən əlimi üzdüyüm günlərin birində ən yaxın dostumu da itirdim. O da eynilə sənin kimi davranırdı. Ehtiyacım olanda əlim çatmayacağı qədər uzaqda olurdu. Bütün çətinliklərin öhdəsindən yalnız gəldikdən sonra artıq nə sənə, nə də ona niyə ehtiyacım olsun ki? Daha çox tanıyıb bir az da sizdən qəlbim qırılmaqdansa qoy elə hamınızı xatirəmdə yaxşı yaşadım. Ancaq etiraf etməyə qalsa, dostum üçün çox darıxıram. Onunla aramızda heç vaxt qopmaz dediyim bağ var idi. Mən saydığımı saysam da, fələk yenə öz bildiyini saydığına görə heç getməz dediklərim də getdi. Bəlkə də, daha böyük ağrılara dözməsəydim, ikinizin birdən itkisi ağır yük olardı mənə. Lakin özün bilirsən, torpağa tağşırdığımın acılı yanğısından sonra heç bir hadisə onun kimi yandıra bilməz məni. Hə, dostum üçün darıxmaqdan danışırdım axı. İnanırsan, neçə ildir ki, səni dəlicəsinə sevməyimə Allahdan başqa o, şahid idi. İndi, bəlkə də, ona da maraqlıdır: necə ola bilər bu qədər təmənnasız, dərin sevən qız birdən-birə hər şeyin üzərindən xətt çəkib? Elə bu sualın cavabı mənim özümə də maraqlıdır. İnsan tənhalığın səssizliyində dahiləşir, deyirlər. O qədər tək qalmışam ki, artıq məni xoşbəxt etməyən hər şeydən və hər kəsdən uzaqlaşmağa başlamışam. Yaxşı, səni başa düşdüm, bir gün üzümü güldürürdünsə, on gün ağladırdın. Bəs o dostum? Ona nə oldu? Gülməkdən gözümüzün yaşı sel kimi axar, biz söhbət edəndə qaqqıltımızın səsi o biri otaqlara yayılardı. Hətta gecəyarısı qorxulu yuxulardan birdən-birə ayılanda ilk olaraq əlim ona zəng etmək üçün telefona gedərdi. Düzdü, sonradan cavabsız qalan telefon zənglərim nə yaşasam da, hər şeyin öhdəsindən yalnız gəlməli olduğumu öyrətdi. Ancaq son ayrılığı saymasaq, o mənim üçün özünü fəda edəcək tək dost idi. Bizim birlikdə xatırlayıb yüzlərlə, bəlkə də, milyonlarla bəzən güləcəyimiz, bəzən isə kövrələcəyimiz xatirələrimiz var idi. Eh, daha nə qədər yazım bu erkən vidalardan, vaxtsız ayrılıqlardan? Bəlkə, elə anam məni bu dünyaya həsrət çəkmək üçün gətirib?! Görünür, mən bu yükü daşımağı bacaran tək-tük güclü və səbirli insanlardanam...

Mən artıq qəmli notlarda yazmağı yekunlaşdırmaq istəyirəm. Məktubumun son cümlələrini həyatımda məni məmnun edən yeniliklə sonlandırmaq istəyirəm. Hər zaman elə zənn edirdim ki, səni sevdiyim qədər başqasını sevə bilmərəm. Hər şey isə əksinə oldu və illərdir sənə hiss etdiklərimin ikiqat daha çoxunu üç gündə başqa birinə hiss etdim. Bu xəyanəti sənə yox, öz sevgimə əsla etmək istəməzdim, amma yerinə başqa birini qoya bildim. Onun gözlərinin içinə hər baxanda: “gözlərin aldı məni, kəməndə saldı məni...” mahnısının sözləri səslənir qulağımda. Elə hiss edirəm ki, baxışları ömrümü uzadır. Onun gülüşündə cənnəti hiss edirəm. Üzünə baxmaqdan o qədər zövq alıram ki, hər cizgisini əzbər bilirəm artıq. Elə hiss edirəm ki, onun əksi evimin hər küncünə öz kölgəsini salıb. Həm də sənin kimi mərhəmətsiz, duyğularını itirən insan deyil o. Sevməyi bacarmasa belə, yanımdan bir saniyə belə ayrılmır. Onun varlığı məni gücləndirir. İllərdir gülüşü üzündə kilidlənən qız kimi hiss edirdim özümü. Gülüşümün kilidinin açarı onda imiş, sən demə. Sadəcə, bir anlıq göz-gözə gəlməyimiz kifayətdir: sol yanağımdakı qəmzəmin görsənməyi üçün. Heyif, sevgini illərdir səhv qapıda axtarırdım. Nəhayət, özümə aid və ruhumun dərmanı olan o insanı tapdım. Bax, sənin də cavabsız qoyduğun məktubların böyük bir sevgini bitirdi... Aqşin Yenisey gözəl yazıb:

Sənə məktub yazıram...
Yazıram ki,
Bağışla,
Burda hava pis keçir,
Ara vermir yağışlar...

ESSE



# DÜZÜLÜŞ VƏ MÖVCUDLUQ

Sadıq QARAYEV

– O turşunun dadına baxmaq olar?

– Əla turşudu, buyurun baxın – satıcı bunu deyib, üç kiloluq şüşə balondan dəmir tutqacla kələm çıxarıb, mənə uzatdı.

Alıb yeməyə başladım, düzdür, anamın qoyduğu turşulara çatmazdı, O, əlinə keçəni – kələm, kal pomidor, ta nə bilim nələri yığıb qırx kiloqramlıq “filyak”a doldurar, nəyi, necə əlavə edər, bilmirəm, heç özü də bu işləri xüsusi qaydalarla eləməz, amma turşusu əvəzsiz olar. Ancaq bu turşu da çox dadlı idi, kimdirsə, peşəkar imiş.

– Bir kiloqram çəkin, – dedim.

Turşunun dadından zövq ala-ala günortadan düşündüyüm fikirlər yenidən ağlıma gəlməyə başladı…

Ağaclara baxırdım, onlar canlıdırlar... Canlı olmaq xüsusi bir mahiyyətdir. Nədir bu sirri-Xuda? Ağaclar ayrı-ayrı orqanlardan, orqanlar hüceyrələrdən ibarətdir, hüceyrənin öz elementləri var ki, onları da xırdalayanda kimyəvi maddələrə, molekul, atomlara gedib çıxır. Aha molekul, atomlar canlı deyil axı...

– Buyurun, üç kiloqram etdim.

– Yaxşı etdiniz, ama elə edin, yolda suyu süzülməsin, – deyib pulu verdim.

Yaxşı, belə çıxır ki, cansızların xüsusi düzülüşü, yan-yana gəlməsi canlı mahiyyəti yaradır... Eyni növ atomların fərqli cür düzülüşü müxtəlif xassəli materiya ortaya çıxarır. Məsələn, eyni cür karbon atomlarının fərqli düzülüşündən qrafit, kömür, almaz ortaya çıxır... Demək, nə sirr varsa bu düzülüşdədir, nəyin nəyin yanında olmasından asılıdır. Məhz bu düzülüş qaydası ALLAHDAN gəlir. Onun sayəsində düzülüş saxlanılır.

Birdən düşündüm ki, nəzəri baxımdan ALLAH bir anlıq yox olsa (Əstəğfurullah), bu düzülüş forması o an pozular, ağaclar, eləcə də heç bir canlı qalmaz. Maqnitin cəzbetmə, itələmə qüvvəsi, yerin cazibəsi də itər. Deməli, hər şey o anda yox olar.

Diqqətimi yolun qırağında, tut ağacının altında oturmuş, arxası mənə tərəf olan bir kişi cəlb etdi. Nəsə eşələnirdi. Aha, torbadan “çubuş” (kiçik araq şüşəsi) çıxardı...

Ona, bəlkə, turşu verim? – dərhal ağlımdan keçdi.

Ancaq camaatın içində əlimi necə salım turşu çıxarım, ona nə deyim verim? Ərincəklik, utancaqlıq və etinasızlıq yan-yana düzüldü.

Aptekə tərəf çöndüm, qızdırmasalan dərman almalıydım. Qızdırma... Bu nədirsə yüz faiz düzülüşün cüzi də olsa pozulmasıdır. Başqa cür necə ola bilər ki?

İnsanda canlı olmağı, deyək ki, ruhla əlaqələndirək, bəs heyvanlar, bitkilər? Deyək ki, canlı olan hər şeyin ruhu var, bəs su niyə mövcuddur? Axı o da iki – yanan və yanmaya kömək edən

qazdan yaranır, özü yanğını, suzluğu söndürəndir... İnsan ölür, beş dəqq əvvəl isə sağ idi. Bu beş dəqqədə nə dəyişdi? Hər şey həmənki deyil? İlk baxışda hər şey yerindədir.

Aptekçiyə baxıram, o, keçəldi. Düşündüm ki, bu qədər dərman istehlaçısı, onu satan var, çoxu da keçəl, bə niyə başlarına dərman düzəltmirlər? Keçəllik də düzülüş pozuntusudur... Deməк, satdıqları pul tələsidi..

Üç-dörd cür dərman təklif etdi, ən ucuzunu seçdim, onsuz da faydası yoxdu, düzülüşü pozulmuş orqanizmi özü düzəltməsə, heç nə kar etməz ki... O ki qala yaranandan düzülüşü pozulmuş dərmanlar ola…

Ölü ilə diri insanın fərqi orqanizmin ən kiçik elementllərinin düzülüş fərqidi... İnsanın düzəltdiyi şeylərdə də belədir. Təsəvvür edin, bahalı bir aftomobil düzəldirsən, hər şey var, mühərrik yoxdur, lap mühərrik də var, kiçik bir detalı yoxdur, yaxud elektrik sistemində bir məftil qırılıb, aftomobil işləməyəcək. Demək, mövcudluq bütöv sistemin ideal düzülüşündən asılıdır.

Hadisələr də belədir. Müharibədə məğlubiyyət və zəfər də bütün detalların ideal düzülüşündən asılıdır. Vaterolloda yağış imkan vermədi ki, Napoleon toplarını vaxtında istədiyi kimi düzsün, o, bütün müharibələri əsgər və toplarını ideal düzə bilmək istedadıyla uda bilmişdir. Bu dəfə yağış imkan vermədi, məğlub oldu. Belə çıxır ki, İlham Əliyev öz ordusunu zəfər çalmaq üçün ideal düzmüşdür. Elə siyasətini də.

Qarşı tərəfdə isə hər şey vardı – yüksəkliklər, çoxqatlı keçilməz sədlər, dəqiq artilleriya sistemləri və s. Hər cür üstünlük. Ancaq nəsə çatmırdı, ya ürək vurmurdu, ya beyin işləmirdi, ölü idi...

Həmən kişinin yanına yenidən çatdım, ona turşu verməmək düz olmazdı. Yaxşılıq etmək, onun zövq almağına səbəbkar olmaq hissləri yanaşı düzüldü. Bəlkə, elə bütün hərəkətlərimizin səbəbi müxtəlif motivlərin yanaşı düzülməsindən yaranır. Ağıl və hisslərin cərgəsində düzülür. ALLAH rəhmət eyləsin ədəbiyyat müəllimənmiz Solmaz xanıma, sinifdə səs-küy çoxalanda kübarcasına, qəribə zərif və ötkəm səslə:

– Xahiş edirəm, hisslərinizi cilovlayın, – deyərdi.

Yaxınlaşdım həmən kişiyə.

– Salam

...

– Turşu verim sizə, istəyirsiz?

– Hə, istəyirəm.

– Bir qab gətir, verim, – deyib əlimi o biri əlimdəki çoxlu sellofan torbalardan birinin içinə saldım.

Bir ovuc turşu qoydum.

– Nə bildin içirəm?

– Bilmədim içirsiz, amma içməli havadı, turşu da olsa, ləzzətli olar.

– Çox düz deyirsən – sağ ol, deyib kefi kök tez tutun dibindəki “evinə” getdi.

Onun kefi düzəlmişdi, turşudan çox, içməli hava olmasını vurğulamağım xoşuna gəlmişdi. İndi rahat içəcəkdi. Axı hamı ona içdiyinə görə başqa cür baxırdı. Necə başqa cür? Normal münasibətin pozulmuş düzülüşündə...

Bəs onda necə olur ki, bütün qaydalara riayət edilərək xüsusi düzülüşlə qoyulmuş satlıq turşular anamın xaotik qaydada qoyduğu turşudan dadsız olur? Demək, hər nizamlı baxış da ən düz olmaya bilər...

Evə çatırdım. Həmişəki kimi bu gün də faydalı işim nə oldu? – Sualına cavab verirdim: o kişiyə turşu vermək.

Adətim üzrə, çox vaxt olduğu kimi, səhər, günorta heç nə yeməmişdim, odur ki, yeməyə bərk girişmişdim. Həm də qulaq asırdım, danışırdılar, daha doğrusu, düzürdülər: Hazırlıq pulu, evə alınası ərzaq, telefon köhnədi, işləmir, ta nələr, nələr, problemlər...

Birinci sinfə gedən qızım yaxınlaşır, dəftəri uzadır:

– Ata, bax, ulduzlayımın sayı 12 olub...

Bütün problemlər yaddan çıxır elə bil. Demə, ailə də problemlərin, fərəhlərin, sevinclərin, sevgilərin qəribə düzülüş formasıymış.

Deyəsən, doyuram, daha turşu ləzzət eləmir, qocalığın sonlarında yaşamaq kimi... Bəlkə, elə həyat özü qəribə hadisələrin, ömürlərin, düşüncələrin, hisslərin özünəməxsus düzülüşüdür? Bu cür gözəldir, belə dadlıdır?

Eləcə də bütün mövcudluqlar xüsusi düzülüşün nəticəsi, görünənidir.

Nizamlı, həm də nizamsız...

Əslində, xaotikliyin, nizamsızlığın özündə də bir nizam vardır, yoxsa Laləzərin turşuları belə dadlı olmazdı...



Təranə DƏMİR

# ƏLİ BƏY AZƏRİ VƏ "ERMƏNİ BORİSOV"

Söz müqəddəsdi. Ona məhəbbətlə yanaşmağı sözə öz möhürünü vuranlardan – onların çeşid-çeşid söz və fikir xəzinlərindən öyrənmişik. Öyrənmişik ki, sözə əliboş, ürəksiz toxunmaq olmaz. Toxundunsa, səndən qaçacaq. Yazarlar (əsl yazarlar) heç vaxt qələmi əlinə könülsüz almaz. Əks halda qələm də, vərəq da yiyəsindən küsər. Əsl söz də hər deyəndə qonmaz ruhuna. Axı yazarların ilham pəriləri də özləri kimi bir az dəli, bir az küsəyən, bir az nadinc, bir azca da tənbəl olur. Amma gəldisə də, getmək bilmir. Yapışır yaxandan. Məcbur edir ki, onun dediyini eşidəsən. Onun kimi görəsən, onun kimi düşünəsən. Məqsədinə çatanacan sənə dinclik, rahatlıq vermir. Ona görə də ruhu göylərdə uçan yazarlar sözdən möhkəm tutur. Söz ona, o da sözə arxa durur.

Bəzən gözümdə yazarları Tanrıya, yazıb-yaratdıqlarınısa adama bənzədirəm. Axı yazarlar da Tanrı kimi yoxdan var edəndi. Onlar da yaradırlar. Yaratdıqlarına nəfəs, can verirlər. sözün üstündə əsirlər, soyuqdan, küləkdən, yağışdan qoruyurlar. Elə Tanrı kimi...

Qələminə söykənən, həyatın sərt üzünə sözüylə duran, düşüncələrinə sahib çıxan yazarlarımızı (yaradanlarımızı) bu baxımdan ən ali kürsüyə, Tanrılıq kürsüsünə qaldırıb qoymaqda yanılmıram, məncə.

Yazılan hər şey yazarın övladıdı. Pisiylə, yaxşısıyla onundu. Yaxşı bilirlər ki, yaratdıqlarına sahib çıxmasalar, itib-batarlar ortalıqda. Sonra zərrəsi də ələ gəlməz.

...Sözdən söz tutduq bir az.

İndi isə vətənin keşiyində durduğu qədər də sözün keşiyində duran qələm dostumuz Əli bəy Azərinin yaradıcılığına keçid etmək istəyirəm .

Əli Azəri hələ kiçik yaşlarından sözə könül verənlərdəndi. Lap uşaqlıqdan Azərbaycanın müxtəlif mətbu orqanlarında məqalə və yazıları ilə oxucuların mərkəzində olub. Meyli jurnalistikaya olsa da, tale onu tamam başqa səmtə yönəldib. Ömrünü hərbiyə bağlayıb. Sözünü hərb meydanında dediyi vaxtlarda da qələmini yerə qoymayıb amma.

Bir-birindən məzmunlu nəsr əsərləri yazıb. Onun "Yurd nisgili", "Şah bərəsi", "Generalın yefreytor vəkili", " Məhəbbət piyaləsində zəhər" və s. kimi irihəcmli əsərləri, həmçinin çoxsaylı hekayə və publisistik yazıları oxuculara yaxşı tanışdı. Dəfələrlə yaradıcılığı mükafatlandırılıb və müxtəlif müsabiqələrdə qalib olub. Əsərləri müxtəlif dillərə tərcümə edilib. Həm də iyirmidən çox əsərin redaktorudu. Sevdiyimiz "Xəzan" jurnalının yaradıcısı və təsisçisidi. AYB-nin ən şıltaq üzvüdü həm də.

Bir sözlə, qələm əhlinə, geniş oxucu auditoriyasına yaxşı tanış olan bir imzadı Əli bəy Azəri.

Sözünə söykənən, həqiqətin əlindən tutub işığa çıxaran, doğruları həyat amalına çevirən yazıçı üsyankar olduğu qədər də mülayim və səmimidi. Mübaliğəni sevmir və mümkün olduğu qədər də tərifdən qaçır (Heç mən də yazarı tərifləməyi sevmirəm. Ayağı yer tutar deyib ayaqyeri qoyuram bir az).

Vaxtım olduqca Əli bəyin yaradıcılığına da nəzər salıram. Ümumiyyətlə, ruhumu tərpədən yazılara biganə qalmıram. Əli bəyin qəhrəmanlarını çox vaxt elə özünə bənzədirəm. Obrazlarında çox vaxt elə müəllifin özünü görürəm. Oxuduqca adama elə gəlir ki, yazıçı özünü, yaşadıqlarını yazır. Təsvir etdiyi səhnələr canlıdı. Pafosdan və dəbdəbədən uzaq yazır, əsasən. Bəzəksiz-düzəksiz. Ümumiyyətlə, Əli bəy sadəliyi sevən yaradıcıdı. Mümkün olduğu qədər reallığı əks etdirməyə çalışır. Fikirlərini sözlə boyamır. Konkretlikdən və həqiqətlərdən yapışan yazardı. Bəlkə, bu xüsusiyyətidi onu oxucuya yaxınlaşdıran, sevdirən. Azəri hər yazısında özüdü. Sözünü uzaqdan tanıyırsan. Öz yolunu, dəstxəttini tanıtmağı yaxşı bacarır. Zənnimcə, bu da bir uğurdu. Heç kimə bənzəməmək, özü olmağa çalışmaq hər yazara nəsib olan xüsusiyyət deyil.

Ümumiyyətlə, Əli bəy Azəri maraqlı insandı. Bir az da sirli.

...Bu yaxınlarda, elə tez-tez bizi sözünün ətrafına yığan, işığına çağıran yazıçı yenicə tamamladığı povestini – "Erməni Borisov"u elektron ünvanıma göndərdi. Oxumaq, müzakirə etmək, fikir bildirməkçün (Tənqiddən də qaçan deyil). Düşüncəsinə, istedadına, qələminə bələd olduğumçün bildim ki, bu əsər də maraqlı alınıb. Yubanmadan oxumağa başladım (Həm də bu boyda işin-gücün içində). Elə ilk səhifəsindən yanılmadığımı anladım... Əsəri oxuduqca özümü hadisələrin içində hiss etdim. Düşdüm ötən əsrin burulğanlarına, girdabına. Çıxa bilmədim. Oxuduqca əsər məni özünə çəkdi… Hadisələrin bir-birilə zəncirvari bağlılığı məndə xüsusi maraq oyatdı həm də. Axı başdan-başa yaşadıqlarımızı, əzablarımızı qələmə almışdı. Bu gündən dünənə qayıtdım səhifə-səhifə. Döndüm 80-ci illərə. Ya bəlkə, ondan da əvvələ. Əzablarımıza, qorxularımıza, iztirablarımıza, yaşamaq istəyib yaşaya bilmədiklərimizə səyahət etdim… Gəncliyimiz, buxovlanan arzularımız, çiliklənmiş ümidlərimiz – hamısı təzədən varaqlandı gözümün önündə. Fikirləşdim ki, gör nə boyda çətinlikdən keçib gəlmişik. Həm də zamanı qurban verə-verə, daşdan, kəsəkdən keçə-keçə aşmışıq bu boyda dağı. Bu günümüzə şükür edə-edə fikirləşdim həm də. Əsərin qəhrəmanı Toğrulla elə ilk tanışlığımızdan saflığı, döyüşkənliyi, məğrurluğu, sadəliyi ilə Əli bəyi xatırladım. Mənə elə gəldi ki, bütün hadisələr elə yazıçının ətrafında cərəyan edir. Bir tərəfdə təmiz, saf qəlbli Azərbaycan xalqı, bir tərəfdə kreslo hərisi məmurlar, bir tərəfdə yenidənqurma və demokratiya adı altında gedən qorxunc ictimai-siyasi proseslər, hərc-mərclik, saxtakarlıq, xaos, bir tərəfdə ömür boyu bu xalqın çörəyini yeyib özünə qənim kəsilən erməni şovinizmi. Bəlli yaşımız olduğu üçün bu hadisələrin canlı şahidləri kimi təkrar yaşadım o illəri. Bir az da ağrıyla, bir az da müdrikcəsinə. Başımıza gələn bəlaların arxasında dayanan qüvvələrə söyə-söyə həm də. Əsərdəki hadisələr yerini dəyişdikcə yeni nüanslarla rastlaşdım. Yazıçı məni Bakıdan tutmuş, Yerevanacan müxtəlif hadisələrlə üz-üzə qoydu. Əsərin adı da maraqlıdı."Erməni Borisov". "Arxalı köpək qurd basar" misalı yadıma düşdü.

Əsəri oxuduqca təpədən-dırnağacan milliyyətçi olan erməni xalqının (xalq demək olarsa) məqsədlərinə çatmaqçün hansı oyunlardan çıxmasının bir daha şahidi olursan. Özü də Əli bəyin öz üslubunda. Əsərdə hadisələr elə ustalıqla və sadə dillə təsvir olunub ki, elə bilirsən heç aradan 30 ildən çox zaman keçməyib. Bizim vəzifə hərislərimizin böyük rus sevgisi, bu "sevgi"dən doğan xəyanətlər, xəyanətlərdən yaranan faciələr bir-bir adamın gözünün önündə canlanır. Qurdla quzunun bir yerdə otladığı zamanlar olsa da, üzdə "sakitçilik" hökm sürsə də, daxildə gedən çəkişmələr, hərc-mərclik, qonşuların bizə erməni münasibəti əsərdə açıq-aydın hiss olunur. Elə bil ki nəyəsə hazırlıq gedir. Toğrul suallar girdabında batır. Qonşularımızın düşmən mövqeyi, şimaldan əsən soyuq küləklərin ölkəmizə təsiri və qaraguruhçuların yalançı hay-küyü Toğrulda mübarizə əzmi yaratsa da, təkdi. Həyat yoldaşı belə onun yanında deyil. Hər vəchlə Toğrulu öz yolundan uzaqlaşdırmağa çalışır: "Bunlar sənin nəyinə lazımdı, ay Toğrul? Demokratiya aşını bişirən özü bilər necə yedirər. Sən axı kimsən? Adi bir kinematoqrafçı". Bütün bunlara baxmayaraq, Toğrulu inadından döndərə bilmir. Əslində, qadın da hər şeyi anlayır, amma mübarizənin sonunun da nə ilə nəticələnəcəyini yaxşı bildiyi üçün susmağı seçir. Bir tərəfdən o da haqlıdı. Bütün bunlara baxmayaraq, Toğrulu sonda meydandan uzaqlaşdırırlar. Elə sapı özümüzdən olan baltalar. Amma adama elə gəlir ki, Toğrulun mübarizəsi də kortəbiidi, pərakəndədi. Yetərincə üsyankar deyil. Ona görə də tez uduzur. Bu isə oxucunu məyus edir. Axı oxucuyçün əsərin qəhrəmanı axıracan qəhrəman qalmalıdı. Bu isə yetərincə çətindi. Ən ideal qəhrəmanın da bir zəif cəhəti olur. Toğrulun da zəif cəhəti yolu axiracan gedə bilməməsidi. Amma mənə elə gəlir ki, bu məğlubiyyətin özü də bir qalibiyyətdi. Qarşıda Toğrulu bütöv qələbə gözləyir. Fikrimcə, əsər natamamdı. Yazıçı onu bu günəcən gətirməlidi. Oxucunu intizarda qoymaq olmaz. Toğrulun sonrakı taleyi müəmmalı qalır. Məncə, onu mübarizə meydanından uzaqlaşdırmaq növbəti mübarizənin başlanması deməkdi. Axı hər şeyə üsyan edən adam belə asanlıqla məğlub ola bilməz. Əsərin qəhrəmanının mütərəqqi ideyaları bu günəcən gəlib çıxmalıdı. 80-ci ildən üzü bəri hadisələri təsvir edə-edə, başımıza gələnləri yazıçı təxəyyülünün süzgəcindən keçirə-keçirə həm də. Zənnimcə, povesti böyüdüb irihəcmli roman səviyyəsinə çatdırmaq lazımdı. Bu, mənim fikrimdi, əlbəttə. Bütün bunlara çatmaqçün Əli bəyin yetərincə potensialı və sözü var. Onsuz da son söz yazarındı. Mənə isə yazıçıya bolluca oxucu sevgisi arzulamaq qalır. Uğura gedən yol məhz sevgidən başlayır. Bu sevgini qazanmaqsa elə də asan deyil. İnanıram ki, hər şeyə rəğmən, bu əsər də seviləcək. Bütün əyər-əksiyi ilə "Erməni Borisov" da bir uğurdu. Sonrasını zamanın ixtiyarına buraxaq.



Kəmaləddin QƏDİM

## KİMİNSƏ UNUDUB GETDİYİ ADAM

Bir ac sərçəsinə dənəmmişəm mən,
Bir tox sərçəsinə ögeyəm, yadam.
Bu yolayrıcında mənəmmişəm, mən –
Kiminsə unudub getdiyi adam.

Həsrətə halım yox, dərdə tabım yox,
Dözümü hardasa qoyub gəlirəm .
Bitməyir özümlə haqq-hesabım, yox,
Özümü hardasa qoyub gəlirəm.

Baxın, bu qurağa axan su mənəm,
Özüyəm, qurağın özüyəm ya da.
Dəyişik salmayın, mənəm, bu mənəm –
Özünü hardasa axtaran adam.

Bir qadın sevmişdim, şirin, çox şirin,
Şəkərdi, unutdum, baldı, unutdum.
Gözlərim ardınca yeriyib getdi,
Əllərim əlində qaldı, unutdum.

Nə hələ gün düşür o çəkən dağa,
Nə hələ o adlı yaram sağalıb.
Vallah, əzrayıl da tapmır almağa,
Canım o qadının yanında qalıb.

Bir ac sərçəsinə dənəmmişəm mən,
Bir tox sərçəsinə ögeyəm, yadam.
Bu yolayrıcında mənəmmişəm, mən,
Kiminsə unudub getdiyi adam.

## HƏLƏ ZAMAN TUTUR, VAXT TUTUR MƏNİ...

Hələ zaman tutur, vaxt tutur məni,
Hələ özü bilən sayaq saxlayır.
Unutmaq istəyən unudur məni,
Kimdəsə var bir az maraq, saxlayır.

Xəlvət dayansa da qəsdimə ölüm,
Uca qamətimdə, şəstimdə ölüm.
Gəzdirir gözünün üstündə ölüm,
İlahi, nə gözəl qonaq saxlayır...

Ətrafda nə varsa adamsayağı,
Yerişlər, duruşlar saxta, bayağı.
Gör necə götürür üzlər boyağı,
Üzləri gör necə boyaq saxlayır...

Qərib şəhərlərin, qərib köylərin
Dustaq adamları, zindan öyləri.
Nəyin üzərində durur göyləri,
Göyləri hansı güc, dayaq saxlayır?

Bilmirəm yuxumu, gerçəkmi adı,
Vallah, bir başqadır ləzzəti, dadı.
Hər gün ziyarətə gəlir bir qadın,
qəbrimin yanında ayaq saxlayır.

Nə yaman qəribə, qərib bu dünya,
Nə üzlər, sifətlər görüb bu dünya...
Divini yuxuya verib bu dünya,
Hərdən Cırtdanını oyaq saxlayır.

## QARI NƏNƏMİN SON GÜNLƏRİ

Oturur, ağrıyır, durur, ağrıyır,
"Allahım bu nə can, bədən?" deyinir...
Gərək tez gələydi, deyir, bu gələn,
Gərək getməyəydi gedən, deyinir...

Qalmayıb ağrının ləzzəti, dadı,
Ayıra bilməyir qohumu, yadı.
Üstdə "yarı gəlin, yarı qız" adı,
Tənha qoyub gedib dədəm, deyinir...

Deyirəm, bəlkə də, azı, ən azı
Darğındı, küskündü, çəkilmir nazı.
Kimdən narazıdı, nədən narazı,
Özü də bilmir ki, nədən deyinir...

Elə uzun-uzun yollara baxır,
Torlanmış gözündə şimşəklər çaxır.
"Harada sülənir bu ölüm axı,
Gəlib çatmadımı vədəm?", deyinir...

## MƏN ELƏ SONRAKI AĞIL KİMİYƏM

Diksinməz ahıma, naləmə Tanrı,
Çatsın adamlara naləm, çətin ki...
Qutsaldır, and içib qələmə Tanrı,
Büdrəsin əlimdə qələm, çətin ki...

Bu şər dedikləri minillik şərsə,
Hələ çox gedəcək işimiz tərsə.
Aləm ölər, – deyir, – alim ölərsə,
Alim ölüb gedir... aləm, çətin ki...

Əlimin bayrağı, ələmi dərddən,
Bağrıbadaş olur beləmi dərddən?
Eşq ilə tutmuşam şələmi dərddən,
Çətin, ağır gələ şələm, çətin ki...

Bir az son kimiyəm, axır kimiyəm,
Bir az röya kimi, nağıl kimiyəm.
Mən elə sonrakı ağıl kimiyəm,
Qayıdıb başıma gələm, çətin ki...

## ÜSTÜNDƏ SƏBRİN OLMAZ?

Hər quş xəbər gətirməz,
Hər quş göyərçin olmaz.
Nə yuxular görərsən,
Birisi də çin olmaz.

Ha qoru, çək keşiyin
Bu bumbuz, boş beşiyin.
Yaşarsan, ev-eşiyin,
Ölərsən, qəbrin olmaz.

Vaxt da kəskin, sərt gələr,
Əldə min cür şərt gələr.
Bir gün Qiyamət gələr,
Hesabın, cəbrin olmaz.

Gözlərində nəm artıq,
Kədər artıq, qəm artıq.
Dözə bilmirəm artıq,
Üstündə səbrin olmaz?

## ÇƏTİNLƏR BU QƏDƏR ASAN SEVİLMƏZ...

Yarımaz dünyaya hər gələn adam,
Dünyaya hər ayaq basan sevilməz.
Gözdən uzaqlarda köhnələn adam,
Qaydan bəyənilməz, yasan sevilməz.

Zaman bir başqadı, qardaş, sən başqa,
Torpaqda dən başqa, saçda dən başqa.
Üstündə kağızdan, qələmdən başqa
Bir şey tapılmayan masan sevilməz.

Söylə, görmədinmi darda, çətində
Nələr zahirdəydi, nələr bətndə?
Sevilməz Yezidlər səltənətində,
Sevilməz Hüseyn, Həsən sevilməz.

Çox da korun-korun əriyən şamsan,
Nolacaq, əriyib dibinə damsan?
Hələ də deyirlər, çətin adamsan,
Çətinlər bu qədər asan sevilməz..

## PIÇILDAR MƏNİ

Mənsizlik məndən sonra
Əlbət, pıçıldar məni.
İtirmədiyim abır,
İsmət pıcıldar məni.

Tənhayam, təkmişəm ki,
Kimə gərəkmişəm ki?
O qədər çəkmişəm ki,
Həsrət pıçıldar məni.

Çox qalmaram canda, çox,
Damarda çox, qanda çox.
Eldən-obadan da çox
Qürbət pıçıldar məni.

Tək adı yar evində,
Nəfəsi dar evində.
Bir qadın var, evində,
Xəlvət pıçıldar məni.

Arıtmasa su daşı,
Göz yaşınla yu daşı.
Bu qayanı, bu daşı
Tərpət, pıçıldar məni...

**SEÇİM YANLIŞ OLUB...**

Bir ömür sürmüşəm yaxşı-yamanlı,
Çox da işim-gücüm çalışmaq olub.
Çox da ki, oğulun-qızın yanında
Alnım açıq olub, üzüm ağ olub.

Seçim yanlış olub, seçim, bəlkə də,
Gərəkmiş üstündən keçim, bəlkə də.
Ən böyük günahım, suçum, bəlkə də,
Bu bəxtlə, teleylə barışmaq olub.

Ha sev sevdiyini sev, gedən, artıq
Saçımda, başımda sevgi dən artıq.
Eh, mənim sevgim də, sevgidən artıq
Birinə öyrəşib, alışmaq olub.

Hərdən olmamışam özümdə, Tanrı,
Yox olub bu dünya gözümdə, Tanrı,
Bağışla şeirim də, sözüm də, Tanrı,
Sənin işlərinə qarışmaq olub.

**BİLİRƏM Kİ, MƏLƏK BİLİR...**

İtiriblər bir apaydın səhərdə,
Ya dumanda, çəndə məni, fərqi yox.
Gəzən yoxsa bu qosqoca şəhərdə,
Görən yoxsa məndə məni, fərqi yox.

Nəsən, yağış, çölün sudu, için su,
Sənə dözmək nədir ki, bir içim su.
İslanmışın yağışdan nə qorxusu,
Sən də islat, sən də məni, fərqi yox.

Son şərqimdi ac sərçənin oxusu,
Nəfəsim yox, dırmanım bu yoxuşu.
Ya torpağı yem eyləsin, ya quşu,
Bu bədəndə, təndə məni, fərqi yox.

Nə "baxaq", nə "görək" bilir Allahım,
Gərəkəni gərək bilir Allahım.
Bilirəm ki, mələk bilir Allahım,
Kim bilirsə bəndə məni, fərqi yox.

**ÇIXIN İÇİNDƏN BOYANIN**

Kimdi bu saxlayan məni,
Özünə bağlayan məni?
Kimdi, kim ağlayan məni
Qəbrin dalında gizlənib?..

Min ayəsi var kitabın,
Aç kitabı, haqqa tapın.
Elə hər kəs bir hesabın,
Cəbrin dalında gizlənib.

Bu şan-şöhrət, bu var, kişi,
Yaşamağa nə var, kişi?
Nə boyda lay divar kişi
Səbrin dalında gizlənib...

Çıxın içindən boyanın,
Məndən uzaqda dayanın.
Mən ölmüşəm bir həyanın,
Abrın dalında gizlənib...

**URUDSUZ GƏLMİŞDİ, URUDDU GETDİ**

*Qonşumuz Urudlu Aynişan xala yuxuma gəlmişdi*

Yuxuma gəlmişdi Aynişan xala,
Umudsuz gəlmişdi, umuddu getdi.
O qədər şad xəbər dedim ki, vallah,
Dərdini-qəmini unutdu, getdi.

Bir az yaş gəlmişdi yaşının üstdə,
Qırışlar artmışdı qaşının üstdə.
Dedim ki, Şuşanın başının üstdə
Sən deyən o qara buluddu, getdi.

Sonunda gücümüz gəldi kara, bax,
Sağaldı, korşaldı o bəd yara bax.
Artıq azad olub külli-Qarabağ,
Gözünün yaşını qurutdu, getdi.

Gördüm ki, danışmır nəsə Uruddan,
Qıymadım bir az da susa Urudddan.
Bir şeir oxudum Musa Uruddan,
Urudsuz gəlmişdi, Uruddu getdi.



Qürbət MİRZƏZADƏ
*Filologiya üzrə fəlsəfə doktoru*

# ADİLİYİN POEZİYASI VƏ YA POETİK DÜŞÜNCƏNİN BƏNZƏRSİZLİYİ

Keçən əsrin 70-ci illərində ədəbi yaradıcılığa başlayan Fərqanə (Fərqanə Habil qızı Mehdiyeva) 1964-c il fevral ayının 20-də Salyan rayonunun Ərəbqardaşbəyli kəndində dünyaya gəlib. Kənd orta məktəbində təhsilini başa vurduqdan sonra o, 1984-cü ildə Bakıda Əhməd Cavad adına Mədəni-Maarif Texnikumunun rejissorluq fakültəsinə qəbul olmuş, 1986-cı ildə buranın məzunu olaraq təhsilini tamamlamışdır. O, 1985-ci ildən “Aşıq Pəri” məclisinin üzvü idi.

Fərqanə Mehdiyeva 1986-1993-cü illərdə Salyan Mədəniyyət evində və Gədəbəy rayon uşaq kitabxanasında müdir vəzifəsində çalışmışdır. 1993-cü ildən Xətai rayonundakı 260 №li orta məktəbdə müəllim kimi pedaqoji fəaliyyət göstərmiş, 2021-2005-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsində ali təhsilini başa vurmuşdur. Bundan sonra fəaliyyətini Azərbaycan Yazıçılar Birliyinin ədəbi orqanlarında davam etdirmiş, əvvəlcə “Dünya” jurnalında ədəbi işçi (2002-2007), 2007-ci ildən ömrünün sonuna kimi isə “Ulduz” jurnalında poeziya şöbəsində redaktor və şöbə müdiri kimi çalışmışdır.

Ədəbi fəaliyyətinə görə Fərqanə Mehdiyeva “Həsən bəy Zərdabi” (2006), “Qızıl qələm” (2006), 2009-cu ildə isə Prezident təqaüdü ilə mükafatlandırılmışdır.

Mətbuatda şeirləri, nəşr olunan kitabları daha çox Fərqanə imzası ilə dərc olunmuşdur.

O, 2020-ci il may ayının 2-də uzun sürən xərçəng xəstəliyindən vəfat etmiş, may ayının 3-də Bakıxanov qəsəbə qəbiristanlığında dəfn olunmuşdur.

Bu qeydlər Fərqanə Mehdiyevanın bir qədər rəsmi tərcümeyi-halı barədə məlumat verir. Təbii ki, onun şair fərdiyyəti haqqında ən mükəmməl tərcümeyi-halı mətbuat səhifələrində vaxtilə işıq üzü görən şeirləri və bu nümunələrin yer aldığı bənzərsiz poetik axtarışlar kimi yadda qalan “Çəkdiklərim mənə bəsdir”, “Deyirlər şirindi dünya...”, “Payızın yanında gözlərsən məni”, “İkimiz darıxsaq...”, “Hayana gedib anam”, “Gedirəm torpağı qucaqlamağa” adlı poetik toplularıdır.

Fərqanənin “Nənələr” adlı ilk mətbu şeiri 1977-ci ildə Salyan rayonunda çıxan “Qələbə” rayon qəzetində dərc olunmuşdur.

Qeyd etmək lazımdır ki, Fərqanə xanım poetik ruh və nəfəs etibarilə orijinal, heç kimə bənzəməyən, özünəməxsus fikir və düşüncə dünyası olan istedadlı bir şair idi. Onun xalq şeiri ilə modernist şeiri ortaq, ənənəvi forma biçimində təqdimi tamamilə yeni bir yaradıcılıq tapıntısı kimi qiymətləndirilə bilər. İlk baxışda bir-biri ilə heç bir oxşarlığı və bağlılığı olmayan şeir təmayülünü eyni məxrəcə gətirməsi də şairin istedadından, yaradıcılıq fitrətindən irəli gəlirdi.

O, hamının gördüyü, yaxından müşahidə etdiyi adi hadisələri: ailə-məişət, təsərrüfat məsələlərini, insani münasibətlərdə nəzərə çarpan dəyişmələri, cəmiyyətdə baş verən ziddiyyət və aşınmaları sadəcə sadalama yolu ilə getmir, ona işıqlı, duyğulu səmimiyyət qatır, buradakı gerçəkliyi poetik-fəlsəfi bir ovqatla poeziyanın sənət ecazına çevirməyə nail olurdu.

Ehtiyacı, məhrumiyyəti, sosial-mənəvi sıxıntını Fərqanə xanım çox böyük sənətkarlıqla poeziya faktına çevirir, onun hava, su və ruhi-duyğusal bir iksir kimi ehiyacların, sarsıntıların mənəvi təminatçısı olmaq qüdrətinə oxucunu inandırmağa nail olur:

Birtəhər keçinim, eh... sabah yenə
Əllərim ehtiyac qulu olacaq, –
Qoy xörək əvəzi atım qazana,
Bilmirəm ya quru, sulu olacaq.

Mən düzüm sözləri vərəq süfrəmə,
Kim bilir, familli, adlı çıxacaq,
Ürək damarından yaranan şeirin
Çox güman tikəsi dadlı çıxacaq.

Bu bəndlər şairin "Ehtiyac" şeirindəndir və bu misralarda adi həyati ehtiyacları metaforalarla poeziyanın arsenalına çevirmə istedadını sübut etməyə elə bir ehtiyac da duyulmur. Diqqət yetirilərsə, burada bənzəyənlə bənzədilən arasındakı oxşarlığı, mütənasibliyi şair poetik tapıntı səviyyəsində təqdim edir, həqiqətən də, "vərəq süfrə"nin rəngi, forması arasındakı uyğunluğu ustalıqla tapıb üzə çıxarır. "Ehtiyac"dakı son poetik akkordlar, zənnimizcə, şairin obrazlı düşüncə tərzinin bənzərsizliyi, orijinallığı barədə əyani təsəvvür yaratmaq iqtidarındadır:

Məni qınamayın, ürək qanımla,
Sözü qızardacam soğan əvəzi.
Özgə yol tapmadım, üz tutdum hara,
Qonağım olarsız, ay mən kimilər,
Şeir bişirəcəm sabah nahara!

Onu da qeyd etmək lazımdır ki, belə bir poetik ovqat, adi həqiqətləri mənalandırmaq qabiliyyəti sonrakı yaradıcılıq axtarışlarında Fərqanə xanımın şeir dünyası üçün dəyişilməz, stabil bir keyfiyyət göstəricisinə çevrilir.

Fərqanənin şeirlərindəki lirik-emosional duyğunun mahiyyətində çox vaxt adi təəssüratlar yox, konkret predmet və anlayışlar dayanır. Belə bir təqdimat, şübhəsiz ki, onun poeziyasına özünəməxsus ifadə manerası gətirməklə yanaşı, insan, həyat və zaman haqqında mücərrədlikdən çox uzaq bir düşüncə assosiasiyası yarada bilir.

Etnoqrafik cizgilərin fonunda insanın keçirdiyi hiss və duyğuların eyni müstəviyə gətirilməsi baxımından Fərqanənin "Təndir" şeiri ən mükəmməl nümunə hesab oluna bilər. Çoxları ilk baxışda belə düşünə bilər ki, bu şeirdə təndir, onda bişirilən, çörəyin ətri, rayihəsi haqqında poetik söhbət açılacaq. Etiraf edək ki, çox vaxt şeirdə belə bir ənənəvi, dəfələrlə təsvirə gətirilən məqamlarla tez-tez rastlaşmaq olur. Bu da bir həqiqətdir ki, belə hallar oxucu üçün adi, informativ təəssüratdan da o yana gedə bilmir.

Fərqanə xanımın "Təndir"ində icra olunan hal və prosesin özü, onun başına pərvanə kimi dolanan ananın ruhu-mənəvi dünyası, obrazlı şəkildə deyilsə, təndirin ovqatı üstündə köklənir:

Təndirin tüstüsü çıxanda başdan,
Anam gözlərindən su çiləyibdi.
Küt gedən təndiri ovutmaq üçün
Ərkyana təndiri şilləlǝyirdi.

Bu misralarda təndirə xas olan xüsusiyyətlərlə insan əhval-ruhiyyəsi çox incəliklə proyeksiya olunub. Fikir verin, kündənin ovudulması (əslində uşaq, bəzən də böyük ovudular), təndirin şillələnməsi çoxuna adi görünə bilən iş, icra prosesi kimi düşünülə bilər. Ancaq bu hamıya adi görünə biləcək mənzərəyə şair yeni məzmun, fəlsəfi ümumiləşdirmə gətirməyə nail olur, orijinal poetik mühakimələr irəli sürür.

Təndirin həsrətini, insan təmasından uzaq düşən görkəmini şair təsəvvür olunması mümkün olmayacaq bir sənətkarlıqla təsvirə gətirir və bu, sözün həqiqi mənasında ədəbi düşüncə üçün əsl tapıntı və poetik kəşf səviyyəsinə qaldırılır.

Doğma anası tək sevib təndiri,
Könlünə şipsirin ovqat olubdu.
Anam getməyəndə təndirə yaxın
Təndirin sinəsi çat-çat olubdu.

Tənqidçi Vaqif Yusiflinin belə bir yaradıcılıq məziyyətini obraz yaratmaq cəhdi kimi qiymətləndirməsində müəyyən həqiqət var: "Ümumiyyətlə, Fərqanə ən yaxşı şeirlərində obraz yaratmağa can atır və buna nail ola bilir. Vaxtilə mən onun "Təndir" şeirini xüsusi qeyd etmişdim və yazmışdım ki, Fərqanənin ən uğurlu şeiridir. Uğurunu onda görürdüm ki, Fərqanə elin müqəddəs od yeri-bərəkət yeri olan Təndiri poetik obraz səviyyəsinə qaldırmışdır. Təndirlə bağlı bizim poeziyada ilk dəfə ən gözəl şeirin yazıldığının şahidi olduq. Ancaq bu şeirin məziyyətini təkcə şairin Təndir obrazını mükəmməl yaratmasında axtarmaq doğru olmazdı. Şeirin bir uğuru da orada mükəmməl Ana obrazının yaradılmasıdır".

Ana, ümumilikdə götürüləndə, Fərqanənin yaradıcılığından qırmızı xətt kimi keçən müqəddəs bir mövzudur. Bir şair kimi onun yaradıcılığında hər şey anadan başlayır, hər bir hadisəyə, təfərrüata, mətləb və xüsusatlara münasibət anasız ötüşmür, ana münasibətindən kənarda qalmır. Bu əvəzolunmaz varlığa hər müraciətdə şair anaya xas olan bir gözəgörünməz səciyyəvi keyfiyyəti kövrək notlar üstə oxucuya çatdırır. Şair bu obrazı ətə-qana gətirmək üçün müxtəlif ədəbi üsul və vasitələrdən yararlanmağın adekvat variant və versiyalarını yaradır. Bunun ana-övlad münasibətlərində, ananın kənddən şəhərə göndərdiyi sovqatda övladının taleyindən nigarançılığı yaradan səbəblərdə, şəhərdə məskunlaşmada, sevgi və ailə həyatının anadan uzaq düşməyə bais olmasında axtarılması şeirdə yeni hadisə deyil, ancaq Fərqanə xanım belə bir uzaq düşmənin və həsrətin səbəblərini son dərəcə təsirli və inandırıcı detallarla, obrazlı təfərrüatlarla təsvirə gətirir ki, oxucu belə hadisəni sankı heç kəsin ağlına gəlməyən yenilik kimi qavrayır. Təfərrüata varmadan deyə bilərik ki, belə bir dərin lirizmlə, psixoloji məqamların poetik mətndə yaratdığı ovqat sənətkar təxəyyülün cazibəsində culğalaşır, vəhdət halına gətirilir, oxucu qəlbini riqqətə gətirir, nəticə etibarilə ananın mükəmməl poetik obrazının yaradılmasına gətirib çıxarır.

Bu baxımdan "Təndir"in başına pərvanə kimi dolanan anadan gələn istilik, hərarət, doğmalaıq



"Anama məktub"a çevrilir, "Anamın tayları köçür dünyadan..." da addım-addım yaxınlaşmaqda olan əbədi nisgilin, ayrılığın göz yaşaları içərisində xəbərini çatdırır.

"Anama" şeirində gözləri yollara dikilən ananın keçirdiyi hiss və həyəcanlar təsirli cizgilərlə yadda qalır. Şeirin səhlövhəsi altındakı ananın dilində səsləndirilən: "Hər şənbə, bazar günləri gözlərim yolda qalır, deyirəm, bəlkə, uşaqlardan gələn oldu".

Şeir belə başalayır:

Düşübdü borana, yağışa bilmir,
Özü öz içində haylanan anam.
Həyətə-bacaya sığışa bilmir
Hər bazar yollara boylanan anam.

Bəlkə, gələn oldu, – deyər özünə,
Xəlbiri fırlanır, ələyi gəlmir.
Günorta bişəni saxlar axşama,
Qazanı açmağa ürəyi gəlmir.

Övladları üçün kəndlə şəhər arasında məsafəqət eləyərək saçlarını yollarda ağardan ananın hər belə gəlişi nəvə-nəticələri üçün toy-bayrama çevrilsə də, bu gəliş-gedişin nəyin və nələrin hesabına başa gəlməsinin onlar fərqində deyil. Buna laqeydlik də demək olmaz.

“Anam şəhərə gedir” şeirində başdan-ayağa bu mətləblərdən söhbət açılır. Bu şeirdə kəndlə şəhər ayrı-ayrılıqda idealizə olunmur, biri o birindən üstün tutulmur, sadəcə olaraq, kənddən şəhərə gəlişin təəssüratları, qayğı və düşüncələri dilə gətirilir:

Çıxardıb başından kəndin tacını,
Ocaqda yan üstə qoyub sacını,
Amanat tapşırıb həyət-bacanı,
Anam şəhərə gedir.

Bu, kənd həyatının, kəndən şəhərə səfərə çıxan ananın hal və vəziyyətini, hiss və həyəcanlarını ifadə edən yaddaqalan bir poetik lövhədir, şair burada nənənin ətəyindən yapışan nəvələrin, həyətin-bacanın, toyuğun-cücənin, xoruzun, itin ana hənirindən, ana qayğısından uzaq düşməsindən dolayı yaranan nisgilini detalları ilə təsvir edir, oxucunu belə bir ovqatın yaşantıları ilə baş-başa qoyur:

Nəvələr yapışıb, savaşa baxın,
Sovqat yığımında yarışa baxın,
Sümsüyün sallayıb Alabaş, baxın,
Anam şəhərə gedir.

Müharibəyə – gedər-gəlməzə yollanan oğulların taleyinə yas tutan ananın sinəsini göynədən həsrət, əbədi ayrılıq “Qırmızı geyinə bilməyir anam” adlı şeirin əsas mövzusunu, ideya-bədii siqlətini qabarıq şəkildə nümayiş etdirir:

Həmişə başından aşır dərd-səri,
Bir sümük qalıbdı, bir də ki dəri,
Nə az, nə də ki çox – 41-dən bəri
Qırmızı geyinə bilməyir anam.

Şeirdə rəng effektindən sənətkarlıqla yarar - lanmaq, ondan istifadə yolu ilə əsas fikri, mənanı daha təsirli ifadə etmək bacarığı xüsusi olaraq nəzərə çarpmaqdadır:

Bir saçın ağ hörüb, bir qara qızlar
Anamın yaşıdı o qarı qızlar,
Görür ki, saralıb qara kağızlar,
Qırmızı geyinə bilməyir Anam.

Şeirin son bəndində ananın 41-dən qövr eləyən yarasının üstünə yeni bir yara vurulduğunu da şair dilə gətirir, xain, nankor qonşuların Qarabağ torpağına qanlı dişlərini qıcaması, əbədi-əzəli yurd yerlərinə göz dikməsi buna bir səbəb kimi göstərilir: *“Bağrının başında yara dağ kimi, Dolanır boynuna qara bağ kimi, Neyləsin, dərdi var Qarabağ kimi, Qırmızı geyinə bilməyir Anam. Məni də geyməyə qoymayır Anam...”*

Fərqanənin ana ünvanlı şeirlərindən sonra ana Vətənə, ana torpağa sirayət edən bir mehr və sonsuz sevgi hisslərinin ifadəsi gəlir. Əvvəlcə Ana ilə Vətənin bir sim üstə köklənməsini əyani olaraq təsdiqləyən “Ana, bizə vətən gəlib” şeirindən başlamaq daha münasib görünür, çünki burada bölünən, parçalanan vətənin ağrı-acıları, nisgil və həsrəti gözləri yol çəkən ananın obrazı ilə üst-üstə düşür, qəribə bir assosiasiya yarada bilir. Cənublu şair Elsevənə ünvanlanan şeirdə belə həmahəng səslənən məqamlar bu baxımdan diqqəti çəkir:

Yollar, yoxuşlar sevinib,
Gələn gedib, gedən gəlib.
Bölünməyib neçə yerə,
Arzu, istəyi tən gəlib.

Qılınc alıb sıyırdığı,
Zalım fələyin saydığı,
Nə zülmlə ayırdığı
Gözlərimdən itən gəlib.

Gör nələrin sorağıdır,
Duruşa bax, həsrət dadır.
Qonaq Allah qonağıdır,
Ana, bizə Vətən gəlib!

Bəzən ictimai-siyasi, sosial ədalətsizlikdən bəhs edəndə də şair Vətənə müraciət edir, dərdini, əndişələrini bu ünvana üz tutmaqla ifadə edir:

Kimin dilini kəsirlər,
Kimi dindirirlər, Vətən.
Kimi yuxarı qaldırıb,
Kimi endirirlər, Vətən.

(“Qoymurlar düşəsən yola”)

Sevgi, ev-eşik, ailə qayğıları da Fərqanənin bir şair kimi sevə-sevə, tez-tez müraciət etdiyi mövzulardandır.

Müsahibələrinin birində ona ünvanlanan “Qadın şair üçün ailə sırada neçənci yerdə durur? sorğusuna cavabda maraq doğuran məqamlar var. Burada şair yaradıcılığı üçün səciyyəvi olan bu

cəhəti belə izah edir: “Mənim üçün həmişə birinci yerdə olub. Çalışmışam ki, tərəzi heç vaxt əyilməsin. Danlanmışam  da, xörəyim də yanıb, dəmim də qaynayıb, amma əziyyətlərə qatlanmışam. Bir də  yaxşı şeir dinlənilәndə oxucu dərhal düşünər ki, bu şair evdə, eşikdə övladına, ailəsinə necədir, görəsən? Çalışmışam ki, bu suallar qarşısında utanmayım.

Hərdən mənə elə gəlir ki, ailə ömürlük cəza kaloniyasıdır. Yaxşı mənada. Düzdür, bu türmənin yaxşı, pis yerləri də var. Mən türmənin yaxşı yerindəyəm”.

“Sevgi şeirləri yaza bilmirəm” adlı  şeirdə Fərqanə yaza bildiyi mövzuların siyahısını təqdim edir, bu insani hiss və duyğuları dilə gətirməkdə çətinlik çəkdiyini səmimi şəkildə izhar edir:

Axırdan yazıram, başdan yazıram,
Torpaqdan yazıram, daşdan yazıram.
Ağacdan, budaqdan, quşdan yazıram,
Sevgi şeirləri yaza bilmirəm...

Şeirlə bölürəm bu tən dərdimi,
Vərəqlər üstündə bitən dərdimi.
Yazıram yurd-yuva, Vətən dərdimi,
Sevgi şeirləri yaza bilmirəm...

Ancaq “Bahar toyları” şeirində şair sevgidən, “torpağa, daşa çilənən təbəssüm”dən ilhamla, ehtirasla yazanda bizi bu həqiqətə inandıra bilmir və sevgi şeirləri ilə də hamını təəccübləndirə və heyrətləndirə bildiyini əyani olaraq nümayiş etdirir:

Təbəssüm çilənər torpağa, daşa,
Səadət günəşlə bölünər yarı,
Gələr ömrümüzə min sevinc ilə,
Gələr ömrümüzə bahar toyları.

Ürəyi uçunar qonşu qızların,
Cavanlar bəxtinə gözaltı edər.
Gələr ömrümüzə bahar toyları,
Ömrümüz, sən demə, bahardan betər.

“Ömür-gün yoldaşıma”, “Qadınlar, sıxmayın kişiləri siz”, “Mənzilin mübarək”, “Məni özünə bağla”, “Arabir vaxt tapanda”, “Demə cansız kağızdı”, “Baxışınla sığal çək”, “Payızın yanında gözlərsən məni”, “Dərdindən öləcəyəm...”, “Sevgimə güllələnmə düşür...”, “Mən sənə darıxmaq öyrədəcəyəm” kimi tam sadalamadığımız  nümunələr şairin bu qəbildən olan şeirlərindəndir.

Fərqanə xanımın yaradıcılığında epik nümunələrə təsadüf olunmur. Bunu onun yaradıcılığı üçün kəm-kəsir hesab etmək də doğru olmaz. Əslində, onun ayrı-ayrı şeirlərindəki təsvirə gətirilən lövhələr, bitkin süjet xətli poetik örnəklər bütöv bir  epik növün mənzərəsini tamamlamaq gücündədir.

Azərbaycan Yazıçılar Birliyinin və “Ulduz” jurnalının birgə layihəsi  seriyasından “Gedirəm torpağı qucaqlamağa”  adlı seçmə şeirlərdən ibarət kitabın, itkisini ürək ağrısı ilə dilə gətirən şeirlərdən, yaradıcılığını təhlil edən məqalələrdən, sağlığında işıq üzü görən kitabları haqqında yazılan rəylərdən, onunla aparılan sorğu və müsahibələrdən, vəfatı münasibətilə yazılan elegiyalardan, haqqında qələmə alınan xatirələrdən ibarət 415 səhifəlik “Mən sizə darıxmaq öyrədəcəyəm” toplusunun  nəşri, tələbələri və yetirmələri tərəfindən təsis olunan “Fərqanə ədəbi məclisi”  “Siz məni qoymayın şair olmağa”- deyən istedadlı şairin ədəbi aləmdə var olmaq, yaşamaq statusunu təsdiq edir.

Fərqanə xanımın “Şairin yaşı olmur” adlı şeirində şair taleyi barədə düşüncələrini belə ifadə edir:

Bu gedimli dünyada,
Ölsə də diri olur.
Ötüb keçən hər günü
“Aprelin 1-i olur,
Şairin yaşı olmur”.





Vasif ƏLİHÜSEYN

**DƏRD ELƏMƏ, ƏZİZİM**

Küçədə yağış yağır,
sel götürüb hər yanı.
Yuyur günahlarını,
təmizləyir dünyanı.

Sənin də günahın var,
düzün deyim, bağışla.
İndi fürsətdi sənə,
çıx küçəyə yağışda.

Qoy saçların islansın,
gözlərinə yaş dolsun.
Ürəyinə "heyif"lər,
ürəyinə "kaş" dolsun.

Dərd eləmə, əzizim,
günahsız insan yoxdu.
İndi nə çıxdın-çıxdın,
sabaha leysan yoxdu.

**KİNO ÇƏKİRSƏN**

Eh! İndi bələnmiş xına əllərin,
Əsirdi kiminsə baş hərfinə.
Özün öz könlünlə çıxıb gedirsən,
Mənim hisslərimin bircə səhvinə.

Hələ sızıldamır o daş ürəyin,
Qoy hava qaralsın, bir gecə olsun.
Ən yaxşı günümüz toy günündüsə,
Bəs ən pis günümüz, de, necə olsun?

Bəlkə də, oturub ötən günündən
Yanıb dəqiqəsinə külün əkirsən.
Səndən yeddi oğul, qız istədilər,
Olmaya-olmaya kino çəkirsən.

**KÖRPƏLƏRİN ŞƏKLİ**

Bütün müharibələrə
körpələrin yatdığı yerdə
şəklini göstərin,
onda anlayacaqlar
dünyanın nə qədər mənasız olduğunu

anaların qolları
saat kəfkiri kimi
yelləyir bu ağlağan uşağın beşiyini,

yellədikcə zaman ötür,
körpələr böyüyür,
əsgər olur.

**SİNƏSİNƏ MİNA BASDIRILMIŞ TORPAQDI ÖMÜR**

Sinəsinə mina basdırılmış
torpaqdı ömür,
Yaşayırıq, Allaha təvəkkül.

Gəl, istehkamı çağır,
irəlidə getsin,
biz də arxasınca –
qarşıdakı günləri qarşılamaq üçün.

Bax, ayağını itirən o adam
Hələ də peşmandı
Cızından çıxdığı üçün...



# ƏLƏMDƏN-NƏŞƏYƏ

Söhbət heç də Xalq şairi Süleyman Rüstəmin 1926-cı ildə yazdığı və sovet dövründə məktəblərdə tədris olunmuş eyni adlı şeirindən getmir. Mən şair Əli Nəcəfxanlının yaradıcılıq uğurlarından danışmaq istəyirəm. Daha doğrusu, məqsədim onun 30 illik işğal dövründə Qarabağ həsrəti ilə qovrulan ürəyinin poetik döyüntüləri və artıq azadlığına qovuşmuş "əsir" torpaqlarımızın vəsfinə həsr etdiyi şeirlərinə diqqət çəkməkdir. Çünki onun ən qəmli misralarından belə ümid boylanıb və o ümid, nəhayət ki, inama dönüb, şairin arzusu gerçəkləşib.

Bəri başdan deyim ki, Əli Nəcəfxanlının bir şeiri ilə təsadüfi tanışlıq oxucunu onun bütün yaradıcılığı ilə maraqlanmağa səsləyir. Şairin lirikası şeirsevərlərin gözləri qarşısında dumduru bulaqlardan su içib qaynaqlanan, tərtəmiz dağ havasını ciyərlərinə çəkib o ab-havanı misralara hopduran və nəticədə ədəbiyyatımıza yeni poetik nəfəs gətirən söz adamını canlandırır.

Onun yaradıcılığında Vətən mövzusu böyük yer tutur. Əli üçün Vətən anlayışı doğulduğu Sumqayıtdan başladı. Bu sevgi onunla birgə ata yurdu Yardımlıdan ana yurdu Laçına qədər boy atdı. Dağlara olan sonsuz sevgisinə görə Əli Nəcəfxanlını "Dağlar şairi" də adlandırmaq yerinə düşər. Şair dağ başında taxt qurub, dağlara vurulub, onlarla əhd-peyman bağlayıb:

Ucaldım, elə ki boyuna baxdım,  
Başına dolandım, ruhuna axdım.  
Mənim könül taxtım, sevgi paytaxtım,  
Eşqimin bəyanı – Vətən dağları!

Əli Nəcəfxanlının poeziyasına nüfuz etdikcə aydın olur ki, əzəmət, vüqar rəmzi olan dağlar onun ilham mənbəyidir. Şair qartaltək yüksəklikdə qanad çalmağı xoşlayır. Qarabağa qovuşmaq eşqilə qanadlanaraq ən gözəl uçuşun azad Vətən səmasında, ən şərəfli ölümün azad Vətən torpaqlarında olduğuna and içir:

Ən gözəl pərvazım – başının üstə,  
Ən gözəl ölümüm – dizində,Vətən!  
Özün sınağa çək məni bu sözdə,  
Hökm də sənindir, izn də, Vətən!

Şuşa dağlarının başı üzərini qara duman bürüyərkən Vaqifin, Natəvanın ruhu dolaşan o yerlərə əli çatmadığına şair çox təəssüflənir, özünü qınayır. Beləliklə, "Şuşanı görmədim gözüm dolusu" şeiri yaranır:

Şuşanı görmədim gözüm dolusu,  
Vaxtında getməyə vaxtım olmadı.  
Vaqifin məzarı qənimim olsun –  
Şuşanın dağları taxtım olmadı.

"Laçınsız" şeirində şair sinəsi yaralı qartaltək çırpınır dağlarsız. Qartal zirvəsiz yasaya bilmədiyi kimi, şair də Laçınsız yaşaya bilmir, Laçınsız keçirdiyi mənasız həyatdan gileylənir:

Dağlara qonmuşdu, dağlarda qaldı...  
Ürəyim çırpınan quşdu Laçınsız.  
Bu necə qovğadı, bu necə qaldı,  
Ruhum havalandı, uçdu Laçınsız.

Çapam səməndimi, çatam dağlara,
İlham kəməndini atam dağlara,
Sinə dağlarımı qatam dağlara,
Günüm-güzəranım puçdu Laçınsız.

Şair ucalarda, zirvələrdə görməyə alışdığı xalqının yerə enməyinə, çadırlarda yaşamağına dözə bilmir, onları yenidən o yüksəkliklərə səsləyirdi:

Ey çadır sakini, çadırdan sıyrıl,
Şanlı keçmişini xatırla, sıyrıl,
Dağlara hücum çək, zirvədə qıy vur,
El desin, laçınlar coşdu Laçınsız.

Vətən torpaqları yad əllərdə olarkən şair qəlbi dinclik bilmir, nisgilini, ağrı-acısını misralara köçürür və bir gün Qarabağa qovuşacağına, ulu türkün zəfər nəğməsinin səslənəcəyinə, azadlığın Azərbaycan səmasında bir günəş kimi doğacağına ümid edir:

Beşikdən məzara əhdi pozmayan,
Zəfər nəğmələri oxuyandı türk!
Nağıl uydurmayan, yalan yazmayan,
Göydə günəş kimi şaxıyandı türk!

Elə də oldu. Yanılmadı şair qəlbi və Qarabağın azadlığına qovuşması ilə ələmdən nəşəyə keçdi! Türkün Zəfər nəğmələri dağlara yayıldı! Şuşa dağlarını gözü dolusu görə bilməyən dağlar şairi 30 illik həsrəti ovutmaq üçün dağlara sarı yol aldı. O, yerə-göyə sığmayan Qarabağ sevincini oxucuları ilə paylaşdı:

Qarabağım – açılan qaş-qabağım,
Ay dan üzüm, ay gündüzüm, xoş gördük!
Doymuram ki, cəlalına ha baxım,
Gülə-gülə dolan gözüm, xoş gördük!

Müxənnətlər özlərini öyərdi,
Anam qəmli bayatılar deyərdi...
Arzularım birər-birər göyərdi,
Qaralmayan odum-közüm, xoş gördük!

Dağlarını sinə dağım bilmişəm,
Mən xırmanda həsrət döyən vəlmişəm...
Dizin-dizin sürünmüşəm, gəlmişəm,
Qurban ollam sənə özüm, xoş gördük!

Laçına həsr etdiyi şeirində isə yazdı:

Görüşünə imrənmişdim,
İzim düşdü yoxuşuna.
Diklərinə dirənmişdim,
Aldı məni ağuşuna.

Laçında yer göyə yaxın,
Mələklər göydəndüşmədi.
Gözüm öpdü bu növrağı,
Sözə yad ilmə düşmədi.

Həkəriçay dəcəl-xata...
Yüyənsiz at kimi çapır.
Elə bil ki, adam burda
Əziz itiyini tapır...

Artıq yurd ünvanlı ələmdən çıxan Əli Nəcəfxanlının nəşə dolu bir şeirinin də qəhrəmanı Laçına köçüb orada bəxtəvər günlər yaşayan bir qızdır. Görün bu nəşəni, fərəhi necə qələmə alıb:

Bir qız arzuların qanadlarında
Bakını tərk edib, Laçına gedib.
Şəhərli qızların diliylə desək,
Dünyanın o biri ucuna gedib.

Bir Laçını seçib quş adlarından,
Quş kimi səkib də, o şadlanıb da.
İslanıb sevincin gürşadlarında,
Az qala uçuna-uçuna gedib.

Günə gülümsəyir, aydan yaşmanır,
Baxtı yamanlamır, vaxtı daşlamır.
Gül-çiçək içində gəzib xoşlanır,
Çələng hörüb, qoyub saçına, gedib.

Yaşayır il boyu baharı orda,
Həyatın dadını çıxarır orda,
Dünyada yermi var yuxarı ordan?
Qovuşub taxtına-tacına, gedib.

…Nə yaxşı ki, kədərli seirlərdən sevinc dolu nəğmələrə keçid aldın, şair!

**Zülfiyyə ZİYA**





Elnur İRƏVANLI

### YARAN HƏSRƏTİMİN YARASI BOYDA

Kaş ki loğman olub dərman tapaydım
Sənin dərdlərinin çarəsi boyda.
İllərdi göynəyib qaysaq tutmayan
Yaran həsrətimin yarası boyda.

Dayanmısan heykəl kimi dili lal,
Dişlər muncuq, sinə bəyaz, qaş hilal.
Bilirsənmi, ürəyimə düşüb xal,
Gözəl, gözlərinin qarası boyda.

Sazaq gəldi, şaxta bizi bürüdü,
Yağan qarı saçımıza kürüdü.
Qönçə ikən xəzan olub çürüdü
Eşqimiz payızın urası boyda.

### HAQQA ƏYİLƏNDƏ UCALIR İNSAN

Özünə inanıb özün tapanda
Yaradıb qurmaqdan bac alır insan.
Yer üzü bir taxtdı, bəşər də ki şah,
Onu Yaradandan tac alır insan.

Göz niyə yaranıb? – Baxmaqdan ötrü.
Çay niyə qıvrılır? – Axmaqdan ötrü.
Haqqın zirvəsinə çıxmaqdan ötrü
Haqqa əyiləndə ucalır insan.

Dünyanın hikməti çoxdu, dərindi,
Ömür sevincin yox, dərdi-sərindi.
Vaxtın gətirdiyi yuxu şirindi,
Ona aldananda qocalır insan.

### ƏVVƏLİM AXIRA GƏLİB ÇATDI Kİ...

Bəxtimin üzünü ağartmaq üçün
Bir adam bir ovuc əhəngi verməz.
Rəssam dostlarımın getsəm üstünə,
Mənim axtardığım o rəngi verməz.

Bir yerdə yurd salıb qurmadım binə,
Öyrəşəm dumana, bağlanam çənə.
Bəxtimi çəkməyə bəxt yazan mənə
Nə fırçanı verməz, nə rəngi verməz.

Əvvəlim axıra gəlib çatdı ki,
Mürgü vuran günlər yatayatdı ki.
Sürdüyüm bu ömür kəhər atdı ki,
Ayağım qoymağa üzəngi verməz.

### HARA GEDİRİK

Yaxşı adamları bu dünyamızda
İtirə-itirə hara gedirik?
Yük edib dərdləri boynumuza biz
Götürə-götürə hara gedirik?

Oğulsansa, seç ərəni, seç əri,
Qurd da, quş da köçəridi, köçəri.
Yeyib bir-birini çöldən içəri
Ötürə-ötürə hara gedirik?

Alabaşlar baş aparır ulayıb,
Yol axtarar quyruğunu bulayıb.
Çiçək talasında qanqal sulayıb
Bitirə-bitirə hara gedirik?

Günahımız nədir, düşdük bu günə,
Bir yumaqda dönmüşük min düyünə.
Mərdi dizin-dizin namərd önünə
Gətirə-gətirə hara gedirik?

## YAŞAMADIM ÜRƏYİMCƏ

Ümidimi bu ömür, gün
Puç elər, puç elər, gedər.
Qorğa dərdlər ürəyimi
Sac elər, sac elər, gedər.

Yaşamadım ürəyimcə,
Ərimişəm incə-incə.
Kədər gözümü sevincə
Ac elər, ac elər, gedər.

Bu nə qurğu, bu nə kələk,
Yarı iblis, yarı mələk.
Bir dərdimi zalım fələk
Üç elər, üç elər, gedər.

Ümidlər dönüb qılınca,
Kəsər səbrimi alınca.
Gələn gedənin dalınca
Köç elər, köç elər, gedər.

## QƏM BİLƏNİ SEVİNC BİLMƏZ

Qismətimə püşk atanda
Gəlib müdam zülm düşür.
Ahım alovlanan yerdən
Tüstüm çıxır, külüm düşür.

Get dünyanı çıraqla gəz,
Qəm biləni sevinc bilməz.
Əllərimi cibim sevməz,
Əllərimdən pulum düşür.

Səbir böyükmüş dözümdən,
Yaşamaq düşüb gözümdən.
Hər gün özümün özümdən
Neçə dəfə yolum düşür.

## DƏRD HAMINI BİR-BİR YENİR

Yar gəzənin qismətinə
Özgəsinin yarı çıxır.
Var gəzənin varlığından
Namus itir, arı çıxır.

Hər əsəbə dözmür sinir,
Dərd hamını bir-bir yenir.
Gələnlər aşağı enir,
Gedənlər yuxarı çıxır.

Hərə bir biçimdə, donda,
Kim o yanda, kim bu yanda.
Yaşadığım ömrün sonda
Nə qədər çıxarı çıxır.

## SƏN DÜNYANI BİZDƏN OXU

Ürəyin aynası gözdür,
Ürəkləri gözdən oxu.
Dərinləri dərində gəz,
Dayazları üzdən oxu.

Çağlar özgə çağlar olub,
"Var"lar olub, "yox"lar olub.
Dağlar niyə dağlar olub?
Get yamacdan, düzdən oxu.

Qorun kölə, müti hissdən,
Qaç dumandan, gizlən sisdən.
Ayırıb yaxşını pisdən,
Bacar, sözü sözdən oxu.

Bu nə rəngdir, nə boyadır,
Günəş gündüzə ziyadır.
Hər bir insan bir dünyadır,
Sən dünyanı bizdən oxu.



# ŞAİR İBRAHİM İLYASLININ SEVGİ ŞEİRLƏRİ ÜSTƏ GƏZİŞMƏLƏR

Yəqin, heç kəsdə mübahsə yaratmaz, desək ki, indiyədək dünyada nə qədər insan yaşamışdırsa, bunların az bir sayı istisna olmaqla, böyük əksəriyyəti bu və ya başqa formada sevgi, məhəbbət hisslərini yaşamamış olsun. Və bunların da mütləq əksəriyyəti ilk məhəbbət bəlasına mübtəla olmamış olsun. Məhəbbət haqqında dilimizdə minlərlə aforistik deyimlər, müdrik fikirlər yaranmışdır və bu aforizmlərin müəlliflərinin də ilk məhəbbətin cəfa və ya səfasın çəkmiş insanlar olduqları da, yəqin ki, şübhə doğurmur. Məlundur ki, bu aforizmlərin müəllifləri müxtəlif xalqlara, millətlərə mənsubdur, məkan etibarı ilə yer üzərində insanların yaşadıqları bütün əraziləri əhatə edir, zaman etibarı ilə müxtəlif vaxtlarda deyilib. Beləliklə, bu  qənaətə gəlmək olar ki, məhəbbət laməkandır, sərhəd tanımır, zamanın fövqündədir, əbədidir, milliyyəti yoxdur. Təbii ki, dediklərimi saysız-hesabsız misallarla təsdiq etmək olar. Elə bu səbəblərdən də belə demək olar ki, insan cəmiyyəti yarananda onlar arasında yaranan ilk münasibət sevgi-məhəbbət münasibəti olmuşdur, Yer üzündə bütün insanlar Adəm və Həvvadan yaranmışdır. Bu baxımdan da məhəbbət mövzusu poeziyamızda ən qədim mövzudur.

Araşdırmalar və müşahidələr göstərir ki, məhəbbət şeirləri şairlərin ilk şeirlərinin mövzusu olub. Şairlərimizin böyük əksəriyyəti də ilk məhəbbət bəlasına düçar olduqdan sonra şeir yazmağa başlayıblar və onlar uzun müddət ilk məhəbbətin təsiri altında çoxsaylı, silsilə şeirlər yazıblar. İlk məhəbbətdən yaranmış duyğular getdikcə püxtələşmiş, kamilləşmiş və sonda ilk məhəbbət şeirləri tədricən ictimai məzmun kəsb edən şeirlərlə əvəz olunmuşdur. Müşahidələr də sübut edir ki, dünyaca məşhur şairlərin də ən gözəl şeirləri sevgi və məhəbbətə həsr olunmuş əsərlərdir. Elə bilirəm ki, dediklərimə dahi Nizaminin “Xosrov və Şirin”, Füzulinin “Leyli və Məcnun”, Şeksprin “Romeo və Cülyetta”,

Puşkinin "Ruslan və Lüdmila" poemalarını, müəllifi və yaranma tarixi bilinməyən "Yusif və Züleyxa", "Tahir və Zöhrə", "Şahsənəm və Qərib", "Əsli və Kərəm" məhəbbət dastanlarını misal gətirsəm, kifayət edər. Deyilənlərdən belə nəticə hasil olur ki, məhəbbət mövzusu poeziyamızın əzəli və əbədi mövzusu olaraq qalacaqdır. Bir həqiqət də aydındır ki, dünyada nə qədər insan var, o qədər də məhəbbət var və bu məhəbbətlərin heç biri də bir-birinə oxşamır. Bu səbəbdən şairlərin məhəbbət mövzusunda yazdığı şeirlərin məzmunu da, müəllifin ustalığı da, poetik ifadə forması da fərqlidir.

Yaradıcılığını araşdırmaq istədiyim İbrahim İlyaslı fitrətən məhəbbət şairidir. Onun nəinki məhəbbət mövzusunda yazdığı şeirlər, əslində, bütün yaradıcılığı tamamilə səmimiyyətdən yoğrulub. Elə ona görə də şeirləri bu qədər oxunaqlı, cəlbedici, yaddaqalandır. Xalq şairi, ustadımız Nəriman Həsənzadə demiş: "Onun təfəkkür tərzi aydın olduğu üçün fikrini sadə şəkildə ifadə edir, istədiyi oxucuda istədiyi poetik ovqatı oyada bilir. İbrahim sözə qənaət edir, o, fikrə geniş yer verməyə çalışan oxunaqlı şairlərimizdəndir".

*Sən gözəl olmaya bilməzsən, xanım!*
*Sözlərindən çəmən, çöl ətri gəlir.*
*Bircə yol tel vurub səsini duydum, –*
*Bir ildi ovcumdan gül ətri gəlir.*

*Xəyalımda əsmər bənizin durur,*
*Unutmam – çalına İsrafil Suru...*
*Bu qara sevdadan, gözümün nuru,*
*İbrahim qoxuyan kül ətri gəlir.*

Təsadüfi deyil ki, İbrahim İlyaslı çağdaş poeziyamızda şeirləri bədii qiraətçilərin diqqətini özünə cəlb edən, radio və televiziya kanallarında, sosial şəbəkələrdə ən çox səslənən və dinlənən barmaqla sayılan şairlərimizdən biridir. Bədii qiraətçilərimizin ustalığına və ifasına zərrə qədər xələl gətirmədən elə burada xüsusulə qeyd etmək istəyirəm ki, İbrahım İlyaslının şeirləri öz səsində, öz ifasında daha möhtəşəmdir. Və mənə elə gəlir ki, şairin öz səsində şeirləri birbaşa öxucunun, dinləyicinin qanına, iliyinə işləyir.

Səmimi desək, İbrahim İlyaslının poeziya yaradıcılığı özünəməxsusluğu ilə fərqlənir və onun şeirlərində bir misra belə boşuna deyilməyib. Sanki bu misraların hər biri göydən bir vəhy şəklində diktə olunur:

*Könlümün gizli bir şahzadəsidi,*
*Ayın sirri, Günün ağ haləsidi.*
*Bu qoşma bir ahın şəlaləsidi,*
*İbrahim eləcə mirzədi, deynən.*

Elə bu baxımdan bu yazıda mən fikirlərimi İbrahim İlyaslının sevgi şeirləri üzərində kökləmək istəyirəm.

Görkəmli ədəbiyyatşünas alim, professor Rüstəm Kamal şairlərin sevgi şeirlərindən söhbət salanda belə bir söz demişdir: "Qadın sevgisi kişi yaddaşının varlığını şərtləndirir. Uşaqlıq xatirələrindən, yurd nisgilindən sonra sevgi tarixçələri kişinin xatırlamaq istədiyi ən şirin xatirələrdir". Rüstəm müəllimin bu kəlamları fonunda, İbrahim İlyaslının *"Sizin də məhləyə yağış yağırmı"* misrası ilə başlayan şeirini nəzərdən keçirək:

*Sizin də məhləyə yağış yağırmı,*
*Sular söyləşirmi navalçalarda?*
*Ala gözlərinə qonan buludun*
*Neçə yaşı olur bu son baharda?*

*Kəndə dönürsənmi xəyallarında,*
*Yadına düşürmü o payız günü? –*
*Birlikdə məktəbdən evə dönürdük,*
*Yeni haqlamışdıq "Sarı Körpü"nü.*

*"Və qəfil başladı leysan tökməyə, sel ağzına aldı bərəni, bəndi".* Bu şeiri oxuduqca mənə elə gəldi ki, şair bu şeiri elə həmin anda, o dəm, bədahətən, məktəbdən evə qayıdanda yazıb. Baharda yenicə tumurcuqlamağa başlayan çiçəklər kimi içində çücərmək ictəyən pak, təmiz, şəffaf və zərif duyğuların ifadəsidir bu şeir. Adama elə gəlir ki, müəllif içində bu cücərən müəmmalı, anlaşılmaz duyğuların sevgi adlandığını, bəlkə, heç özü də hələ dərk də bilmirdi. Şeiri oxuduqca ifadənin səmimiliyi oxucunu heyrətə gətirir:

*Başqa yermi vardı daldalanmağa,*
*Qaçıb akasiyanın altında durduq...*
*...Titrəyib əsirdin həyəcanından,*
*Tutub əllərindən "qorxma" söylədim.*
*Qorxulu nağıllar düşdü yadıma,*
*Sənin qəhrəmanın olmaq istədim.*

*"Sonrası?.... Nə deyim, sonrası heç nə. Buludlar dağıldı, yağış da kəsdi, Ancaq ürəyimdə şırım açmağa mənə bu xatirə bir ömür bəsdi."* İndi aradan 40 il keçdikdən sonra o vaxt cücərməyə başlamış, lakin gül açmamış bu sevdanın sızıltısı, göynərtisi yenidən müəllifi özündən alıb düz 40 il bundan əvvələ aparır:

*Sizin də məhləyə yağış yağırmı,*
*Sular sevişirmi navalçalarda?*
*Qırx ildi həməncə ağacın altda*
*Səni gözləyirəm, hardasan, harda?*

İbrahim İlyaslı öz yaradıcılığı haqqında danışarkən yazır: "Yazdıqlarımda uğurlu nə varsa, hamısına görə… çanağını ürəyim bildiyim saza, Yunus Əmrəni, Füzulini, Nəsimini, Seyyid Mir Həmzə Nigarini, müqəddəs ziyarətgahım Hacı Mahmud Əfəndini mənə anladan Nəqşibəndi müridlərinə... və bir də əzəlim-sonum İncə Dərəsinə borcluyam". Düşünürəm ki, İbrahim İlyaslı yaradıcılığının araşdırıcıları onun əsərlərini gələcəkdə məhz bu kontekstdə öyrənməli və araşdırmalı olacaqlar.

Bu mənada filologiya üzrə fəlsəfə doktoru, şairə Adilə Nəzər – "İbrahim İlyaslı bütün yaradıcılığı ilə Mövlanə,Yunis Əmrə mürididir" – deyəndə tamamilə haqlı imiş.

Mənim qənaətimcə, sevgi-məhəbbət şeirlərinə münasibətdə İbrahim İlyaslı həm də Füzuli mürididir. Füzulidə olduğu kimi, İbrahim İlyaslı da ilahi bir Eşqə mübtəla olub və şeirlərin qəhrəmanı da Füzuli kimi müəllifin özüdür.

Əgər Füzuli *"Məndə Məcnundan füzun aşiqlik istedadı var, Aşiqi-sadiq mənəm, Məcnunun ancaq adı var"* və ya *"Nə pərvanə doyar bir şöləyə, nə şəm bir aha, Füzuli, sanma kim, bənzər sənə aləmdə hər aşiq"* deməklə indi 500 il keçdikdən sonra bütün ədəbi aləm Məcnun obrazının məhz Füzulinin özü olduğunu etiraf etməyə məcbur edirsə, o zaman Füzuli dühası qarşısında bir daha baş əyməli olursan. Və həqiqətən, ona bənzər bir aşiqin olmadığını qəbul etməkdən başqa bir imkan qalmır. Məhz İbrahim İlyaslı da öz mürşidinin yolu ilə gedərək yaratdığı məhəbbət dastanlarında (Onun sevgi, məhəbbət haqqında yazdığı şeirlərin hər biri bir dastan yükü daşıyır) baş qəhrəman olaraq özünün obrazını yaradıb.



*Mən eşq əsiriyəm, gül sevdalısı,*
*Bircə bülbüllərə həsədim qalır.*
*Mən eşqə düşəndə canla düşürəm,*
*Çıxanda quruca cəsədim qalır.*

Diqqət yetirsək, görərik ki, İbrahim İlyaslı, bir qayda olaraq, sevgi şeirlərinə müxtəlif müəlliflərdən epiqraflar seçir. Seçilmiş epiqrafların xeyli hissəsi Füzuli qəzəllərindən götürülmüşdür və bu da təsadüfi deyil. Əslində, seçilmiş bu epiqraflar şairin-aşiqin Füzuli dühasına, onun şəxsiyyətinə, yaradıcılığına böyük sevgisindən, məhəbbətindən irəli gəlir. Ancaq təkcə bu da deyil. Füzulinin qəzəllərindən seçilən bir növ həm də Füzuli şeirinin ruhundan, məzmunundan, ahəngindən vəcdə gələrək onu qəzəlləri ruhunda öz qoşmalarını yaratdığına dəlalət edir. Gəlin şairin "Məni ömrüm boyu çək imtahana" misrası ilə başlayan şeirinə diqqət yetirək. Şeirə böyük Füzulinin *"Ya Rəbb, bəlayi-eşq ilə qıl aşina məni, Bir dəm bəlayi-eşqdən etmə cüda məni" bəndi epiqraf seçilmişdir.*

Böyük Füzuli burda epiqraf gətirilən şeirini qəzəl janrında, İbrahi İlyaslı İsə qoşma janrında yazıb. Hər iki əsərdə aşiq sevgilisinin vüsalına yetmək üçün hər cür cəfa çəkməyə hazırdır.

*Ya Rəbb, bəlayi-eşq ilə qıl aşina məni!*
*Bir dəm bəlayi-eşqdən etmə cüda məni!*
*Az eyləmə inayətini əhli-dərddən,*
*Yəni ki, çox bəlalarə qıl mübtəla məni!*

İbrahimi İlyaslının böyük məhəbbət şairi Füzuliyə müraciət etməsi təkcə ona olan böyük sevgidən irəli gəlmir, həm də sevgi və məhəbbətin əbədiliyindən irəli gəlir, hisslərin, duyğuların təkrar olunduğunu sübut edir.

*Məni ömrün boyu çək imtahana,*
*Mənə ömrün boyu zülm elə, noolar.*
*Görüm nə çəkibdir dəli-divana,*
*Görüm eşq əhlinə zülm ilə noolar.*

Şeirin ikinci bəndində İbrahım İlyaslı sanki yenidən Füzulinin *"Məni candan usandırdı, Cəfadan yar usanmazmı"* məşhur beytinə müraiətən şeirin növbəti bəndini davam etdirir:

*Təsəlli umduqca kəs umudumu,*
*Görüm necə olur candan usanmaq!*
*Tutuşub odlara, deyim-budumu*
*Füzulidə yanmaq, Vaqifi qanmaq!*

Şeir davam etdkcə oxucunu ovsunlayır, sehrinə salır. Sanki müəllifin aləmində, vəcd məqamındasan:

*Yaşıl ağac olam, qara daş olam,*
*Yolların üstündə bitməyə qoyma,*
*Sərgərdan ruh olam, kəsik baş olam,*
*Qoyma vüsalına yetməyə, qoyma.*

Göründüyü kimi, Füzulinin 500 il bundan əvvəl yazdığı qəzəllə İbrahim İlyaslının indi yazdığı qoşma məna etibarı ilə eyni səslənsə də, həm forma, həm də məzmunca fərqlənir.

Şair İbrahim İlyaslının *"Şair olmaq zülmdür"* kitabında *"Bir havanın dörd qoşması"* başlığı ilə təqdim olunmuş "Ömrüm" adlı qoşmaya müəllif Füzulinin

*Nalədəndir ney kimi avazeyi- eşqim bülənd,*
*Nalə tərkin qılmazam, neytək kəsilsəm bənd-bənd.*

Böyük Üzeyir bəyin "Arşın mal alan" operettasında və filmində Füzuli və Üzeyir bəy dühalarının birgə məhsulu kimi təqdim olunan Əsgərin ariyasının sözləri də, musiqisi də, ifa da, doğrudan da, möhtəşəmdir. Mən indi deyə bilmərəm ki, Füzuli qəzəli filmdəmi İbrahim İlyaslının diqqətini cəlb edib, yoxsa tamaşadamı? Hər halda, Əsgərin ariyasını dinlədikcə dərhal xəylından ilk sevgi oxu daşa dəymiş, sevgilisinin vüsalına çatmaq üçün hər əzab-əziyyətə qatlaşmağa hazır olan aşiqin kədərli anları göz önündən keçir.

Şair İbrahim İlyaslı isə təkcə Füzulinin deyil, həm Əsgərin, həm də müəllifin özünüün sevgi iztirablarını qeyri- adi ifa tərzi ilə, poetik ustalıqla ifadə edə bilib. Və güman edirəm ki, son dövrlərdə ədəbiyyatımızda və poeziyamızda bu səpkili bir əsər yaranmamışdır. İbrahim İlyaslının bu şeirini, bəlkə də, Füzuli qəzəlinə bir nəzirə adlandırmaq olardı. Lakin hər iki şeirin mətni mahiyyət etibarı ilə eyni olsa da, həm məzmun, həm də forma etibarı ilə bir-birindən ciddi surətdə fərqlənir. Etiraf etmək lazımdır ki, İbrahim İlyaslının "Ömrüm" şeirində sevgisinə qovuşmaq üçün hər əzaba hazır olan aşiqin iztirabları daha çanlı və daha inandırıcı, həm də daha qabarıq formada təqdim edilir. Müəllif həmin qoşmanı dörd hissəyə bölmüşdür və onu *"Bir havanın dörd qoşması"* adlandırmışdır. "Hava" deməklə düşünürəm ki, müəllif həm də Üzeyir bəyin operettasındakı ariyadakı kimi şeiri hansısa musiqinin, havanın sehri altında yazıb. Mənim qənaətimcə, şair həm də bu qoşmalarla xəyalən bir sevgi- məhəbbət dastanının süjetini, ssenarisini qurmuşdur. Hissələr bir-birindən fərqli olmaqla bərabər, həm də bir-birini tamamlayır:

*Dünən bir tənəli söz dedin mənə,*
*Nə şirin səsləndi, yenə de, ömrüm!*
*Nə xoşuymuş sənin acını çəkmək,*
*Ən acı sözünü mənə de, ömrüm.*

*Ərkini görk elə – nə sədd, nə sərhəd,*
*Unut nə olandı insaf, mərhəmət...*
*Mahnıda deyir e... kəs doğra bənd-bənd,*
*Canım ney deyil də, bə nədi, ömrüm?*

Göründüyü kimi, aşiq sevgilisinin vüsalına yetmək üçün hər acını çəkməyə hazır olduğunu bildirməklə, insaf və mərhəmətin nə olduğunu sevgilisinə unutdurmaqla bir ney kim bənd-bənd doğranmağa hazır olduğunu bəyan edir. Və budur, bütün bu iztirabların sonu, aşiq vüsal dəmindədir:

*Sön dedin göylərin çırağı söndü,*
*İtirdim qibləmi, bu hansı yöndü?*
*Ağzımdan çıxınca bülbülə döndü,–*
*Hanı bərabəri bu ahın, ömrüm?!*

*Olmazlar vardı ha... nəhayət, oldu,*
*Eşqin sirr üzünə səyahət oldu!*
*Yanında gündüzlər xəcalət oldu,*
*Gecəsinə şükür Allahın, ömrüm.*

Qoşmanın 3-cü hissəsi vüsal dəminin şirinliyinin vəcd məqamında təsvir olunur.

*Gözündən irağa qoyma, təngidim,_*
*Mənə hava göndər bir udum, ömrüm.*
*Sinədən sıyrılmış ürək kimidir, –*
*Gör necə çırpınır vücudum, ömrüm.*

*Gəl, ya dəli elə, ya qandır məni,*
*Ya gizlət ovcunda, ya yandır məni.*
*Hər gün bir yalana inandır məni,–*
*Səndən üzülməsin umudum, ömrüm.*

Və qoşmanın sonuncu hissəsi. Aşiq sevgilisinin vüsalına yetdikdən sonra, bəlkə də, demək olardı ki, o artıq arzusuna catıb. Lakin sən demə, bu hələ başlanğıcdır. Sevgilisinin vüsalına çatmaq, eşqin sirr üzünə səyahət etmək, təsəvvüründə canlandırdığı “olmazlar”ın olması hələ hər şey deyilmiş. Aşiqin od kimi yaşamaq əhdi, sevgilisinin şəhla gözlərində alışıb- yanmaq arzusu var imiş. Yenə də böyük Füzulinin “Leyli və Məcnun” poemasının qəhrəmanı obrazında təsəvvür edir özünü:

*Divanə olanın məskənı çöldü,*
*Bir barmaq alovdu, bir ovuc küldü.*
*Mənimtək qulların yeri könüldü,*
*Gözündən könlünə sat məni, ömrüm.*

Və nəhayət, şeirin finalı. Aşiq fiziki aləmdən ayrılıb xəyalən əbədi olaraq sevgisinə qovuşmağa can atır. Bu artıq böyük eşqdir. Müəllif süfiyanə bir tərzdə cezv məqamındadır.

*Oydur gözlərimi – gözü tox olum,*
*Bir az artır məni – bir az çox olum.*
*Səndə var olmuşam, səndə yox olum,*
*Əridib özünə qat məni, omrüm.*

Mən həm də düşünürəm ki, İbrahim İlyaslı 4 fərqli, eyni zamanda bir-biri ııə üzvi surətdə bağlı “Ömrüm” qoşmasını yazmaqla çağdaş şeirimizdə sentimental poeziyanın təkrarsız nümunəsini yaratmışdır.

Klassik Azərbaycan poeziyasında sentimental poeziyanın ən parlaq nümunələrini “Leyli və Məcnun” poemasında Məhəmməd Füzuli yarat - mışdır. Sonrakı dönəmlərdə istər klassik, istərsə də çağdaş poeziyamızın bir çox nümayəndələrinin yaradıcılığında sentimental mövzulu və ruhlu nümunələr kifayət qədərdir. Əslində, sentimental hisslərin özü böyük eşqdən, sevgi və məhəbbətdən qaynaqlanır. Hələ məşuqunun vüsalına yetməmiş aşiq həmin vüsalı xəyallarında qurur. Sevgilisinin vüsalına yetmək üçün hər çür əzab-əziyyətə qatlaşmağa, cəfalar çəkməyə, hətta ölümə belə getməyə hazırdır. Lakin burda ölüm yoxdur, qovuşma var. Ruhən qovuşma. Şair *“Səndə var olmuşam, səndə yox olum, əridib özünə qat nəni, ömrüm”* deməklə artıq sevgilisinin vüsalına qovuşmuş olur. Düşünürəm ki, İbrahim İlyaslı “Ömrüm”qoşması ilə mürşidi Füzulinin yolu ilə gedərək parlaq sentimental poeziya nümunəsi yaratmışdır.

Ramiz GÖYÜŞ,
*Yazıçı-publisist*





## Elman İSGƏNDƏR

### PAYIZ

Hər yer sarı-qırmızı –
yer sarıdır, göy sarı...
Tanrının sirr fırçası
boyayıb ağacları...

Saralan tək ağacmı?
Yağış da sarı yağır...
Yarpaq sarı hıçqırır,
otlar sarı ağlayır...

Səsini atıb külək,
sarı nəğmə oxuyur.
Yerə döşənən xəzəl
sarı xalı toxuyur.

Quşların başbiləni
yenə də önə keçir.
Yığıb köç-külfətini
isti yerlərə köçür.

Yay geridə qaldı ta,
Günəş yatdı buludda,
saraldı göy üzü də.
qış ağarır üfüqdə...

### DƏRD

*İtirə-itirə tapmaqdansa mən,*
*Nə tapmaq istərəm, nə itirməyi.*
***Eldar İskəndərzadə***

Nə tapdıq ki bu həyatda?
Nələr itirdik, qardaş...
Bir qarışlıq tifildik:
oyuncaq istəyirdik,
fələk bizə nə verdi?
Biz nə götürdük, qardaş...
Nə tapdıq, nə itirdik?...

Atamıza doyunca
“ata”– deyə bilmədik...
Atamızı itirdik...
Elə bil
yaşa dolduq,
tez böyüdük elə bil...

Üzümüzün gülüşə,
əlimizin çörəyə
çatmaq həsrəti vardı...
Fələksə sıramızdan
nakam qardaş apardı...

Ömür elə dolandı,
itkilər gendi-boldu...
Tapılanlar yalandı,
itənlər gerçək oldu...

Sevinc dərddən qaçarmış,
dərd dərdsizdən aralı.
Dərd dərdlini taparmış,
yara da yaralını...

Heç qalmayıb, doğrusu:
nə itirmək qorxusu,
nə axtarmaq sorğusu...
Biz təpədən-dırnağa
Dərdin özüyük, qardaş.
Nə tapdıq bu həyatda?
Nələr itirdik, qardaş...

## SAY

Fələk itirdi hesabı.
Saydığını necə sayım?
Vergüllərin solu tamdı,
sağını qoy heçə sayım...

Aylar ayların eynidir.
Fəsillər də eyniləşir...
Elə yay gəlir, qış gəlir,
payız gəlmir, cücə sayım.

Zülmətdən payımı aldım,
bəs günəşdən hanı payım?
Zamanı günbəgün deyil,
gərək gecə-gecə sayım?

Fikrin azad olduğunu
şeirdə necə axtarım?
Sərbəst yazmaqmı doğrudu,
yoxsa heca-heca sayım?

## SƏADƏT XƏYALI

Ey xoşbəxtlik arzusu,
ey səadət xəyalı...
Səni düşünüb, çıxdım
mənzilsiz bir səfərə...
Oldun həyat amalım.
Sənə yetmək nə çətin,
nə çox tələ qurdun sən?
Sənə yetməkdə ikən
məndən uzaq durdun sən...
Kim qarğıdı yoluma,
ahı-naləsi oldu?
Səndən ayrı düşməyim
nəyin bəlası oldu?..
Ey səadət xəyalım,
nə etibarsız oldun?...
Ey qəddar hökmü yazan,
necə sərt imiş cəzan?..
İllərim yandı getdi,
ömrüm xərcləndi getdi...

## YOXLUĞUMA XİTAB

Yenə kömür kimi dilim qor dadır,
Gözə üfürdükcə gözdən köz yağır...
Yenə samovartək içim qaynayır,
yenə tüstülənir düdkeş papağım...

Zaman dolanmağı hər an ləngidib,
dahilər nə udub, onnan cəng edib?
Niyə mən özümü dahi zənn edib
əlimin içində saxlayım axı...

Ruhum nə gördüsə, dinclik görmədi,
xoşbəxtlik üzümə üz çevirmədi...
Bu həyat özümə heç nə vermədi,
elə tərif oldu, mənə göz dağı...

Daha əbədiyyət yolundayam mən,
tənhalıq, nakamlıq yağır üzümdən.
İndi yoxluğumla danışıram mən,
narahat ruhuma deyirəm ağı...

## XƏBƏR ALSANA

Məndən soruşma halımı,
özündən xəbər alsana...
Axtarma bais zalımı,
gözündən xəbər alsana...

Tənə vurma mən fağıra:
“Necə düşdük bir cığıra?”
Tüstüsü məni yaxır a,
közündən xəbər alsana...

Xəbərsiz qoyub çoxunu.
Pünhan atıbdı oxunu...
Dodağıma nə toxunur, –
üzündən xəbər alsana...





# *Xəyal RZA*

## EVSİZ QAPI

Salam, yaşıl qapı,
Salam, ağ qapı,
Köhnə dəmirlərdən
Cağbacağ qapı.
Hələ qırmızısı,
Sarısı da var,
Yarını gözləyən, yarısı da var
Sökülmüş, uçulmuş, köhnə evlərdə
Xəstə, əldən düşmüş qarısı da var...
Salam, evli qapı,
Salam, dul qapı,
Salam, ağa qapı,
Salam, qul qapı,
Atılsan, kimsənin vecinə olmaz..
Satılsan, yox yerdən dolar pulqabı.
Salam, həyət qapı,
Salam, yol qapı,
Salam, qabaq qapı,
Salam, dal qapı,
Nəzərdən, fitnədən
Uzaq ol deyə,
Boynundan sallanan
Qara nal qapı.
Salam, otuz doqquz,
Salam, qırx qapı,
Salam, söyülməkdən
Üzü tökülmüş,
Hər gün min təpiyə
Qonaq edilən
Səbirli, təmkinli,
Ay qırıq qapı.
Salam, yaxşı qapı,
Salam, pis qapı,
Salam, paslı qapı,
Salam, his qapı,
Salam, qızıl qapı,
Salam, mis qapı,
Salam, qara qapı,
Avara qapı,
Salam, köçkün qapı...
Tərtəmiz qapı.
Salam, evsiz qapı,
Ən əziz qapı!

## YOSUNLAR

Məndən bir şey qalmaz
Bu Yer üzündə –
Bir qara qəpik də,
Bir qara daş da.
İndi hər nə varsa
Göy üzündədi –
Qanadlı balıq da,
Qanadsız quş da.
Məndən bir şey qalmaz
Bu yer üzündə –
Nə şeir, nə yazı, nə söz, nə söhbət..
Bütün yetimlərə mərhaba...
Bir də...
Məhəbbət, məhəbbət, yenə məhəbbət!
Məndən bir şey qalmaz
Bu yer üzündə –
Mənim nəyim var ki,
Mənim kimim var?!
Yeyib bitiriblər bütün dünyanı,
Bircə mən qalmışam...
Və... Qarışqalar…
Məndən bir şey qalmaz
Bu Yer üzündə –
Yosunlar ehsandı ayaq izimdə…
Məndən heç nə qalmaz
Bu Yer üzündə –
Nə Allah özündə, nə göy özündə…
Məndən heç nə qalmaz
Bu Yer üzündə...
Yosunlar, yosunlar, yazıq yosunlar…
Hər şey mənimlədir, yerdən göyədək –
Bütün başlanğıclar və bütün sonlar…

## YETİM QAPI

Salam, evsiz qapı,
Ən əziz qapı...
Salam, aciz qapı,
Çarəsiz qapı.
Salam, göy üzünün
Təkbir qapısı.
Salam, Yer üzünün əsir qapısı...
Yoxsul insanların kəsir qapısı!
Salam, cənnət qapı, cəhənnəm qapı,
Ürəyi yaralı, gözü nəm qapı,
Hər kəsin bəxtəvər, xoşbəxt sandığı,
Bir az sərxoş qapı, bir az dəm qapı.
Salam, əsəb qapı,

Salam, hirs qapı,
Salam, höcət qapı,
Salam,  tərs qapı.
Gözləri eynəkli,
əli əsalı,
dişləri çürümüş ay şikəst qapı,
salam, möhkəm qapı,
salam, bərk qapı,
salam, alim qapı,
salam, dərk qapı,
kasıbın-kusubun
ümid çırağı,
yetim-yesir üçün
hələ ərk qapı...
Salam, bacı qapı,
Ay qardaş qapı,
Atam, anam qapı,
Həmsirdaş qapı.
Yumruğa çevrilən,
Dəmirə dönən,
Dərdlərin şəriki
Vətəndaş qapı!
Salam, namus dağı,
Vicdan ocağı,
Qürurum, şərəfim, qeyrətim qapı.
Salam, gözü yolda, qulağı səsdə,
Kimsəsiz, binəva, ay yetim qapı...

**BU DÜNYA EŞQ QOXUYAR...**

Ümidi sındıranlar
Böyük günah yiyəsi...
Bu gecə gözlərindən
Gecə qara geyəsi...
Qaranın da ağ günə
Çıxmağı ağ yalandı.
Qəm eyləmə, çoxunun
Ömrü belə talandı...
Səhərin gözü kordu,
Görməsə – haqqı çatar!
Bəxt də günəş kimidi,
Gah doğar, gah da batar...
Kor olsa da, sevginin
gözləri – eşq oxuyar!
Hər kəs od tutub yansa,

***

Məni yaman qucaqladın
Qaşla göz arasında...
Sol yanımdan yapışdın
Ömrün sağ yarısında.

Gəldim, gördüm, tez qayıtdım,
Vaxtını çox almadım,
Sən mənimçün darıxmışdın,
Mən də mənsiz qalmadım.

Ayılmasam, nolacaqdı,
İlahi pərvərdigar?
İşim-gücüm, sevdiklərim,
Yarımçıq əlyazmalar...

Bir nağılın sonuyammı,
Beləmi biətəcəkdi?
Dünya qazanacaqdısa,
Dünya itirəcəkdi?

**SƏNİN SUSMAĞINA QULAQ ASIRAM**

Sənin susmağına qulaq asıram-
İçimdə boynunu bükmüş suallar.
Cavablar əskikdi suallarımda
Hər yetim sualın min cavabı var.

Sənin susmağına qulaq asıram –
Sükut gözlərinin yağışı kimi,
Dilində daşlaşan bütün kəlmələr
Naməlum heykəlin baxışı kimi.

Sənin susmağına qulaq asıram –
Sanki duyğularım ölümcül yatıb.
Elə bil bu dünya lal doğulubdu,
Ya da bu dünyanın səsi də batıb.

Sənin susmağına qulaq asıram –
Susub danışaqmı uzun-uzadı?..
Bütün sözlərimin açarı sənsən,
Bütün kəlmələrim bu lal qızadı.

Sənin susmağına qulaq asıram –
İçimdə boynunu bükmüş suallar,
Cavablar əskikdi suallarımda,
Bütün sualların BİR cavabı var…

***
Ağacları soydular,
Bir balaca sərçənin
Gözlərini oydular,
Sarı yarpaq ağladı.

Yaşıllar toy-düyündə,
Yarpaq-yarpaq gözəllər.
Quş quşun köməyində,
Sarı yarpaq hardadı?..

Saçların qarasına
Hördülər ilmə-ilmə,
Dərdlərin yarasına
Sarı yarpaq bağlandı.

Sonra külək dayandı
Və ağaclar ölmədi.
Bütün gedənlər gəldi,
Sarı yarpaq dönmədi...

## SARI ÇİÇƏKLİ MATƏM BAYRAĞI...

*(Vaqif Səmədoğlunun əziz xatirəsinə)*

Bir külək əsəcək sabah –
Vida küləyi...
Qurumaqda olan
Bir körpə paltarı yellənəcək ipdə –
Sarı çiçəklidir ətəyi,
Matəm bayrağına bənzətmişdi onu
Hələ otuz üç il əvvəl
Bir şair...
Budur şairin
rəngli həyat hekayəsinin sonu –
sarı çiçəkli uşaq paltarı...
dalğalanan matəm bayrağı...
və sair... və sair...
Bir də
Dar quyu –
Dibi qranlıq və nəm...
Ağrısız-filansız
Bir az yatmaq istəyən şairi
Əbədi yatmağa göndərdik bu dəm...
Yandırın qəm içindəki
İşıqları...
Qaldırın bayraqları
Şair... öldü!

## QARA GÖZƏLƏ ELEGİYA...

Keçər bu körfəzdən yekə bir gəmi,
Gəmidə beş gəmi yazıq adamlar,
Bir qara gözəlin mavi göz yaşı
Şopenin ritmiylə dənizə damlar…

***
Görüşüb, öpüşüb, qucaqlaşarlar,
Dəniz damlaları özündən bilər,
Bu qızın bu yaşda yaşadıqları
Gəlməzmi dünyanın gözündən, gələr…

***
Gah günəş yandırar ümidlərini,
Gah sazaq dondurar arzularını,
Gözünü yumanda ölmüş körpələr,
Gözünü açanda can verən qarı...

***
Neçənci gündüzdür, neçənci gecə?..
Günlərin sayını salıb itirər...
Qəribə bir dildə nəsə pıçıldar,
Bir-bir barmağını sayıb bitirər.

***
Külək zəhrimar da başlayar yenə,
Görünməz dünyanın azad ölkəsi.
“Bəlkə, aldadıblar, sağ qalan yoxdu”,
Boğular içində yetim həvəsi.

***
Keçər bu körfəzdən yekə bir gəmi,
Gəmidə beş gəmi yazıq adamlar…
Bir qara gözəlin... Körpə bədəni...
Bir də ki... buz kimi soyuq dalğalar...

## AY PARASI

Bir sehrli mücrü ola –
içində AY parası...
Açasan ki, tapılıbdı –
gözlərinin qarası...

Gecə düşə, qaranlığa
asasan AY balanı...
Unudula Yer üzünün
gerçəkləri, yalanı.

Ulduz aça, arzuların,
ümidlərin bərq vura.
Ruhun uça bədənindən,
bu dünyadan qurtula!

***

Bir yağış düşünürsən...
Yağsın, yağsın, deyirsən...
Yağsın, yağsın buludlar.
Yağsın, yağsın binalar,
yağsın, yağsın ağaclar,
yağsın, yağsın adamlar...
intəhası o deyil!
Bir qapı düşünürsən...
Dolsun, dolsun, deyirsən...
Dolsun, dolsun yağışlar,
dolsun, dolsun küləklər,
dolsun, dolsun ümidlər,
dolsun, dolsun adamlar,
intəhası o deyil!
Bir adam düşünürsən...
Sevsin, sevsin, deyirsən...
Sevsin, sevsin yağışlar,
Sevsin, sevsin qapılar,
Sevsin, sevsin adamlar,
Buludlar,
binalar,
Ağaclar,
Küləklər,
Ümidlər...
intəhası o deyil!



**ZƏHRA**

Üzündə qan ləkəsi – Zəhra.
Dərdlərin ən yekəsi – Zəhra.
Körpələr mələkdilər, Zəhra,
Sənə silah çəkdilər, Zəhra.
Körpəyə qıyılarmı, Zəhra,
Göz yaşım quruyarmı, Zəhra?..
Qanadların gözəldir, Zəhra,
Onlar sənə özəldir, Zəhra...
Uçub getdin göylərə, Zəhra...
Yerim fəryad eyləyər, Zəhra,
Bəndə Tanrı quludu, Zəhra,
Qulun haqqı uludu, Zəhra,
Dünya göz yaşın boyda, Zəhra,
Ömür başdaşın boyda, Zəhra,
Ürək boyda kəfəni – Zəhra...
İki yaşlı VƏTƏNİM – Zəhra!

**MƏNİM DƏRDİM TƏKCƏ SƏNSƏN?**

Sənin çəkdiyin dərd mənəm,
Çək sürü, başına dönüm.
Nə çəkim var, çətin gələm,
Tək sürü, başına dönüm!

Evin yolun itirmişəm,
Yolum haradı, bimirəm...
Sağımda itlər ulaşır,
Solum haradı, bilmirəm.

Ürəyimdə "at yarışı",
Yuxum üzümə dirənib.
Varım yoxa çıxıb, vallah,
Yoxum üzümə dirənib.

Sınıq – sökük xatirələr,
İnan, ağladıb anamı.
Ana, sənə qurban olum,
Niyə doğdun bu adamı?!

Mənim dərdim təkcə sənsən?
Çəkərəm, başına dönüm!
İşimin adı nədi ki...
Bekaram, başına dönüm!



## Ayan Süleymanlı

296 saylı məktəbin 6-cı sinif şagirdi.

















ISNN 0134-522
İNDEKS AZ 1000
2 AZN